Xalqın qəzeti!

# Xalq qəzeti

№ 87 (30491) 30 aprel 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Çin səddindən Xəzər sahillərinə mötəbər tərəfdaşlıq körpüsü

## Prezident İlham Əliyev Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Çin Xalq Respublikasının Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Yan Vanmini qəbul edib.**

Dövlətimizin başçısı Azərbaycan–Çin siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayaraq ikitərəfli münasibətlərdə son vaxtlar böyük canlanmanın baş verdiyini qeyd etdi. Nəqliyyat sahəsində çox fəal birgə işlərin aparıldığını deyən Prezident İlham Əliyev bu baxımdan Transxəzər nəqliyyat dəhlizinin Orta Dəhlizin bir hissəsi olduğunu vurğuladı. Dövlətimizin başçısı sərmayə qoyuluşu nöqteyi-nəzərindən yaxşı irəliləyişin olduğunu dedi. Belə ki, Çin şirkətləri Azərbaycana daha böyük həcmdə sərmayə qoyur. Dövlətimizin başçısı, eyni zamanda, COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan–Çin məsləhətləşmələrinin aparıldığını vurğuladı. Prezident İlham Əliyev humanitar sahədə də gündəliyin kifayət qədər geniş olduğunu bildirdi, Yan Vanminin ölkəmizə səfərinin əməkdaşlığımızın genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən qonaq, ilk növbədə, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Yan Vanmin ulu öndər Heydər Əliyevin və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük inkişaf yolu keçdiyini, ölkədə siyasi sabitliyin bərqərar olunduğunu, iqtisadi yüksəlişin əldə edildiyini, əhalinin rifah halının yüksəldiyini və respublikamızın beynəlxalq aləmdə layiqli yerini tutduğunu vurğuladı. O qeyd etdi ki, bütün bunlar ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində mümkün olub.

Prezident seçkilərində qalib gəlməsi münasibətilə bundan əvvəl təbrik məktubu göndərdiyini məmnunluqla xatırlayan qonaq İlham Əliyevin yenidən prezident seçilməsini Azərbaycan xalqının ona olan etimadının nəticəsi və gələcəyə inamının təzahürü kimi dəyərləndirdi.

Diplomatik münasibətlərimizin qurulmasından ötən dövr ərzində əlaqələrimizin sabit şəkildə inkişaf etdiyini deyən Yan Vanmin ikitərəfli münasibətlərimizin möhkəmlənməsində dövlətimizin başçısının Çinə səfərlərinin, Si Cinpinlə görüşlərinin və iki ölkə rəhbəri arasında çox gözəl şəxsi münasibətlərin rolunu xüsusi qeyd etdi.

*(ardı 2-ci səhifədə)*

# ABŞ Azərbaycan–Ermənistan sərhəd razılaşmasını təqdir edir

**Aprelin 28-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



Antoni Blinken, ilk növbədə, Ermənistan ilə Azərbaycan arasında sərhədlərin delimitasiyası sahəsində əldə olunmuş razılaşma ilə bağlı təbriklərini çatdırıb, bunun ABŞ tərəfindən təqdir edildiyini vurğulayıb. Dövlət katibi ABŞ-nin Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyinin irəli aparılması üçün bundan sonra da dəstək göstərməyə hazır olduğunu bildirib.

Dövlətimizin başçısı iki ölkənin delimitasiya komissiyası tərəfindən əldə olunmuş razılaşmanın ikitərəfli əsasda aparılmış dialoq və qarşılıqlı anlaşma şəraitində keçirilmiş müzakirələrin nəticəsi olduğunu qeyd edib. Prezident İlham Əliyev delimitasiya prosesinin ardınca iki ölkənin sərhədində artıq demarkasiya işlərinin başlanmasının da müsbət bir addım olduğunu vurğulayıb. Dövlətimizin başçısı sülh müqaviləsi üzrə danışıqların davam etdirilməsi üçün Qazaxıstan tərəfinin təklifinə uyğun olaraq tezliklə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Almatıda görüşəcəklərini bildirib. Sülh müqaviləsinin və onun əsasını təşkil edən 5 prinsipin təşəbbüskarının Azərbaycan Respublikası olduğunu xatırladan Prezident İlham Əliyev ölkəmizin sülh gündəliyinin bundan sonra da davam etdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb və Azərbaycanın bu xüsusda qəti siyasi iradəyə malik olduğunu qeyd edib. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan regionda hər hansı ayırıcı xətlər olmadan inteqrasiya olunmuş Cənubi Qafqaz regional əməkdaşlıq modelinin qurulmasını dəstəkləyir.

Dövlət katibi Antoni Blinken ABŞ ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin gücləndirilməsi üçün ölkəsinin niyyətini ifadə edərək enerji, iqlim, nəqliyyat, COP29 sahələrində əməkdaşlıq məsələlərini qeyd edib. Dövlətimizin başçısı da öz növbəsində Azərbaycanın ABŞ ilə ikitərəfli əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu vurğulayıb.

Telefon söhbəti zamanı COP29 çərçivəsində Azərbaycan və ABŞ nümayəndə heyətləri arasında əməkdaşlıqdan məmnunluq ifadə olunub.

Antoni Blinken son zamanlarda Azərbaycanda insan haqları ilə bağlı atılmış addımları müsbət qiymətləndirərək, bunun davamlı olması ilə əlaqədar arzusunu ifadə edib.

Prezident İlham Əliyev Azərbaycanın insan hüquqları sahəsində öhdəliklərinə sadiq olduğunu və ölkəmizdə demokratik islahatların davam etdirildiyini diqqətə çatdırıb.

***Prezidentin Mətbuat Xidməti***

# Birinci vitse-prezident Mehriban Əliyeva şahmatçı Ülviyyə Fətəliyevanı Avropa çempionu olması münasibətilə təbrik edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Azərbaycanın qadın şahmatçısı Ülviyyə Fətəliyevanı Yunanıstanın Rodos adasında təşkil edilən Avropa çempionatında qızıl medal qazanması münasibətilə təbrik edib.**



AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin bununla bağlı paylaşımında deyilir: "Əziz Ülviyyə! Parlaq qələbə münasibətilə səni ürəkdən təbrik edirəm! Əməyinə və iradənə görə çox sağ ol! Səninlə fəxr edirəm! Azərbaycana Qələbələr yaraşır!"

# Nobelçi soydaşımız "Xalq qəzeti"ndə

### *Qonağımız beynəlxalq sülh mükafatçısı Bəxtiyar Siracovdur*

**Hələlik yeganə azərbaycanlı "nobelçi" olan soydaşımız bu ali beynəlxalq mükafata 19 il əvvəl Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin proqram təminatının yaradılmasında fəal iştirakına görə layiq görülüb. 26 il bu qurumda çalışmış, bunun son 16 ilini departament rəhbəri olmuş soydaşımız 3 ildir ki, təqaüdə çıxıb.**



Xidməti fəaliyyəti ilə bağlı uzun illər xüsusi şərtlər altında işləmiş Bəxtiyar Siracovun Vətənlə əlaqələrində artıq heç bir məhdudiyyət yoxdur. Ötən illərdə soydaşımızın Azərbaycan adına qazandırdığı tarixi uğurun sevincini az-çox yaşasaq da, onunla canlı təmaslara indi imkan yaranıb. Təqaüdə çıxandan sonra yaşadığı Vyana şəhərində fəal diaspor fəaliyyətinə qoşulan "nobelçi" həmyerlimizlə Azərbaycana budəfəki gəlişində illər uzunu fürsət gözlədiyimiz görüş, nəhayət, baş tutdu.

Şöhrətli qonağımızı redaksiyamızda salamlayan və gecikmiş təbriklərimizi ona üzbəüz çatdıran "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov 2005-ci ildə Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin yeni proqram təminatının yaradılmasında səmərəli fəaliyyəti ilə dünyada sülh prosesinə verdiyi önəmli töhfəyə görə Nobel sülh mükafatına layiq görülmüş Bəxtiyar Siracovun bu misilsiz uğurunun ölkəmizin elm və ictimai fəaliyyət sahəsində yeni bir səhifə açdığını vurğuladı. Baş redaktor bildirdi ki, soydaşımızın Vətəndən uzaqdakı nailiyyətləri xalqımızı hədsiz sevindirib, hamımızda haqlı öyünc yaradıb. Onunla bağlı yeniliklər həmişə redaksiyamızın diqqət mərkəzində olub.

*(ardı 8-ci səhifədə)*

# Diaspor Paşinyana qarşı

## Xaricdəki bəzi ermənilər "dəmir yumruq"la hesablaşmırlar

**Ermənistan və Azərbaycan xalqları arasında vaxtilə nifaq toxumu səpən qüvvələrdən biri də xaricdəki erməni lobbisi və diaspor təşkilatları olub. Fransada, ABŞ-də, Rusiyada və digər ölkələrdə yaşayıb fəaliyyət göstərən, burada yüksək postlarda təmsil olunan, siyasi dairələrə çıxış imkanı olan haylar böyük dövlətlərin mövqeyinə təsir edərək onlardan iki xalq arasında münasibətləri gərginləşdirmək üçün yararlanıblar.**

Heç də təsadüfi deyil ki, Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi kimi bədnam təşəbbüs ilk dəfə xaricdə – Fransada irəli sürülüb. SSRİ-nin sonuncu rəhbəri Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri olmuş akademik Abel Aqanbekyan Fransanın "Humanite" qəzetinin 1987-ci il noyabrın 18-də dərc olunmuş sayında çıxan müsahibəsində Qarabağın Azərbaycandan çox Ermənistana bağlı olduğunu "əsaslandırmağa" çalışıb. Bundan sonra Xankəndiyə dünyanın müxtəlif yerlərindən emissarlar, o cümlədən, Livandan beynəlxalq miqyaslı terrorçu Monte Melkonyan gəlib-getməyə başlayıb.

(ardı 5-ci səhifədə)

# Azərbaycan İslam İnkişaf Bankının ən yaxın tərəfdaşıdır

Səhifə ⇨ 7

# Prezident İlham Əliyev Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədrini qəbul edib

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycanın Çin üçün çox vacib tərəfdaş olduğunu vurğulayan qonaq ölkəmizlə əməkdaşlığa böyük önəm verdiklərini bildirdi. Qeyd etdi ki, Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olub və bu baxımdan o, Transxəzər dəhlizinin bu təşəbbüsün reallaşmasına, ümumilikdə Azərbaycanın bütün nəqliyyat qovşağının inkişafına töhfə verəcəyinə əminliyini bildirdi.

Yan Vanmin ölkəsinin Azərbaycanın suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə göstərilən hörməti hər zaman dəstəkləyəcəyini vurğuladı, ölkələrimiz arasında qarşılıqlı etimadın daimi olacağına əminliyini bildirdi.

COP29-un təşkilində də Çinin Azərbaycana dəstəyini qeyd edən qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə bu tədbirin uğur qazanacağına inamını ifadə etdi.

Ulu öndərin ölkələrimiz arasında münasibətlərin inkişafında roluna bir daha toxunan qonaq dedi: "Biz Çin–Azərbaycan münasibətləri haqqında danışarkən Sizin atanız Heydər Əliyevin töhfələrini unuda bilmərik. Çin xalqı çox yaxşı xatırlayır: Heydər Əliyev Prezident seçildikdən çox qısa müddət sonra – 1994-cü ildə Çinə səfər etdi və Çinin ovaxtkı rəhbərliyi ilə birlikdə xalqlarımız arasında əlaqələrin möhkəm təməlini qoydu. Heydər Əliyev o zaman xüsusilə Çin kəndinə gedərək sadə insanlarla görüşdü. Bu, Çin xalqının yaddaşında əbədi qalacaq. Siz bu gün atanızın siyasətini davam etdirərək Çinə altı dəfə səfər etmisiniz. Çin xalqı Sizə böyük hörmətlə yanaşır".

Qonaq Heydər Əliyev Fondu ilə uğurlu əməkdaşlıq həyata keçirdiklərini vurğulayaraq 2023-cü ildə Pekin şəhərində Ulu öndərin 100 illik yubileyinin böyük təntənə ilə qeyd edildiyini xatırladı. Azərbaycana Heydər Əliyev Fondunun dəvəti ilə səfər etdiyini deyən Yan Vanmin Fondun Çinin olduqca inandığı və sıx əməkdaşlıq etdiyi bir qurum olduğunu vurğuladı. O, ötən illər ərzində Heydər Əliyev Fondu ilə bir çox birgə layihələr, xüsusilə gənclər arasında əlaqələrin genişləndirilməsi sahəsində layihələr həyata keçirdiklərini bildirdi. Yan Vanmin Fondla əməkdaşlığın daha da möhkəmlənəcəyinə və əlaqə dairəsinin genişlənəcəyinə əminliyini ifadə etdi. O, eyni zamanda, humanitar, turizm, gənclər sahələrinin, həmçinin regionlararası əməkdaşlığın inkişafı işinə də töhfə verməyə hazır olduqlarını bildirdi.

Qonaq Şanxay Əməkdaşlıq Təşkilatında əlaqələrə toxunaraq Azərbaycanın bu təşkilatda dialoq tərəfdaşı olmasının önəmini qeyd etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Çin Xalq Respublikasının Sədri ilə dəfələrlə keçirdikləri görüşlərin ikitərəfli münasibətlərin inkişafına güclü təkan verdiyini vurğuladı. Si Cinpinlə son dəfə keçirdiyi görüşü də məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu görüş zamanı bir çox önəmli məsələlərin müzakirə edildiyini və əməkdaşlığın perspektivlərinin təsdiq olunduğunu bildirdi.

Dövlətimizin başçısı vurğuladı ki, ulu öndər Heydər Əliyev Azərbaycan–Çin münasibətlərinin inkişafına, parlaq gələcəyinə çox inanırdı və buna nail olmaq üçün böyük səylər göstərirdi. Azərbaycan Prezidenti qeyd etdi ki, 1994-cü ildə Ümummilli Liderin Çinə ilk rəsmi səfəri əlaqələrimizin təməlini qoyub. Öz növbəsində Ulu öndərin siyasətini bütün sahələrdə davam etdirən bir şəxs kimi Azərbaycan–Çin əlaqələrinin inkişafına xüsusi diqqət yetirdiyini deyən dövlətimizin başçısı vurğuladı ki, birgə səylər nəticəsində müəyyən olunmuş möhkəm əməkdaşlıq çərçivəsində siyasi, iqtisadi və digər sahələrdə əlaqələrimiz bundan sonra da uğurla inkişaf edəcək.

Prezident İlham Əliyev Yan Vanminin rəhbərlik etdiyi assosiasiya ilə Heydər Əliyev Fondu arasında həyata keçirilən sıx əməkdaşlığın əlaqələrimizin inkişafına böyük töhfə verdiyini bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Si Cinpinin təşəbbüsü olan "Bir kəmər, bir yol" layihəsi ölkəmiz tərəfindən tam dəstəklənir və biz Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturunu yaradaraq qonşu ölkələrlə də təmaslar əsnasında bu layihənin həyata keçirilməsi istiqamətində səylərimizi əsirgəmirik.

# Dövlət başçısının Malayziya Parlament Senatının prezidenti ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Malayziyanın Parlament Senatının prezidenti Datuk Mutanq Taqalı qəbul edib.**

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müsbət istiqamətdə inkişaf etdiyini bildirərək iqtisadi sahədə də əlaqələrimizin fəallaşacağına ümidvar olduğunu vurğuladı.

Prezident İlham Əliyev Malayziyanın beynəlxalq aləmdə Azərbaycana göstərdiyi dəstəyə toxunaraq həm torpaqlarımızın işğalı zamanı, həm də tarixi nailiyyətimiz olan ərazilərimizin işğaldan azad olunmasından, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpasından sonra Malayziyanın ölkəmizə daim dəstək göstərməsini yüksək qiymətləndirdi. Azərbaycan Prezidenti torpaqlarımızın ermənilər tərəfindən işğalı dövründə həmin ərazilərimizdə məhv edilmiş dini-tarixi abidələrimiz barədə məlumat verdi.

Datuk Mutanq Taqalın ölkəmizə səfərinin münasibətlərimizin genişlənməsi, o cümlədən, parlamentlərarası əməkdaşlığın inkişafı baxımından önəmini qeyd edən dövlətimizin başçısı bu səfərin əlaqələrimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.

Datuk Mutanq Taqal, ilk növbədə, Malayziyanın Kralı Əlahəzrət Sultan İbrahimin salamlarını və yenidən prezident seçilməsi münasibətilə bir daha təbriklərini dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və təbriklərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Malayziyanın Kralına çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə ölkələrimizin bu hərəkatın gücləndirilməsi istiqamətində fəal birgə əməkdaşlıq həyata keçirdikləri, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatında da Azərbaycan ilə Malayziyanın yaxından qarşılıqlı fəaliyyət göstərdikləri məmnunluqla qeyd olundu.

Ölkələrimizin bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, Azərbaycan ilə Malayziya arasında mövcud olan güclü siyasi əlaqələrin investisiya, ticarət sahələrində və biznes dairələri arasında əməkdaşlığın fəallaşması üçün yaxşı imkan yaratdığı bildirildi.

Görüşdə COP29 çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu.

***AZƏRTAC***

# O.M.Muradovun Naxçıvan Muxtar Respublikası Babək Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## *Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Ovni Mehbalı oğlu Muradov Naxçıvan Muxtar Respublikası Babək Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 aprel 2024-cü il**

# R.V.Hüseynovun Naxçıvan Muxtar Respublikası Babək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## *Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Rasim Vaqif oğlu Hüseynov Naxçıvan Muxtar Respublikası Babək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 aprel 2024-cü il**

# "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1111-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1111-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nin 92-ci maddəsinin birinci hissəsində və 93-cü maddəsinin mətnində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 92-ci maddəsinin birinci hissəsində və 93-cü maddəsinin mətnində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1111-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 fevral tarixli 532 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 98 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"nin 14.1-ci bəndində "və Nazirliyi" sözləri ", Nazirliyi və digər dövlət orqanlarını (qurumlarını)" sözləri ilə əvəz edilsin.

**4.** "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1616-VQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında dəyişiklik edilməsi və "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə" 2007-ci il 11 aprel tarixli 562 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 2 avqust tarixli 803 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1386 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 aprel 2024-cü il**

# "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 21 aprel tarixli 575 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 480 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ştatdankənar (fəxri) konsulu haqqında" Əsasnamənin 12.2-ci bəndində "ərzaqlar" sözü "qidalar" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 606 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın 2.3.6-cı yarımbəndində "Yeyinti sənaye" sözləri "Qida sənayesi" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 fevral tarixli 187 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 63 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 3.26-cı bəndində "ərzaq və qeyri-ərzaq" sözləri "qida və qeyri-qida" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 301 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 11.33-cü bəndində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli 511 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1058 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə qoşunları haqqında Əsasnamə"nin 8.2.11-ci yarımbəndində "ərzaq" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419 (Cild I); 2024, № 1, maddə 21) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın 2.7-2.1-ci yarımbəndində "tədarükü, istehsalı, emalı, qablaşdırılması, saxlanması, daşınması, dövriyyəsi (o cümlədən idxal-ixrac əməliyyatları)" sözləri "istehsalı, emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi" sözləri ilə əvəz edilsin.

**7** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 iyul tarixli 985 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1256 (Cild I) ilə təsdiq edilmiş "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"nın 1.3.2-ci yarımbəndində "ərzaq malları" sözləri "qida məhsulları" sözləri ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli 1341 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 4, maddə 555 (Cild I) ilə təsdiq edilmiş "İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nın 1.3.1-ci yarımbəndindən və 3.14-cü bəndindən "(yeyinti)" sözü çıxarılsın.

**9** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1624 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1791 (Cild I) ilə təsdiq edilmiş "Mənəvi Dəyərlərin Təbliği Fondunun Nizamnaməsi"nin 2.2.9-cu yarımbəndində "ərzaq" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin.

**10** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 fevral tarixli 2466 nömrəli, 13 mart tarixli 19 nömrəli və 14 mart tarixli 22 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti haqqında Əsasnamə"nin 4.0.10-cu yarımbəndində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

**11.** Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 noyabr tarixli 517 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 940 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"nın "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək Tədbirlər" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

11.1. 5.2.5-ci yarımbəndin "Tədbirin adı" sütununda "yemdə, ərzaq məhsullarında" sözləri "yem və qida məhsullarında" sözləri ilə əvəz edilsin;

11.2. 5.2.8-ci yarımbəndin "Tədbirin adı" sütununda "Ərzaq" sözü "Qida" sözü ilə əvəz edilsin;

11.3. 5.2.20-ci yarımbəndin "Tədbirin adı" sütununda "ərzaq mallarının" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin və həmin yarımbəndin "İcraçılar" sütununa "Ekologiya və Təbii Sərvətlər Nazirliyi," sözlərindən sonra "Qida Təhlükəsizliyi Agentliyi," sözləri əlavə edilsin;

11.4. 5.2.21-ci yarımbəndin "Tədbirin adı" sütununda "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin və həmin yarımbəndin "İcraçılar" sütununa "Ekologiya və Təbii Sərvətlər Nazirliyi," sözlərindən sonra "Qida Təhlükəsizliyi Agentliyi," sözləri əlavə edilsin.

**12.** "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 221 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 34 (Cild I) adında, 2.5-ci bəndində və 3-cü hissəsində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

**13.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli 3672 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 275 (Cild I) ilə təsdiq edilmiş "2018–2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın "5. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 5.1.2.8-ci yarımbəndinin "Tədbirin adı" və "Tədbirin məqsədi" sütunlarında "ərzağa əlyetərliyi" sözləri "qida məhsullarına ətçatanlığı" sözləri ilə əvəz edilsin.

**14.** "Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 iyun tarixli 199 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1282 (Cild I) 1.3-cü bəndində "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü və 8-ci maddələrinin" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri ilə əvəz edilsin.

**15.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 790 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda aşağıdakı dəyişikliklər edilsin:

15.1. 1.1-ci bəndin səkkizinci abzasında "ərzaq məhsulları" sözləri "qida məhsulları" sözləri ilə əvəz edilsin;

15.2. 7-ci hissədə "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planı"nın 1.1.9-cu yarımbəndinin 3-cü abzasının "İlkin nəticələr" sütununda "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

**16.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 114 (Cild I) ilə təsdiq edilmiş "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramına dair Tədbirlər Planı" hissəsinin 8.2.4-cü yarımbəndinin "ilkin nəticələr" və "aralıq nəticələr" sütunlarından "bioloji fəallığa malik qida əlavələrinə," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 aprel 2024-cü il**

## “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Arıçılıq haqqında” Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 6.2-ci maddəsində “orqan (qurum)” dedikdə bal arısı cinsləri və populyasiyaları genofondunun qorunub saxlanılmasının, arıçılıq subyektləri tərəfindən müvafiq qanunvericiliyin, habelə arıçılığa dair normativ sənədlərin tələblərinin təmin olunmasına münasibətdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, baytarlıq (baytarlıq-sanitariya) qaydalarına riayət edilməsinin və minimum keyfiyyəti və təhlükəsizliyi qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verən arıçılıq məhsulları istehsalının və dövriyyəsinin təmin olunmasına münasibətdə isə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Arıçılıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 82 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 227 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə “6.5-ci” sözləri “6.2-ci” sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 2.3-1-ci və 2.3-2-ci bəndlər əlavə edilsin:

“2.3-1. həmin Qanunun 6.2-ci maddəsində “orqan (qurum)” dedikdə bal arısı cinsləri və populyasiyaları genofondunun qorunub saxlanılmasının, arıçılıq subyektləri tərəfindən müvafiq qanunvericiliyin, habelə arıçılığa dair normativ sənədlərin tələblərinin təmin olunmasına münasibətdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, baytarlıq (baytarlıq-sanitariya) qaydalarına riayət edilməsinin və minimum keyfiyyəti və təhlükəsizliyi qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verən arıçılıq məhsulları istehsalının və dövriyyəsinin təmin olunmasına münasibətdə isə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;

2.3-2. həmin Qanunun 6.3-cü maddəsində müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi həyata keçirirlər;”;

3.3. 2.4-cü bənddə “6.2-ci, 6.3-cü maddələrində, 11.2-ci maddəsinin ikinci” sözləri “11.2-ci maddəsinin birinci” sözləri ilə əvəz edilsin;

3.4. 2.7-ci bənddə “6.5-ci və 18.2-ci maddələrində” sözləri “18.2-ci maddəsində” sözləri ilə əvəz edilsin.

**4.** “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1132 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 mart tarixli 17 nömrəli Fərmanı) 1.1-ci və 1.2-1-ci bəndlərinə “qida” sözündən sonra “və yem” sözləri əlavə edilsin.

**5.** “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1014-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 aprel tarixli 1924 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 675 (Cild I) 3-cü hissəsində “istehsalı, qablaşdırılması, saxlanması, emalı” sözləri “ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi” sözləri ilə əvəz edilsin.

**6**. “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, “Balıqçılıq haqqında”, “Yeyinti məhsulları haqqında”, “Taxıl haqqında”, “Üzümçülük və şərabçılıq haqqında”, “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında” və “Çayçılıq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1662-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 avqust tarixli 811 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1394 (Cild I) 2.6-cı bəndində “maddəsinin birinci cümləsində” sözləri “maddəsində” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 aprel 2024-cü il**

## “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 896-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1997-ci il 25 iyul tarixli 622 nömrəli, “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” 2003-cü il 5 iyun tarixli 878 nömrəli, “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 790-IVQD nömrəli Qanununun tətbiqi haqqında” 2013-cü il 25 noyabr tarixli 38 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 896-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1997-ci il 25 iyul tarixli 622 nömrəli, “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” 2003-cü il 5 iyun tarixli 878 nömrəli, “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 790-IVQD nömrəli Qanununun tətbiqi haqqında” 2013-cü il 25 noyabr tarixli 38 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2224 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 949 (Cild I) 5.1-ci bəndindən “Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 aprel 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 228** **Bakı şəhəri, 24 aprel 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında” 2001-ci il 7 noyabr tarixli 179 nömrəli, “Dövlət məktəbəqədər təhsil müəssisələrində təhsilalanların sosial müdafiəsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2017-ci il 29 dekabr tarixli 622 nömrəli, “Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında” 2021-ci il 26 aprel tarixli 111 nömrəli və “Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında” 2021-ci il 26 aprel tarixli 112 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 7 noyabr tarixli 179 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 719 (Cild I); 2024, № 1, maddə 123) 2-ci hissəsinin üçüncü abzasında “Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən qüsurlu uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin” sözləri “İnternat tipli ümumi təhsil müəssisələrində təhsilalanlar və dövlət və ya bələdiyyə tərəfindən yaradılan uşaq evləri, ailə tipli kiçik qrup evləri sosial xidmət müəssisələrində tərbiyə olunan uşaqların” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 622 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2567 (Cild I) ilə təsdiq edilmiş “Dövlət məktəbəqədər təhsil müəssisələrində təhsil-alanların sosial müdafiəsi Qaydası”nın 2.1.3-cü yarımbəndində “Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən pozuntusu olan uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin geyim, ayaqqabı,” sözləri “İnternat tipli ümumi təhsil müəssisələrində təhsilalanlar və dövlət və ya bələdiyyə tərəfindən yaradılan uşaq evləri, ailə tipli kiçik qrup evləri sosial xidmət müəssisələrində tərbiyə olunan uşaqların geyim, ayaqqabı və” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 414 (Cild I); 2024, № 1, maddə 110) ilə təsdiq edilmiş “Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar”ın 3.8.2-ci yarımbəndində “Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən pozuntusu olan uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin” sözləri “İnternat tipli ümumi təhsil müəssisələrində təhsilalanlar və dövlət və ya bələdiyyə tərəfindən yaradılan uşaq evləri, ailə tipli kiçik qrup evləri sosial xidmət müəssisələrində tərbiyə olunan uşaqların” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 415 (Cild I); 2024, № 1, maddələr 75, 110) ilə təsdiq edilmiş “Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar”ın 3.7.2-ci yarımbəndində “Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən pozuntusu olan uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin” sözləri “İnternat tipli ümumi təhsil müəssisələrində təhsilalanlar və dövlət və ya bələdiyyə tərəfindən yaradılan uşaq evləri, ailə tipli kiçik qrup evləri sosial xidmət müəssisələrində tərbiyə olunan uşaqların” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 232** **Bakı şəhəri, 26 aprel 2024-cü il**

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki publik hüquqi şəxslərin fəaliyyətinin təmin edilməsi haqqında**

“Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının 8.1.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Regional Su Meliorasiya Xidmətinin Nizamnaməsi” təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** “İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin Nizam-naməsi” təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** “Su və Meliorasiya Elmi Tədqiqat İnstitutunun Nizamnaməsi” təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** “Tikilməkdə Olan Obyektlərin Müdiriyyətinin Nizamnaməsi” təsdiq edilsin (4 nömrəli əlavə).

**5.** “Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitu-tunun Nizamnaməsi” təsdiq edilsin (5 nömrəli əlavə).

**6.** “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 mart tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 257 (Cild I); 2024, № 1, maddə 105) və “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Nizam-na-məsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 17 iyun tarixli 149 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 576 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

## Türkiyə nümayəndə heyəti Baş Prokurorluqda



**Aprelin 29-da Baş prokuror Kamran Əliyev ölkəmizdə səfərdə olan Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun sədri Muharrem Kılıçın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. O, qonağı salamlayaraq, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafının dövlət başçıları cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın birgə səyləri nəticəsində ən yüksək müttəfiqlik səviyyəsinə yüksəldiyini qeyd edib.**

Baş prokuror müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsi və ondan sonrakı proseslərdə Türkiyə dövlətinin və xalqının Azərbaycana siyasi və mənəvi dəstəyinə görə təşəkkürünü ifadə edib. Kamran Əliyev ölkə rəhbərliyinin diqqət və qayğısı nəticəsində işğal dövründə ermənilərin xalqımızın tarixi, dini və mədəni abidələrinə qarşı törətdikləri vəhşiliklərin və onların fəsadlarının aradan qaldırılması istiqamətində Qarabağda aparılan sürətli quruculuq-bərpa işləri barədə qonağa məlumat verib.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən Muharrem Kılıç ölkələrimiz arasında hüquqi sahədə əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini və səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirib.

Görüş zamanı tərəflər insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı mühüm əhəmiyyət kəsb edən məsələləri müzakirə edərək, birgə əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparıblar.

***XQ***

## Ermənistanla sərhəddə 35 dirək quraşdırılıb

**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin Xidmətinin məlumatında deyilir:**

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında nəzərdə tutulan işlərin yarısından çoxu 2024-cü il aprelin 29-dək yerinə yetirilib, 35 sərhəd dirəyi quraşdırılıb.

Hər iki dövlətin ekspert qruplarının işi davam edir.



## Xarici işlər naziri Qətərdə

**Aprelin 29-da Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov Qətər Dövlətinə işgüzar səfərə yola düşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən AZƏRTAC-a verilən məlumata görə, səfər çərçivəsində nazirin aprelin 30-da Doha şəhərində keçiriləcək Ərəb Dövlətləri Liqası – Mərkəzi Asiya – Azərbaycan Respublikası Əməkdaşlıq və İqtisadi Forumunun 3-cü iclasında iştirakı və çıxışı, habelə tədbir çərçivəsində ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulub.

## Qazaxda mina partlayışı

**Qazax rayonunda mina partlayışı baş verib, xəsarət alan var. Bu barədə Baş Prokurorluqdan bildirilib.**

Qeyd edilib ki, aprelin 29-da Qazax rayonunun Quşçu Ayrım kəndinin əvvəllər Ermənistanla təmas xətti olmuş və minalardan təmizlənməmiş hissəsində mina partlaması nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu İsmayılov Vüsal İntiqam oğlunun ayağından xəsarət alması faktı ilə bağlı Şəmkir hərbi prokurorluğunda araşdırma aparılır.

**XQ**

# Sülh finiş xəttinə yaxınlaşır

## Bakı Qərbin dəstək və alqışına "hə!", ayırıcı xəttinə isə "yox!" deyir

**Reallığa söykənən danılmaz fakt göz qabağındadır: Cənubi Qafqazın iki qonşu dövləti öz aralarında razılığa gəldikcə, sülh danışıqlarını birbaşa dialoq vasitəsilə davam etdirdikcə prosesə kənar aktorların müdaxiləsi sıfıra enməkdədir. Dünənə qədər Bakı və İrəvan arasında sülhün əldə olunması üçün müxtəlif təşəbbüslərə baş vuran, vasitəçilik missiyalarını təklif edən, danışıqlar prosesini çeşidli platformalara çəkməklə tərəfləri şirnikləndirən və bununla, ilk növbədə, bölgədə özəl maraqlarını təmin etməyə çalışan Qərb bu gün telefon diplomatiyasına keçməyə məcbur olub. Amma bu formatlı diplomatik təmaslar da artıq Ermənistan və Azərbaycan rəhbərliyinə hansısa şərtləri, qaydaları diktə etməklə deyil, tərəflərin öz aralarında gəldikləri ortaq qərarları, razılaşmaları dəstəkləmək və alqışlamaqla məhdudlaşır. Buna isə Bakı və İrəvanın birgə əldə etdiyi uğurlu nəticə, müsbət tendensiya kimi baxmaq lazımdır.**



* * *

ABŞ Dövlət katibi Antoni Blinken ötən bazar günü Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Paşinyanla ayrı-ayrılıqda danışıb, iki ölkə arasında uzunmüddətli və layiqli sülh sazişinə doğru irəliləyişi dəstəklədiyini ifadə edib. İlham Əliyevi və Nikol Paşinyanı sülh prosesini davam etdirməyə çağıran Antoni Binken Ermənistan və Azərbaycanın 1991-ci il Alma-Ata Bəyannaməsindən sərhədlərin delimitasiyası üçün əsas kimi istifadə etməyə razı olduqları ilə bağlı departamentin ötən həftə verdiyi bəyanatında tərəflərə təşəkkür ünvanladığını bildirib. Həmin bəyanatda bu prosesin davamlı və ləyaqətli sülhə nail olmaq yolunda hər iki tərəf üçün əhəmiyyəti vurğulanıb. Eyni zamanda, Dövlət Departamentinin bəyanatında ABŞ-nin tərəflərə dəstək verməyə hazır olduğu, onları birlikdə irəliləməyə davam etməyə çağırdığı qeyd olunub.

Telefon danışıqlarının ardınca ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller öz növbəsində deyib ki, A.Blinken, həmçinin Vaşinqtonun Bakı ilə güclü ikitərəfli münasibətlərə sadiqliyini vurğulayıb. Eləcə də, o, əməkdaşlıq səylərini, enerji, iqlim və kommunikasiyalar, Bakıda keçiriləcək COP29-un uğurunu təmin etmək üzrə ortaq məqsədlərinə toxunub. M.Miller "ABŞ-nin Ermənistanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləmək üçün davam edən səylərini, həmçinin baş nazir Paşinyanın Ermənistanın firavan, demokratik və müstəqil gələcəyi ilə bağlı mövqeyini" xüsusi vurğulayıb.

Dövlətimizin başçısı, öz növbəsində, Azərbaycanın ABŞ ilə ikitərəfli əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu vurğulayıb. Telefon söhbəti zamanı COP29 çərçivəsində Azərbaycan və ABŞ nümayəndə heyətləri arasında əməkdaşlıqdan məmnunluq ifadə olunub. Azərbaycan Prezidentinin mətbuat xidmətinin yaydığı məlumatdan onu da öyrənirik ki, İlham Əliyev Ağ Ev rəsmisinin diqqətinə hökumətlərarası delimitasiya komissiyası tərəfindən əldə olunmuş razılaşmanın ikitərəfli formatda, dialoq və qarşılıqlı anlaşma şəraitində aparılmış müzakirələrin nəticəsi olduğu çatdırılıb.

Yəni, artıq Bakı və İrəvan sülhə aparan yolda üzləşdikləri bütün anlaşılmazlıqları məhz ikitərəfli formatda, vasitəçisiz, "tet-a-tet" müzakirə edərək anlaşa bilirlər. Bu zaman Qərbin boynuna düşən əsas missiya tərəflərə yalnız mənəvi dəstək verməkdən ibarət olmalıdır. Amma onun ayırıcı xətlər kimi altniyyətli diplomatiyası heç cür qəbul olunmayacaq. Burada işarənin tərəflərdən birinə şübhəli yardımları nəzərdə tutan Aİ–ABŞ–Ermənistan arasında 5 aprel Brüssel görüşünə vurulduğu şübhəsizdir.

* * *

Sülh müqaviləsinin və onun əsasını təşkil edən 5 prinsipin təşəbbüskarının Azərbaycan olduğunu xatırladan İlham Əliyev Bakının sülh gündəminin gələcəkdə də davam etməsi üçün bütün səylərini əsirgəməyəcəyini vurğulayaraq, bundan ötrü Bakının güclü siyasi iradəyə malik olduğunu diqqətə çatdırıb.

Dövlətimizin başçısı sülh müqaviləsi üzrə danışıqların davam etdirilməsi üçün Qazaxıstan tərəfinin təklifinə uyğun olaraq Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin bu yaxınlarda Almatıda görüşəcəklərini bildirib.

Öz növbəsində Ermənistan hökumətinin yaydığı xəbərdə deyilir ki, Nikol Paşinyan Antoni Blinkenlə telefon danışığında aprelin 5-də Brüsseldə əldə olunmuş razılaşmaların həyata keçirilməsinin vacibliyini vurğulayıb və Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası prosesini alqışlayıb.

Bu məqamda bir haşiyəyə çıxmağa ehtiyac duyulur. Görünən odur ki, Ermənistan hakimiyyəti yenə də ikibaşlı, sülhə xələl gətirəcək açıqlamaları ilə yanlış davranış sərgiləmək istəyir. Brüsseldə İrəvana Bakının bilmədiyi nə vəd olunub ki, Paşinyan bunu Ağ Ev rəsmisinin nəzərinə açıq mətnlə çatdırır. Doğrudanmı, burada söhbət ABŞ-nin daxili islahatları dəstəkləməkdən ötrü Ermənistana ayırdığı təkcə 260 milyon dollarlıq maliyyə yardımından gedir?

* * *

Nikol Paşinyanın sülhə tərəf atdığı son addımların cəmiyyət tərəfindən birmənalı qarşılanmamasının səbəbi aydındır. Daxildən revanşist - daşnakların, xaricdən diasporun qızışdırdığı kütlə rəsmi İrəvana "ictimai direniş" nümayiş etdirir. Bu zaman erməni mediası yerli siyasi ekspert və politoloqların maraqlı açıqlamalarına, proqnoz və versiyalarına tez-tez yer ayırmaqla, bir növ, tonqala benzin tökməklə məşğuldur. Belə "nümunələrdən" biri ilə tanış olaq. "Rəsmi İrəvan pərdəarxası danışıqlarda Azərbaycana təslim olub". Belə bir bəyanatla "Qara pantera" hərbi qruplaşmasının rəhbəri Serob Qasparyan çıxış edib.

Qasparyan bildirib ki, təslim aktına görə, bundan sonra Ermənistanın silahlanmağa ixtiyarı yoxdur: "Buna görə Azərbaycan xaricdən Ermənistana silah göndərilməsinə qarşı çıxır. Hazırda Ermənistan rəhbərliyi himnimizin, gerbimizin, konstitusiyasımızın dəyişməsindən danışır. Bu, o deməkdir ki, ölkəmiz artıq tam təslim olub".

Qasparyanın növbəti açıqlamasını isə erməni saytları sensasiya kimi qələmə verib: "Mən kartları açmaq istəyirəm. Qarabağın keçmiş "rəhbəri" Araik Arutyunyan iki il bundan əvvəl mənə bir sirri etiraf etmişdi. O, demişdi ki, Ermənistan ordusunu tezliklə patrul xidməti əvəz edəcək. Yəni, Ermənistanda ağır hərbi texnika olmayacaq, sərhədi tüfəngli-avtomatlı patrul xidməti qoruyacaq. Bu, Bakının tələbidir və bu, o deməkdir ki, İrəvan qeyd-şərtsiz təslim olub. İndi Ermənistana vaxt verilib və məlumatlar var ki, iyun ayı son müddətdir".

Onu qeyd edək ki, Qasparyanın özəl mənbələrə istinadla irəli sürdüyü iddiası yalnız subyektiv mülahizə kimi qəbul edilə bilər. Amma onun mülahizəsinə bir qədər ciddi və diqqətlə yanaşsaq, heç də sağlam məntiqdən xali olmadığı qənaətinə gəlmək mümkündür. Doğrudur, Azərbaycanın Ermənistanla sərhədi nəzarət altına almaq kimi bir planı yoxdur. Fəqət, qanunvericiliyində qonşularına qarşı ərazi iddialarının yer aldığı ölkənin bu hüquqi-siyasi nonsensi aradan qaldırandan sonra nə böyük orduya, nə də ağır texnikaya ehtiyacı qalacaq. Bundan daha ideal variant, uğurlu diplomatik perspektivi isə Ermənistanın Avropanın İsveçrəsi kimi, heç bir hərbi bloka qoşulmaması, neytrallığını elan etməsi olar.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Sülh danışıqlarının bu son mərhələsində Azərbaycan Ermənistana qarşı hansısa iddialarla çıxış eləmir. Amma müxalif qüvvələr Ermənistanın, guya, geriləməsində Paşinyanı ittiham edir, ona qarşı kütləvi etirazlar təşkil etməyə çalışırlar. Bəli, bu məqamda Nikol Paşinyanın beynəlxalq dəstəyə ehtiyacı var. Yəni, Ermənistanın Alma-Ata Bəyannaməsi əsasında Azərbaycanın işğal altındakı dörd kəndindən geri çəkilməsinin Avropa İttifaqı, ABŞ, eləcə də ayrı-ayrı böyük dövlətlər tərəfindən dəstəklənməsi, alqışlanması Paşinyana əleyhdarlarını yerində oturtmağa imkan verir.

Bu zaman ABŞ Dövlət katibi bölgə ölkələrinə birtərəfli dəstəyin ayrı-seçkilik yaradacağının da fərqindədir. Məhz buna görə Antoni Blinken həm İrəvana, həm də Bakıya zəng edib. Müəyyən məsləhətləşmələr, dəstək nümayişi başadüşüləndir. Prezident İlham Əliyev açıq söylədi ki, bölgədə ayırıcı xətlərə yol verilməməlidir. Qərbin kollevtiv şəkildə Ermənistanı dəstəkləməsi və Azərbaycanı olmayan məsələlərdə qınaması məqbul sayıla bilməz. Bu baxımdan son zamanlar Ağ Ev administrasiyasının balanslaşdırılmış mövqe nümayiş etdirməsi müsbət ənənəyə çevrilib. Aydın məsələdir ki, Ağ Ev və rəsmi İrəvan sülh danışıqlarının Vaşinqtonda davam etdirilməsinin tərəfdarı idilər. Amma Blinkenlə telefon söhbətində dövlətimizin başçısı xarici işlər nazirlərinin növbəti görüşünün Qazaxıstanın təşəbbüsü ilə Almatıda keçiriləcəyini bildirdi.

Əslində, danışıqlar məkanı kimi Vaşinqton, Brüssel və Moskva İrəvanın özü tərəfindən də qəbul olunmur. Artıq finiş xəttinə yaxınlaşan sülh danışıqlarına maneçilik olunmasa, yaxın zamanlarda çərçivə sazişi imzalana bilər. Bununla da otuz illik münaqişənin üzərindən xətt çəkiləcək.

### Ekspert rəyi



**Fərhad MƏMMƏDOV,**
**siyasi şərhçi**

Danışıqların ikitərəfli formatı artıq hamı tərəfindən qəbul olunub. ABŞ Dövlət katibinin Bakıya və İrəvana telefon zəngi sülh prosesinin sürətlənməsinə xidmət edir. Nəzərə alsaq ki, hazırda Azərbaycan və Ermənistan arasında danışıqların üç səbəti – birincisi, sülh sazişi, ikincisi, sərhədin müəyyənləşdirilməsi, üçüncüsü, kommunikasiyaların açılması, – mövcuddur. Bunlar bir-birinə bağlı məsələlərdir. Sərhədin müəyyən olunması istiqamətində konkret iləliləyiş var və bununla bağlı artıq yerlərdə işlər həyata keçirilir. Bu, müsbət tendensiya davam etməlidir.

Doğrudur, Qərb bu prosesin digər istiqamətlər üzrə də irəliləməsinə çalışır. İndiki mərhələdə onun üçün prioritet məsələ sülh sazişinin tezliklə imzalanmasıdır. Amma bu kontekstdə Bakının digər şərtləri də var. Bunlar, əsasən, sülh sazişinin imzalanması fonunda Ermənistan qanunvericiliyindəki qonşulara qarşı ərazi iddialarının dəyişdirilməsi ilə bağlıdır. O cümlədən, nəqliyyat-kommunikasiyaların açılması da gündəlikdə durur. Cənab Prezident Zəngəzur dəhlizində beynəlxalq nəzarətin və maneəsiz keçidin təmin edilməsini irəli sürüb. Əgər Qərb sülhsevərləri prosesin daha sürətlə getməsini istəyirlərsə, Nikol Paşinyana siyasi, maddi, mənəvi, həmçinin təşkilati dəstək verməlidirlər. Bu halda Ermənistan baş naziri Azərbaycanın ədalətli şərtləri ilə razılaşar və sülh sazşinin imzalanması da ləngiməz.

# Ermənistanda gərginlik — kilsə, ordu və diaspor qütbü

**Ermənistanda Azərbaycanla delimitasiya məsələləri, o cümlədən, Qazaxın dörd kəndinin geri qaytarılması ilə başlanmış isterik durum bütün hədləri aşmaqdadır. Baş nazir Nikol Paşinyana qarşı çıxan qüvvələr xeyli aktivləşiblər. Bu aktivləşmənin iki əsas, bir yardımçı qütbü nəzərə çarpmaqdadır. Birincisi ordu, ikincisi kilsə. Yardımçı qütbə gəlincə, bu, xaricdəki erməni lobbi və diaspor təşkilatlarıdır.**

Deməli, Ermənistandakı revanşistlər "Vətən naminə Tavuş" hərəkatına start veriblər. Onlar şüar şəklində bildirirlər ki, "belə getsə, tezliklə sərhəd dirəkləri İrəvanda basdırılacaq". Eyni zamanda, paytaxt küçələrində Azərbaycanla sərhəddə qoyulmuş ilk sərhəd dirəyinin maketləri nümayiş etdirilir, ölkəmizlə bağlı aqressiv ritorikanın daha da gücləndirilməsinə çalışılır. Hadisələr 1988-ci ili xatırladır. O zaman başıpozuq millətçilər "Miatsum" adlanan hərəkat yaratmışdılar. Hərəkatın məqsədi Qarabağın Ermənistana birləşdirilməsi idi. Hazırda "Miatsum" tarixin zibilliyindədir. Bu mənada "Vətən naminə Tavuş" da ölü doğulmuş körpədir. Sadəcə olaraq, kilsənin başçılıq etdiyi, ideoloji motivlərlə silahlandırdığı revanşistlər onu



obrazlı desək, süni nəfəs aparatına qoşublar. Ümid bəsləyirlər ki, sağ qalacaq.

Bəli, Ermənistan – Azərbaycan sərhədindəki Kirants kəndi ərazisində dövlətlərarası avtomobil yolunun bağlanması ilə ifadə olunan narazılığın tərəfdarları bir neçə gün ərzində xeyli çoxalıb. Aksiyalar zamanı onlarla insan saxlanılıb. Bəzi siyasi analitiklər mövcud fonda baş verənləri "üsyan" kimi qiymətləndirərək, qeyd edirlər ki, hərəkat hələlik yerli xarakter daşısa da, hakimiyyətin reputasiyasına zərbə vura bilər.

Üstəlik, etirazların ciddi miqyas ala bilmək pesrpektivi də nəzərdən keçirilir. Kilsə amilini nəzərə alsaq, hərəkata erməni apostol kilsəsinin yüksək rütbəli nümayəndələrinin rəhbərliyi adi sayıla bilməz. Onu da nəzərə alaq ki, hakimiyyətlə kilsə arasında münasibətlər korlanıb. O kilsə ilə ki, həm erməni şovinist-revanşizminin ilhamvericisi qismində çıxış edir, həm də hazırkı xəstə cəmiyyətin maraqlarının müdafiəçisi obrazına malikdir.

Bununla belə, siyasi analitiklər Ermənistandakı narazılıqların o qədər də böyük potensiala malik olmadığını vurğulayırlar. Onlar anti-Paşinyan ritorikasının ümummilli xarakter daşımaq potensialından uzaqlığını vurğulayırlar. Hətta, narazılıq dalğasının bumeranq effekti yaradaraq, hakimiyyətin öz mövqeyini gücləndirəcəyini söyləyənlər də var. Sonuncuların fikri budur: Paşinyan və komandası hazırkı iqtidara qarşı çıxan qüvvələrə bütün potensiallarını xərcləmək üçün imkan yaradır ki, axırıncı güllələrini atsınlar. Bütün bunların fonunda siyasi müxalifətin, faktiki olaraq, iflasa uğradığını söyləmək mümkündür.

Bəli, erməni kilsəsi mövcud vəziyyətdə öz mövqeyini mümkün qədər aydın bildirməyə qərar verib. İndi bir çox keşişlərin narazılıq dalğasında təmsilçiliyini düşünsək, Ermənistanda, belə demək mümkünsə, ayrıca kilsə müxalifətinin formalaşdığını söyləmək yerinə düşər. Diqqət yetirək, hazırda Ermənistandakı bir çox hökumətyönlü teleqram kanalları, az qala, ən nalayiq ifadələrlə kilsəni tənqid edirlər. Bu cür təbliğatın, yəni, "qurşaqdan aşağı zərbələr"in isə hakimiyyətin əleyhinə işləmə ehtimalı var. Həm də ona görə ki, prinsip etibarilə, kilsə Ermənistan üçün uzunmüddətli amildir, onun öndə olduğu proseslər davamlı hadisələr silsiləsi kimi qəbul edilir.

***

Vurğuladığımız kimi, Ermənistanda kəndlərin Azərbaycana qaytarılması, sərhəd dirəklərinin quraşdırılması məsələsəndəki narazılıqların ikinci qütbündə ordu dayanır. Nəzərə alaq ki, proseslərə hərbi qulluqçular da qoşulublar. Hazırda ölkədə yaşananlar 2018-ci ili xatırladır. O zaman hərbçilər hökumət əleyhinə etirazlarda yer alırdılar. Deməli, kilsə ilə yanaşı, ordunun da siyasi proseslərdə iştirakı məsələsi aktuallaşır.

Haşiyə çıxaq ki, 2018-ci ildə aksiyalara sülhməramlı batalyonun qoşulması (bu, Ermənistanda hakimiyyət dəyişikliyinə səbəb oldu – red.) və kifayət qədər mərkəzləşdirilmiş hadisə idi. Görünür, mövcud amil nəzərə alınıb və bu səbəbdən hazırda Ermənistanda aksiyalara qoşulan hərbçilər məhkəmə yolu ilə hədələnir, cəzalandırılır və s. Lakin durum 2018-ci ildəki vəziyyətdən məhz onunla fərqlənir ki, indi yaşananlar mərkəzləşdirilmiş etiraz aksiyaları şəklində deyil.

Ümumən, haqqında söz açdığımız ordu amili məsələsindəki vəziyyət belədir ki, bir qrup hərbçi sərhədlərin delimitasiyasına etiraz edən narazı kütlə ilə həmrəyliyini göstərir. Həmin qrupda yer alanların bu addımı uzun müddətdir davam edən hərbi çevrilişlə bağlı müzakirələri aktivləşdirib. Silahlı qüvvələr içərisində baş nazirə qarşı narazı zabit heyətinin olduğu və həmin heyətin hakimiyyəti devirmək üçün fürsət gözlədiyi aydındır.

Nikol və onun təyin etdiyi müdafiə nazirləri orduya tam nəzarəti gerçəkləşdirə bilmirlər. Səbəb sadədir – orduda Qarabağ klanının qalıqları həddən artıq çoxdur. Bu çoxluq 1998-ci ildən bəri gedən prosesdir. Çünki klan həmişə özünü Ermənistan siyasi industriyasına yad hesab edib. Ona qarşı ölkə daxilində antipatiya olub. Qarabağ klanının təmsilçiləri keçmiş prezidentlər Robert Koçaryan və Serj Sarkisyan özlərinə qarşı narazılığın fərqinə vardıqlarından çalışıblar ki, ordunu əldə möhkəm saxlasınlar. Bunun yolu isə hərbi sistemə öz kadrlarını yerləşdirmək idi.

Məhz dediklərimizə görədir ki, hazırda ordu N.Paşinyan hakimiyyətinin ən yaralı yeridir. Ermənistanın mövcud hakimiyyəti nə qədər çalışsa da, bu sahədəki islahatlar əməli nəticə vermir. Əslində, bu məqam subliminal şəkildə ABŞ Dövlət Departamentinin bir neçə gün əvvəl açıqlanmış hesabatında da vurğulanıb. Hesabatda hərbi sistemdə insan hüquq və azadlıqlarına etinasız yanaşmaların baş alıb getdiyi vurğulansa da, aydındır ki, belə hallara görə erməni iqtidarının pislənməsindəki motiv başqadır. Yəni, Qərb Paşinyana silahlı qüvvələri qaydaya salmaqla əlaqədar mesaj verir. Görünür, Nikolun xaricdəki hamiləri onun zəif yerini, kifayət qədər, yaxşı təhlil edirlər. Qərbdə anlayırlar ki, Ermənistan ordusu Paşinyan iqtidarı üçün hər an partlamağa hazır bombadır.

Əlbəttə, ordunun ayrıca müstəqil orqanizm kimi istədiyini gerçəkləşdirə bilmək potensialının olmadığını vurğulamalıyıq. Deməli, haqqında söz açdığımız kilsə amili dövriyyəyə girməlidir və girir də. Nəzərə alaq ki, Ermənistan iqtidarının hakimiyyətdə olduğu müddətdə dəyişmək üçün qol çırmamağı bacarmadığı sahələrdən biri də məhz kilsədir.

***

Paşinyan iqtidarının xaricdəki erməni lobbi və diaspor təşkilatlarına təsir iradəsi də yoxdur. Bu tendensiya özünü son zamanlar daha qabarıq formada göstərməkdədir. Nəzərə alaq ki, əvvəlki Ermənistan hakimiyyətləri ilə lobbi və diaspor arasında dərin bağ, birgə fəaliyyət kursu var idi. Hazırda bu kursdan əsər-əlamət qalmayıb. İkincilər Nikolu və komandasını ölkənin maraq və mənafelərini qoruya bilməməkdə təqsirləndirirlər. Buna görə də hazırda ona qarşı çıxan qüvvələrin ordu və kilsə təmayülü ilə yanaşı, diaspor qütbü də var. Məlum olduğu kimi, bu qütb qondarma "erməni soyqırımı"nın bir neçə gün əvvəl qeyd olunmuş növbəti ildönümü ilə bağlı fəallıq nümayiş etdirdi. Ermənistan hakimiyyətinin yanaşması, xüsusən də "erməni soyqırımı" xüsusunda ortaya atdığı mübahisələndirici diskurs xaricdəkiləri qəzəbləndirdi.

Diqqətə çatdırdıqlarımızın fonunda Ermənistandakı durumun gərginliyini vurğulamalıyıq. Onu da bir daha bildirməliyik ki, hazırda delimitasiya və kəndlərin Azərbaycana qaytarılması müstəvisində başlanmış etirazların ümummilli xarakter alacağını söyləmək mümkünsüzdür. Mövcud qeyri-müəyyənlik şəraitində Paşinyan iqtidarının istədiyini reallaşdırması perspektivi daha real görünür. Necə deyərlər, it hürər, karvan keçər.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Çinin Xarici ölkələrlə dostluq qrupu Heydər Əliyev Fondunda





**Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov ölkəmizdə səfərdə olan Çin Xalq Respublikasının Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Yan Vanminlə görüşüb.**

Görüşdə iki qurum arasındakı əməkdaşlıq, eyni zamanda, bu əməkdaşlığın dövlətlərarası və xalqlararası əlaqələrin inkişafına verəcəyi töhfə müzakirə edilib.

Anar Ələkbərov Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ötən illərdə Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının rəhbərliyi ilə görüşlərini xatırladıb, iki qurum arasında imzalanan Azərbaycan–Çin dostluğunun və əməkdaşlığının genişlənməsinə dair Memorandumu, həyata keçirilən layihələri qeyd edib.

Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının Heydər Əliyev Fondunun strateji tərəfdaşı olduğu, bu il hər iki qurumun yubileyinin – Heydər Əliyev Fondunun yaradılmasının 20, Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının 70 illiyinin qeyd edilməsinin rəmzi məna daşıdığı bildirilib.

Ölkəmizə Heydər Əliyev Fondunun dəvəti ilə səfər etdiyini deyən Yan Vanmin Azərbaycan Prezidentinin Çinlə əlaqələrə xüsusi önəm verdiyini, budəfəki görüşlərin və müzakirələrin Azərbaycanla Çin arasında əməkdaşlığın genişlənməsinə əlavə təkan olacağını qeyd edib.

Görüşdə Heydər Əliyev Fondunun 20 illiyi ilə əlaqədar Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyası tərəfindən Fondun prezidenti Mehriban Əliyevaya ünvanlanan təbrik məktubu təqdim olunub.

Həmçinin Heydər Əliyev Fondu ilə Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyası arasında əməkdaşlığın əhatəsinin genişlənməsinə yönələn sahələr nəzərdən keçirilib. Dövlət səviyyəsində möhkəm təmələ söykənən əlaqələrlə yanaşı, iki xalq arasında əlaqələrin, xalq diplomatiyasının da genişlənməsinin vacibliyi vurğulanıb. Qonaq bu istiqamətdə Heydər Əliyev Fondunun böyük rol oynayacağını bildirib. Azərbaycan və Çində mədəniyyət günlərinin təşkili, mədəniyyət sahəsində müxtəlif tədbirlərin keçirilməsi, gənclərin, eyni zamanda, yeni media nümayəndələrinin qarşılıqlı səfərləri, şəhərlərarası əməkdaşlıqların artırılması təklif olunub.

Ölkəmizin bu il COP29-a evsahibliyi müzakirə edilən məsələlərdən biri olub. Bildirilib ki, Çin Xalq Respublikası, o cümlədən Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyası COP29 çərçivəsində lazımi dəstək göstərməyə və əməkdaşlığa hazırdır.

Heydər Əliyev Fondunun nümayəndə heyəti Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının 70 illiyi ilə əlaqədar tədbirlərdə iştirak üçün Çinə dəvət olunub.

Görüşdən sonra qonaqlar Heydər Əliyev Mərkəzindəki ekspozisiyalar – “Azərbaycan xalçası – ilmələrin rəqsi”, “Mini Azərbaycan”, “Musiqi alətləri: birlik və müxtəliflik”, “Klassik avtomobillər” sərgiləri ilə tanış olublar.

# Diaspor Paşinyana qarşı

**(əvvəli 1-ci səhifədə)**

Amerikadakı erməni diasporu konqresmenlərlə və senatorlarla, yerli icraedici orqanların rəhbərləri ilə sıx iş aparıb. Bunun nəticəsində 1992-ci ildə ABŞ Konqresində ölkəmizə qarşı 907-ci düzəliş qəbul olunub. Tam adı “Azadlığa dəstək Aktına 907-ci düzəliş” olan sənəd Birləşmiş Ştatların Azərbaycana birbaşa dövlət yardımlarını qadağan edib. Erməni diaspor və lobbisinin təşəbbüsü ilə qəbul edilmiş qadağa Azərbaycanı ABŞ hökumətindən birbaşa yardım almayan yeganə postsovet dövlətinə çevirmişdir. Konqres sonrakı illərdə də ermənilərə dəstək istiqamətində çoxlu sənəd qəbul etmişdir.

Rusiyadakı erməni diasporu da Azərbaycan əleyhinə xüsusi fəaliyyəti ilə seçilib. Diaspor Rusiya–Azərbaycan münasibətlərinin pis olması üçün var gücü ilə çalışıb. Nəticədə Rusiya–Azərbaycan münasibətləri müstəqilliyin bərpasından sonrakı illərdə heç də qaydasında olmayıb.

Hazırda ölkəmizə hücumlar etməyi əsas fəaliyyət istiqaməti elan edən, əsassız ittihamlar irəli sürən Avropa Parlamenti isə hələ 1989-cu ilin yanvarında Qarabağda gərginləşən münaqişə ilə bağlı qəbul etdiyi qətnamədə Azərbaycanı suçlamışdı.

Erməni diasporu uzun illər Ermənistanın siyasətinin formalaşmasında mühüm rola malik olub. 2009-cu il oktyabrın 10-da İsveçrənin Sürix şəhərində Ermənistan və Türkiyə arasında münasibətlərin normallaşmasını nəzərdə tutan iki protokolun (“Ermənistan Respublikası ilə Türkiyə Respublikası arasında ikitərəfli əlaqələrin inkişafı haqqında” və “Ermənistan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik münasibətlərin qurulması haqqında” protokollar – S.H.) imzalanmasından bir həftə əvvəl – oktyabrın 1-də ölkənin sabiq prezidenti Serj Sarkisyanın müzakirə üçün erməni icmasının kompakt halda yaşadığı Paris, Nyu York, Los-Anceles, Beyrut və Rostov şəhərlərinə səfər etməsi bunun bariz nümunəsi idi. Sarkisyan yalnız Ermənistan–Türkiyə münasibətlərinə dair diasporla məsləhətləşdikdən və onların fikirlərini öyrəndikdən sonra xarici işlər naziri Edvard Nalbandyanı protokolları imzalamaq üçün Sürixə göndərmişdi.

Qazax rayonunun 4 kəndinin Azərbaycana qaytarılmasına etiraz edən, etirazçıları dəstəkləyən erməni apostol kilsəsi, onun başçısı olan bütün ermənilərin katolikosu II Qaregin isə 2009-cu il sentyabrın 24-də S.Sarkisyanla görüş zamanı onun təşəbbüsünü alqışlayaraq demişdi: “Diaspor xalqımızın vacib və ayrılmaz hissəsidir. Bugünlərdə imzalanması gözlənilən Ermənistan–Türkiyə sənədlərini də qızğın şəkildə müzakirə edən diaspor övladlarının onları maraqlandıran suallara cavabları şəxsən sizdən eşitmək imkanının olması düzgün olardı”.

Ancaq Nikol Paşinyanın 2018-ci ilin mayında “narıncı inqilab” yolu ilə hakimiyyətə gəlişindən sonra Ermənistan iqtidarı ilə diasporu arasında da münasibətlərdə soyuqluq yarandı.



Məsələ onda idi ki, diaspor əvvəlki hakimiyyətlərə güclü təsir edə bilirdi. Onların sözü Ermənistanda eşidilirdi. Ancaq Paşinyan dərk edirdi ki, diaspor Ermənistan və erməni xalqı üçün ianə şəklində topladığı pulların böyük hissəsini mənimsəyir, cüzi bir hissəsini isə Hayastana göndərir. Paşinyanın diasporun Ermənistanın ictimai-siyasi həyatına təsirini minimuma endirmək üçün atdığı ən böyük addım 2008-ci il oktyabrın 1-dən fəaliyyət göstərən diaspor nazirliyini ləğv etməkdən ibarət oldu. Hakimiyyətə gəldikdən bir il sonra – 2019-cu il mayın 8-də diaspor nazirliyi əvəzində baş nazir aparatında diaspor məsələləri üzrə ali komissarlıq yaradıldı.

Onu da bildirək ki, 1990-cı illərinin əvvəllərində Azərbaycan torpaqlarının işğal edilməsi erməni diasporunun iştahını daha da artırmışdı. Ölkəmizin təbii sərvətləri vəhşicəsinə talanır, yeraltı faydalı qazıntılarımız qanunsuz olaraq xaricə daşınırdı. Diasporda cəmləşmiş erməni iş adamları bu prosesdə yaxından iştirak edirdilər. 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan təkcə tarixi torpaqlarına deyil, yerüstü və yeraltı təbii sərvətlərinə də sahib çıxdı. Beləliklə, hər məsələdə şəxsi qazanc güdən erməni diasporunun Paşinyanla münasibətləri daha da kəskinləşdi.

Görün iş nə yerə gəlib çatıb ki, bu gün xaricdəki erməni disaporunun bir çox nümayəndələri “daşlar ölkəsi”nə gedib-gələ bilmirlər. Rusiyadakı ermənilərin “parlaq nümayəndəsi”, böyük media holdinqə başçılıq edən Marqarita Simonyanın, onun əri Tiqran Keosayanın, Fransadakı erməni təşkilatlarının koordinasiya şurasının həmsədri Murad Papazyanın, Fransada yaşayan erməni əsilli jurnalist Leo Nikolyanın Hayastana girişi qadağan olunub. Yeri gəlmişkən, qeyd edək ki, sonuncu şəxs 8 gündür ki, “Zvartnos” hava limanının neytral zonasında aclıq aksiyası keçirir. Bundan əvvəl, o, Ermənistana buraxılmaması ilə bağlı siyasi qərar verildiyini bildirmişdi. Nikolyan onu da bildirib ki, hökumət nümayəndələri ona baş çəkib, Fransaya qayıtması üçün bilet və pul təklif ediblər, lakin o, bundan imtina edib.

İndi isə diaspor Ermənistandakı sərhəd kəndləri ilə bağlı etirazlar fonunda baş nazirə qarşı yeni hücumlar edir. Xüsusilə, Rusiyadakı erməni diasporunun anti-Paşinyan fəaliyyəti diqqəti cəlb edir. Saylarına görə Livanda ikinci yerdə olan haylar paytaxt Beyrutda Paşinyana qarşı forum keçirmək təşəbbüsü ilə çıxış ediblər.

**“Qafqaz Strateji Araşdırmalar Mərkəzi”nin sədr müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru Nazim**



**Cəfərsoy** “XQ”-yə açıqlamasında bildirdi ki, dörd kəndin qaytarılması ilə bağlı Ermənistandakı etirazların böyüməməsi üçün müəyyən inzibati addımlar atılır. Onun sözlərinə görə, proseslər hələ ki, nəzarətdədir, ancaq Ermənistan zəif halqadır. Ölkənin siyasətində Paşinyana yönəlik müxtəlif qruplar var. Proseslərə ordunun, müxtəlif təhlükəsizlik orqanlarının və kilsənin də ciddi neqativ yanaşması mövcuddur. Üstəlik, onların xaricdəki erməni diasporundan və Rusiya, Fransa və ABŞ-dəki müəyyən dairələrdən də dəstək almaq potensialları var. Bütün bunları bir arada düşündüyümüz zaman hələlik nəzarət altında olan proseslər Paşinyanı devirəcək və ya hakimiyyətində ciddi sarsıntı yarada biləcək gücə də malikdir. Proseslər qəfildən geniş vüsət ala bilər.

Erməni diasporu ilə Paşinyan arasındakı münasibətlərə gəldikdə isə N.Cəfərsoy qeyd etdi ki, diasporu və erməni milli kimliyini formalaşdıran ən əhəmiyyətli faktorun önündə türk düşmənçiliyi gəlir: “Ermənilər Türkiyə və Ermənistan torpaqları hesabına “dənizdən dənizə böyük Ermənistan” qurmaq istəyiblər. Bu zaman xaricdən – İngiltərədən, Fransadan, ABŞ-dən və Rusiyadan xüsusi dəstək alıblar. Nəticədə ötən əsrin əvvəllərində Cənubi Qafqazda Ermənistan adlı dövlət yaranıb. Bu dövlət əsrin sonlarında yenə müxtəlif xarici qüvvələrin dəstəyi ilə silahlandırılıb və torpaqlarımızı işğal edib. Ancaq onların cəhdləri uğursuzluqla nəticələnib və 200 illik plan iflasa uğrayıb”.

Müsahibimiz bildirdi ki, Hayastanı hazırda idarə edən N.Paşinyan bölgədə erməni xalqının və ümumiyyətlə, erməni dövlətçiliyinin varlığını qoruyub saxlamağın yolunun qonşularla normal münasibətlər qurulmasından keçdiyini anlayır: “Onun hazırda bu düşüncədə olmasında 44 günlük Vətən müharibəsindəki Qələbəmizin xüsusi rolu var. Bu çərçivədə Paşinyan qonşularla, xüsusilə Azərbaycan və Türkiyə ilə normal münasibətlər qurmağa çalışır. Paşinyan anti-Azərbaycan, anti-türk, irrasional, separatçı erməni anlayışını dəyişmək istəyir. Bunun yolunun Azərbaycanla normal münasibətlər qurmaqdan keçdiyindən bəhs edir. Normal münasibətlər qurmaq da sərhədlərin dəqiqləşdirilməsi, nişanlanması, Azərbaycanın ərazi bütövlüyünün tanınması, bu kontekstdə 4 kəndin ölkəmizə qaytarılması ilə xarakterizə edilə bilər”.

N.Cəfərsoy qeyd etdi ki, erməni diasporunda bu məsələlərlə bağlı ciddi narahatlıq var. Çünki diaspor anti-Azərbaycan, anti-türk mahiyyətdədir. Diaspor rəhbərləri hələ də “böyük Ermənistan” düşüncəsi ilə fəaliyyət göstərir və radikal düşüncələrə malikdirlər: “Onlar Amerikada, Avropa qitəsinin müxtəlif ölkələrində, Rusiyada əyləşib Ermənistanı təcavüzkarlığa sürükləməyə cəhd edirlər. Hayastana ideoloji, siyasi, bəzən də iqtisadi dəstək verməyə çalışırlar. Digər tərəfdən erməni diasporunun üzvləri yaşadıqları ölkələrin siyasətinin bir parçası kimi çıxış edirlər: “Məsələn, Fransanın Ermənistan siyasətində diasporun çox ciddi rolu var. Son vaxtlar Parisin ölkəmizlə bağlı yürütdüyü siyasətdə əsas amillərdən biri də budur. Diaspor ABŞ-nin bölgə siyasətinə də çox ciddi təsir göstərir. Biz bunu zaman-zaman görmüşük və görməkdəyik. Məsələn, ABŞ-dəki erməni diasporunun Paşinyanın səfir təyin etdiyi Lilit Makuntsla münasibətləri çox gərgindir. Müstəqilliyin bərpasından sonra Rusiyanın bölgə siyasətində erməni diasporu çox aktiv rol oynayıb. Son dövrlərdə gücü azalsa da, orada revanşistləri dəstəkləyənlərin sayı kifayət qədərdir”.

Politoloq onu da bildirdi ki, bütün bunlar erməni lobbisi və diaspor təşkilatlarının Paşinyana nifrətinin təzahür formalarıdır. Onlar Paşinyanın görmək istədiyi işləri əngəlləmək, onu sabotaj etmək, mümkün qədər zəiflətmək, hətta hakimiyyətdən getməsi üçün bütün vasitələrdən istifadə etməyə çalışırlar. Bura sui-qəsd, dövlət çevrilişi kimi addımların atılması da daxildir. Hələ ki, buna gücləri çatmır. Proseslərdə diasporla yanaşı, erməni apostol kilsəsi də aktiv iştirak edir. Hətta, zaman-zaman proseslərə “liderlik” edir. Dörd kəndin qaytarılmasına qarşı çıxan qüvvələri içərisində də kilsənin fəal rol oynadığını görürük.

***Səxavət HƏMİD***
***XQ***

Köşə

# Gerçək ictimai qınaq, yoxsa linç?

**Sosial şəbəkələrdə nalayiq olduğu bildirilən geyimdə (geyimə qiymət vermək istəmədiyim üçün belə yazdım) olan xanımın mağazadan qovulması səhnəsini əks etdirən videogörüntülər yayılıb. Xanımı qınayanların, sanki növbəyə durduqlarına dair təəssürat var. Bu barədə bir neçə məqama diqqət yetirmək istərdim.**



**Əvəz RÜSTƏMOV**
**evez.rustemov@gmail.com**

Bəli, kimsə kiminsə geyimini düzgün saymaya bilər. Hər kəs nalayiq bildiyi geyimdə olan şəxsin obyektinə daxil olmağına, ümumən orada görünməyinə şərait yaradıb-yaratmamaqda da sərbəstdir. Ancaq bu durumda düzgün saymadığım məsələ nalayiq kimi qələmə verilən geyimi geyinənin görüntülənməsi və həmin görüntünün sosial şəbəkələrdə, ən başlıcası isə ayrı-ayrı media orqanlarında yayılmasıdır. O media orqanlarında ki, cəmiyyətdə ictimai fikri formalaşdırmaq missiyasını üzərilərinə götürdüklərini bildirirlər. Görəsən, belədirmi?

Qınaqdan danışırdım, axı, ictimai qınaqdan. Onun yol verilən hədləri var. Əlbəttə, sosial şəbəkə iştirakçıları bu barədə xəbərsiz ola bilərlər. Təəssüf ki, bəzi media qurumları da prosesdə fəal iştirak edirlər. Fikrimcə, ən pisi elə budur. Çünki onların sayəsində hadisə daha geniş təbliğ olunur, ictimai obraz qazanır. Müvafiq olaraq ictimai qınaq da əndazəni aşır, ona tünd rəng çalarları əlavə olunur, linç elementləri yaranır. Linç isə ona məruz qalan şəxsi aqressivləşdirir. Həmin şəxs daha əzmlə özünü cəmiyyətə müxalif görməyə başlayır. Hərəkəti səhvdirsə, səhvini daha da dərinləşdirir. Qısaca, "ho ha" var dağa qaldırır, "ho ha" da var dağdan endirir. Buna diqqət edirikmi? Təəssüf ki, yox.

Digər tərəfdən, biz hüquqi dövlətdə yaşayırıq. Təsəvvür edin ki, əxlaqından və mənəvi keyfiyyətlərindən asılı olmayaraq, sıravi şəxs özünün icazəsi olmadan görüntülənir və həmin görüntü yayılır. Adama qarşı təhqirlər bir-birini sıralayır. Budurmu hüquqi dövlət anlayışı? Qəribəsi isə odur ki, bir qayda olaraq, geyiminə görə kimisə linç edənlər sonradan özlərinin üzləşdikləri hansısa qanunsuzluqdan söz açırlar. Axı elementar məntiq var: Sən əlinə düşən ilk fürsətdəcə qanuna məhəl qoymursansa, başqasının əlində daha böyük imkanlar olub bunu edirsə, niyə şikayətlənməlisən? Fikrimcə, ictimai qınaq heç bir halda qanunçuluğu ikinci plana atmamalıdır. Birincidə ikincinin təbiəti mütləq qaydada qorunmalı, hiss edilməlidir.

Başqa bir məqama diqqət yetirək. Daha doğrusu, indiki halda bu məqama diqqət yetirməli olan jurnalist cameəsidir. Nəzərə alaq ki, nalayiq geyimdə olduğu bildirilən xanım vəzifə sahibi deyil, xalqın, millətin taleyinə görə cavabdehlik daşımır. Yəni, videogörüntüyə alınaraq ictimai qınaq hədəfinə çevrilməli olan subyekt sayıla bilməz. Deməli, onun hərəkətinin də cəmiyyətdə mənəvi tərbiyə xüsusunda qiymətləndirilməsi yolverilməzdir. Media bu təbliğatda iştirak edirsə, istər-istəməz onun ictimai missiyası arxa plana keçir. Bu halda demək olmaz ki, media sosial şəbəkələrlə rəqabətdə uduzmaq istəmədiyindən dövrün tələbi ilə uyğunlaşmaq məcburiyyətindədir. Çünki jurnalistika heç bir halda cəmiyyət üçün real fayda amilini unutmamalıdır.

Cəmiyyət rəngarəngdir. Onda tərbiyəli-tərbiyəsiz, əxlaqlı-əxlaqsızlar, şərəfli və şərəfsizlər var. Hesab edək ki, haqqında söz açdığımız xanım nalayiq geyimdə mağazaya daxil olmaqla, ümumən ictimai yerdə görünməklə səhvə yol verib. Məsələnin geniş ictimai müzakirəyə çıxarılması şəxsin səhv addımının təbliğidir. Səhvə yol verən şəxs istər-istəməz kultlaşır, hamı tərəfindən etalona çevrilir. Bu, yolverilməzdir. Həm də ona görə yolverilməzdir ki, cəmiyyətdə ayıb da, ayıb olmayan da bizimdir. Hər ayıb deyilməməli, haqqında söhbət açılmamalıdır. Bineyi-qədimdən abıra bükülmək kimi bir deyim də var.

Nəhayət, bir məqamı da vurğulayım. Nalayiq geyimdə olan şəxsi – xanımı görüntüyə alan və bu görüntünün ictimai qınaq, ümumən diskussiya predmetinə çevrilməsinə şərait yaradanlar, o cümlədən, məsələni xəbər kimi yayan media orqanları daha ziyanlıdırlar, nəinki həmin geyimdə yola çıxmağı özünə rəva bilən şəxs. İstər mənəvi baxımdan, istərsə də hüquqi nöqteyi-nəzərdən onların hərəkətinə bəraət yoxdur.

# Yeni tarixi mərhələdə milli ideya

## XII məqalə

*Tarix yaddaş məharətidir, yaddaşların kəsişmə sahəsidir.*

***Patrik HATTON, ABŞ tarixçisi***



Türk dünyası yaddaşdır! Bu yaddaşın tərkibində ayrı-ayrı türk xalqlarının özəl yaddaşları vardır. "Fransa yaddaşı"ndan və Amerika "yaddaşsızlığından" türk xalqlarının yaddaşını fərqləndirən başlıca cəhət, türklərin müasir mərhələdə dövlət statusunda inteqrasiyasına qədər özünəxas təkamül yolu keçməsi ilə bağlıdır. Bu yolda qarşılıqlı dəstəklə yanaşı, müəyyən ziddiyyətlərin, dartışmaların olduğu da məlumdur. Bir sıra araşdırmaçılar burada problem görməyə çalışırlar. Əslində isə keçilən yol indiki mərhələdə real inteqrasiya etməyi təmin edəcək faydalı "mənəvi-tarixi və yaddaş bazasıdır". Bunu sübut edək.

## Türk toplumlarının özəlliyinin bir tarixi-fəlsəfi izahı

Türklər qədimdən çox passionar olmaları və mifdən gələn tarixi missiyanı yerinə yetirmək izinə düşmələri ilə analoqu olmayan bir toparlanma, parçalanma və dövlət qurma dinamikasına sahibdirlər. Bu dinamikada öncə türk tayfalarının, sonra tayfa birliklərinin və daha sonra xalqların və nəhayət, millətlərin münasibətlərinin fərqli "ritmləri" özünü göstərmişdir. Təsəvvür edək ki, tarixi qaynaqlara görə, qədimdən, hətta, eyni boya mənsub türk tayfaları arasında qanlı savaşlar, dartışmalar, hətta qan davaları, qisaslar olmuşdur. Bu özəllik tayfalar birliyi səviyyəsində də özünü göstərmişdir.

Müxtəlif türk boyları arasında dostluq və qohumluqdan düşmənçilik və sərt qarşıdurmalara, qanlı müharibələrə qədər dəyişkən bir mənzərə yaranmışdır. Lakin bu proseslər heç zaman türkləri türklüklərindən və ağır məqamlarda bir-birinə dəstəkdən məhrum edə bilməmişdir. Türk tarixi yaddaşında daha ədalətli və güclü olmaq üçün, hətta, ən yaxın ətrafı ilə sərt savaşlar mövcuddur. Türk hökmdarları arasında "daha ədalətli və güclü türk mənəm" imici uğrunda savaşlar da olmuşdur.

Birgə yaşamın xalq səviyyəsində bu proses bir qədər səngimişdir. Səbəbi isə maraqlıdır ki, türklərin xalq kimi formalaşmağa başladığı dövrdə başqa toplumların təsiri altına düşmələri ilə əlaqəli olmuşdur (təbii ki, bu, hər bir türk xalqına aid deyildir). Tayfalar birliyindən xalq formasına keçid bu səbəbdən yaddaş aspektində ziddiyyətli və qovğalarla doludur. Xüsusilə, türk xalqları içərisində ideya, siyasi aktivlik və dövlət quruculuğu baxımından daha passionar olan Qafqaz və Anadolu türkləri başqalarından seçilmişlər. Azərbaycan türkləri indi "İran" adlanan ərazidə əsrlərlə dövlət idarə etmişlər. Onların yaddaşından bu prosesin möhtəşəmliyi, qüruru və buraxılan səhvlərin təhlili silinməz. Anadoluda türklər dünyanın ən güclü imperiyalarından birini qurmuşlar. Azərbaycan türklərinin qurduqları güclü imperiya ilə Anadoluda mövcud olan türk imperiyası arasında bir neçə dəfə savaş olmuş və bu da tarixi yaddaşa izini salmışdır.

Eyni zamanda, Mərkəzi Asiya türklərinin öz aralarında, Azərbaycan və Anadolu türkləri ilə münasibətlərdə yaddaşlarda bir sıra izlər hələ də qalmaqdadır. Bütün bunlar fəlsəfi aspektdə iki özəlliyi bizim yaddaşımızda saxlamaqdadır. Birincisi, türk xalqları arasında dövlət səviyyəsində qarşıdurmalar əsasən tayfalar və tayfalar birliyi formasında kəskinləşmişdir. Dövləti olan türk xalqları kimi Osmanlı – Səfəvi rəqabəti ön planda olmuşdur. Həmin mərhələnin başlıca tarixi dərsi bundan ibarətdir: türk dövlətçiliyi imperiya formasında inkişaf edə bilmir. Bunu tarix boyu 10 dəfədən çox nümunədə türklər sınamışlar.

Türklər xalq və millət səviyyəsində ancaq demokratik, dünyəvi, hüquqi idarəetməyə əsaslanan dövlət quruluşları şəraitində uğurlu ola bilirlər. Bu, hətta, xanlıqlar dövründə Azərbaycanın başına gələnlərin işığında belə aydın görünür.

Deməli, türk xalqları və sonra millətləri tarixin dərsləri nəticəsində dünyəvi hüquqi dövlət qurmağın ən perspektivli və faydalı olduğu qənaətinə artıq yaddaşlarında gəlmişlər. Bu gerçəkliyi XX əsrin əvvəllərində Şərqdə ilk dəfə demokratik respublika quran Şimali Azərbaycan türkləri (bu ərazidə yaşayan hər bir xalq və etnik qruplarla birgə – bizdə ayrı-seçkilik heç zaman olmamışdır) öz acı təcrübələrində bir daha sınaqdan keçirdilər. Ona görə "acı təcrübə" ki, biz anladıq ki, müstəqil dövlət qurmaq işin yarısıdır və burada tarixi keçmişdə olan təcrübə kifayət etmir. Çünki artıq "millət" və "dövlət" məfhumlarının "müstəqillik" və "müasirliklə" fərqli münasibətləri mövcuddur və buna "zamanın tələbi" deyirik. Həmin səbəbdən, biz Azərbaycan Demokratik Respublikası dövrünün geosiyasi ziddiyyətlərindən salamat çıxa bilmədik. Ulu öndər Heydər Əliyev bunlara görə öyrədirdi ki, "müstəqilliyi qorumaq, onu əldə etməkdən daha çətin məsələdir"! Azərbaycanlıların dövlətçilik kontekstində bu təcrübəsi artıq vardır, ondan dərs almağı bu toplum bacarmışdır. Və bu prosesdə həlledici rolu ümummilli lider Heydər Əliyev oynamışdır.

Bəli, Heydər Əliyevin "bir millət, iki dövlət" formulu faktiki olaraq tarixi yaddaşımızın "yaşamaq ekologiyasını", "dövlət kimi müstəqil mövcud olmaq yolu"nu müəyyənləşdirir. Tarixi yaddaş aspektində bu formul yaddaşda iki faktorun – toplu kimi var olmaq ilə (mədəniyyət vasitəsilə) dövlət kimi varolmanın (millət olmaq yolu ilə) sintezini lakonik ifadə etmişdir. Biz tarixi, mədəni birgəyaşam üsulu aspektində türk millətiyik, müstəqil dövlət kimi mövcud olmaq üçün isə azərbaycanlılarıq. Dövlət məsələsində dünyaduyumu, yaddaşı, şüuru və davranışı azərbaycançılığa yönəltməliyik. Azərbaycançılıq Heydər Əliyevin müəyyən etdiyi məzmunda Azərbaycan dilini, mədəniyyətini, adət-ənənəsini sevməklə Vətənimizin müstəqil dövlət kimi mövcudluğu naminə yaddaşda dövlətçilik şüurunu daim aktuallaşdıraraq, onların vəhdətini yaratmaqla bağlıdır. Azərbaycançı olmaq Azərbaycanı müstəqil dövlət kimi "görməyi bacarmaq" deməkdir. Və müstəqil dövlət olaraq Azərbaycan hər bir dövlətlə münasibətlərini qurmasını qəbul etmək deməkdir.

Deməli, azərbaycanlıların tarixi yaddaşı həm mədəniyyət, həm də dövlətçilik aspektlərində artıq yetkin və konkret məzmuna malik faktor kimi mövcuddur. Bu keyfiyyətdə Azərbaycan türk dövlətlərinin inteqrasiya prosesini stimullaşdırır və həlli olaraq aparıcı rol oynayır.

Türk tarixi yaddaşının başqa özəlliyi indi TDT-yə üzv olan hər bir dövlətin etnik yolu keçməsi ilə şərtlənir. Yeni TDT-də olan üzv dövlətlər, Türkiyə istisna olmaqla, yaddaş aspektində Azərbaycan kimi acı təcrübəyə malikdirlər. Onlar da "tarixin dövlətçilik qazanında" bişmişlər və özlərinə xas təcrübəyə malikdirlər. Amerika inteqrasiya formasından türklərin inteqrasiya formasının üstün cəhəti və perspektivi bu aspektdən qaynaqlanır. Yəni türk inteqrasiyasının təməlində etnik eynilik deyil, mədəniyyət ümumiliyi, dini ümumilik və dövlət təcrübəsi dayanır! Mədəniyyət, din və dövlət yaddaşı öncədən inteqrasiya münasibətlərində "böyük qardaş – kiçik qardaş" münasibətlər iyerarxiyasını aradan çıxarır. Ön plana qarşılıqlı faydalı və beynəlxalq hüquqa əsaslanan müttəfiqlik və həmin anlamda da birlik, bütövlük modeli çıxır. Bundan sonra heç bir təsir türk xalqlarını bərabərhüquqlu münasibətlər çərçivəsindən kənara çıxara bilməz. Bizim tarixi yaddaşımız həmin sapmaların bütövlükdə millətə, türk qövmünə və insanlığa nə qədər zərər verdiyini göstərən nümunələrlə doludur. Türklər həmin tarixi səhvləri təkrarlamazlar!

## Azərbaycanlılıq və dövlətçilik

Azərbaycanlı olmaq etnik mənsubluq deyildir. Azərbaycanlı olmaq eyni mədəniyyətə və dövlətə sahib olan insanların vətəndaşlıq hüququdur. Mənəvi-əxlaqi və psixoloji birliyin, birgəyaşam üsulunun ən gözəl formuludur. Azərbaycanlı olduğunu duymadan, hiss etmədən müstəqil Azərbaycan dövlətini görə bilməzsən – başqa yanaşma hər zaman qüsurlu və məhdud olacaqdır! Azərbaycan burada yaşayan hər bir insanın, vətəndaşın dövlətidir. Burada hər hansı etnik üstünlükdən söhbət gedə bilməz. Eyni anlam türkiyəlilikdə, qazaxıstanlılıqda, özbəkistanlılıqda, qırğızıstanlılıqda və türkmənistanlılıqda mövcuddur. TDT-yə üzv olan dövlətlərin toplumları bu baxımdan multikultural mühitdə birgəyaşam təcrübəsinə malik, tarixin sınaqlarından çıxmış formula malikdirlər. Məsələn, hələ Qaraxanlar xanlığı dönəmində müxtəlif dinə mənsub olanları Xan (Kağan) bir araya toplayıb, onlarla fərqli dinlərin, konfessiyasaların dinc yanaşı yaşamasını təmin etmənin ideoloji və hüquqi məsələlərini müzakirə edərdi. Yəni multikulturallıq TDT üzvlərinə kənardan gətirilmiş münasibətlər ənənəsi deyildir, əsrlərlə toplumların daxilində formalaşmış və dövlət tərəfindən dəstəklənən sosial-psixoloji və siyasi-mədəni fenomendir.

Beləliklə, əsrlərlə formalaşmış və özündə multikulturallığı, öz dövlətinin olmasına canatmaları ehtiva edən tarixi yaddaşa malik xalqların müasir şərtlər daxilində inteqrasiya formasından söhbət gedir! Təbii ki, təməlində multikulturallıq anlayışı olan inteqrasiya avtomatik olaraq hüquqi, mənəvi-mədəni bərabərliyi də özündə daşıyır. Bu cür inteqrasiyanı çox perspektivli hesab etmək olar.

Məsələ milli ideya aspektində çox maraqlıdır. Çünki yuxarıda vuğuladığımız faktorların işığında türk dövlətlərinin inteqrasiyasının hər bir dövlətin milli ideyasının reallaşması kontekstində konkret məzmun aldığı aydınlaşır. O cümlədən, yeni tarixi mərhələdə Azərbaycanın milli ideyasının məzmununda türk inteqrasiyası faktorunun nəzərə alınması və ayrıca TDT-nin təşkilat kimi bu prosesdə aktiv iştirakı maraqlı düşüncələrə yol açır. Onu vurğulayaq ki, Azərbaycanın xarici siyasətinin yeni tarixi dönəmdə prioritet istiqamətlərindən biri TDT-nin gücləndirilməsi ilə bağlıdır.

Prezident İlham Əliyevin bu məsələnin strateji əhəmiyyəti kontekstində ifadə etdiyi fikirlər çox əhəmiyyətlidir. Dövlət başçısı andiçmə mərasimində demişdir ki, TDT-nin formalaşmasının bazasında "təbii müttəfiqlik" anlayışı yerləşir. Bu anlayış tarixi, mədəni və dövlətçilik ənənələrini ehtiva edir. Azərbaycan lideri fikirlərini ümumləşdirərək bəyan etmişdir ki, "Bizim ailəmiz türk dünyasıdır"! Deməli, TDT, sadəcə olaraq, müstəqil dövlətlərin birliyi deyildir – onun anlamı bu sərhədi aşır. Çünki, o, məcazi mənada bir ailə sayılan xalqların tarixindən, mədəniyyətindən, adət-ənənələrindən qaynaqlanan dəyərlərin, dəyişməz "mənəvi-əxlaqi və birgəyaşam kodlarından" qidalanan ideyanın reallaşmasıdır.

Azərbaycan Prezidenti bu ideyanın tərkib hissələrini də müəyyən etmişdir və onları biz yazılarımızda "Türk birliyinin 8 təməl faktorları" kimi təqdim etmişik. Həmin faktorları bir daha vurğulayaq: böyük coğrafiyası, böyük ərazisi, böyük hərbi gücü, böyük iqtisadiyyatı, zəngin təbii sərvətləri, geniş nəqliyyat yolları, dinamik demoqrafik sferası və "bir soydan, kökdən olan xalqlar" (İlham Əliyev). Bu 8 təməl amilinin mərkəzində tarixi-mədəni faktor – eyni soy və kök dayanır! Çünki məhz həmin faktor türk inteqrasiyanı perspektiv baxımından ideya statusunda bütün inteqrasiya modellərinin fövqünə yüksəldir! Bu da inteqrasiya prosesinin hər bir üzvünün öz milli ideyasını ümumtürk və bəşəri miqyasa transformasiya etməsi zərurətini və ehtiyacını meydana çıxarır. Yəni türk inteqrasiyası, əslində, böyük milli ideyanın tarixdə ilk dəfə olaraq çox saylı dövləti birləşdirən aparıcı faktora çevrilməsi imkanı və tarixidir! Milli ideya ilk dəfə olaraq bir toplumun mənəvi, əxlaqi, ideoloji, mədəni çərçivəsini aşaraq eyni soya və kökə malik toplumların birgə varolma fəlsəfəsinin mərkəzinə gətirilir!

(ardı var)

***Füzuli QURBANOV, XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# Dünya ermənilərinin son həmləsi

## *Qərbdə anti-Azərbaycan qətnamələri qərəz və sifarişlə qəbul olunur*



**ABŞ Dövlət Departamenti aprelin 22-də açıqladığı "2023-cü ildə İnsan Haqları Təcrübələri üzrə illik Ölkə Hesabatı"nda insan haqları üçün təhdid yaradan qlobal faktorları sadalayıb. Bu kontekstdə Rusiya – Ukrayna müharibəsinin, Sudandakı daxili iğtişaşların və İsrail – HƏMAS qarşıdurmasının yaratdığı insan faciələrinə geniş yer ayırıb. Paralel olaraq, ayrı-ayrı ölkələrdə təzahür edən insan haqları pozuntularını da sadalayıb və bu sırada Azərbaycana da yer ayırıb.**

Hesabatın ölkəmizə aid hissəsi tənqidi ruhlu və qərəzlidir. ABŞ Dövlət Departamenti 2023-cü il sentyabrın 19-20-də Qarabağ regionunda həyata keçirilmiş antiterror tədbirlərini "insan haqları pozuntusu" kimi təsvir edib.

Dövlət Departamentinin illik hesabatı ilə paralel şəkildə – aprelin 23-də ABŞ Konqresində Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan qanun layihəsinin təqdim edilməsinə təşəbbüs göstərilib. Konqresmen Dina Titusun təşəbbüsü ilə hazırlanan və "Azərbaycanda sanksiyalara baxış Aktı" adlandırılan sənəddə II Qarabağ müharibəsinə, o cümlədən, Azərbaycan Ordusunun zəfərinə tənqidi münasibət yer tutur. Sanksiyaya məruz qalmalı olan şəxslərin siyahısına Azərbaycan ordusunun sayılıb-seçilən komandirlərinin adları da daxil edilir.

Bundan cəmi 2 gün sonra – aprelin 25-də Azərbaycan əleyhinə daha bir sənəd Avropa Parlamentində qəbul edilib. Qətnamənin motivi budur ki, guya, ölkəmizdə vətəndaş cəmiyyəti institutlarına qarşı repressiya aparılır və Avropa Parlamenti də bundan narahatlıq keçirir.

Hər üç sənədi ortaq nöqtədə birləşdirən məqamlar vardır. İlk olaraq tarixi uyğunluq diqqət çəkir. Adı çəkilən sənədlər cəmi üç gün müddətində – aprelin 22-dən 25-dək meydana çıxıb. Məqsədli olaraq, qondarma "erməni soyqırımı"nın növbəti ildönümündə, 24 aprel ərəfəsində gündəmə gətirilib. Bir növü, ermənilərə hədiyyə kimi təqdim edilib.

Sənədlərdə açıq mətnlə qeyd edilir ki, ABŞ və Avropa Birliyi Azərbaycanın 2023-cü il sentyabr ayında Qarabağ regionunda həyata keçirdiyi antiterror tədbirlərindən məyus olublar. Bölgədə erməni separatizmin kökünün kəsilməsindən narazı qalıblar. Dina Tatusun rəhbərliyi ilə hazırlanıb Konqresə təqdim edilən sənədə bu motiv daha aydın şəkildə ifadə olunur.

2024-cü ilin yanvar ayında Avropa Şurasında Azərbaycan nümayəndə heyətinə qarşı iddia qaldırarlar da açıq tekstlə bildirdilər ki, "Dağlıq Qarabağda humanitar böhranın yaradılmasından, Laçın dəhlizindən sərbəst keçidin təmin edilməməsindən" qəzəbləniblər.

ABŞ Dövlət Departamentinin, Konqresin, Avropa Parlamentinin yaydıqları sənədlərdə anti-Azərbaycan ritorikasının yer almasında "erməni şəbəkəsinin" izi aydın görünür. Onlar erməni şəbəkəsinin təsiri altında addım atdıqlarını gizlətmirlər. Məsələn, Amerika Erməni Milli Komitəsinin (ANCA) saytında yerləşdirilmiş məlumatlardan belə aydın olur ki, Dina Titusun yaydığı sənəd "lobbiçilik fəaliyyəti" çərçivəsində hazırlanıb. Bunun üçün ANCA-dan ciddi dəstək alınıb.

Məsələyə fərqli kontekstdən yanaşanlar da var. "ABŞ və Avropa İttifaqı Cənubi Qafqazda təmsilçiliyə can atırlar, bu məqsədlə erməni kartından istifadə edirlər" – barədə fikir yürüdənlər də haqlıdırlar. Amma bu iki ideya bir-birinə zidd deyil. Maraqlar qarşılıqlıdır: ABŞ və Avropa İttifaqı erməni kartından istifadə etməyə çalışırlar. "Erməni şəbəkəsi" də prosesə qatqı verir, rəngləri tündləşdirir. Xüsusi olaraq, "lobbiçilik fəaliyyəti"ndən istifadə edərək, prosesin içində öz maraqlarını təmin etməyə çalışır.



***Müşfiq ƏLƏSGƏRLİ, XQ-nin media eksperti***

Yaxın tarixdə baş vermiş 2 hadisə prosesə aydınlıq gətirmək üçün yaxşı nümunədir. Məsələn, ABŞ Senatının Xarici əlaqələr Komitəsinin sədri Robert Menendesin işi hazırda məhkəmə araşdırması altındadır. 2023-cü ilin oktyabr ayında ona qarşı rəsmi ittiham elan edilib. Prokurorluq Robert Menendesi Nyu-Cersidən olan 3 biznesmenlə korrupsiya əlaqəsinə girməkdə şübhəli bilir. O və arvadı rüşvət kimi nağd pullar, qızıl külçələr, lüks avtomobillər, digər qiymətli əşyalar almaqda, qarşılığında ABŞ Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşlarına təzyiq göstərərək, qanunsuz qərarlar çıxarmalarına vasitəçilik etməkdə ittiham olunurlar.

Menendes ailəsi qiymətli daş-qaşlar almaq müqabilində xarici ölkələrdən olan qruplar üçün "lobbiçilik etməkdə" də təqsirləndirilir. Əslində, onun "xarici qruplarla" əməkdaşlığı üzrə faktlar yeni deyil. Ermənipərəst, türkofob mövqeyi ilə tanınan Robert Menendes hələ 2022-ci ildə erməni lobbisindən rüşvət almaq ittihamı ilə medianın gündəminə gəlmişdi. Amma həmin məlumat ABŞ-nin ümumi siyasi kursuna uyğun görünmədiyi üçün qapadılmışdı. İndi isə Menendesin ABŞ-nin marağına cavab verməyən qruplarla iş birliyinə girməsi üzrə faktlar tapılıb. Onun məhkəməyə çəkilməsi də bu amillə bağlıdır.

2022-ci ildə "lobbiçilik fəaliyyəti" adı ilə rüşvət alınması faktı Avropa Parlamentində də təsdiqini tapıb. Avropa Parlamentinin sədr müavini Eva Kayli Brüssel polisi tərəfindən saxlanılıb. Belçika Federal Prokurorluğu onun korrupsiya ittihamı ilə saxlanılması üçün sanksiya verib. Kayli futbol üzrə Dünya çempionatının Qətərdə keçirilməsi üçün rüşvət qarşılığında nüfuz təmsilçiliyi etməkdə təqsirləndirilirdi. Amma bu, Eva Kaylinin adının hallandığı ilk rüşvət və korrupsiya qalmaqalı deyil. Avropa Parlamentinə (AP) Yunanıstandan seçilmiş Kayli Avropada fəaliyyət göstərən erməni lobbi qrupları ilə də sıx əməkdaşlıq edib. Bu qruplardan qanunsuz yollarla əldə etdiyi vəsaitlər mövzusunda media gündəminə düşüb. 2021-ci ildə dərc etdiyimiz məqalədə bu mövzuya biz də toxunmuşuq.

"Erməni şəbəkəsi Avropa institutlarını necə yönləndirir?" sərlövhəli məqaləsində Kaylinin erməni şəbəkəsi ilə əməkdaşlığının detallarını açmışıq **(https://az.trend.az/azerbaijan/society/3517605.html?fbclid=IwAR3CDHyC__Bj-BvOJjMqDE2oZZ2C6RFAb-t6Mdp00F_35OGzn1ivDURLe18)**. Bildirmişik ki, 2021-ci il noyabrın 19-da Azərbaycan əleyhinə qəbul edilən bəyanat Avropa Parlamentinin adından elan edilsə də, bəyanatı yalnız 33 nəfər AP üzvü imzalayıb. Həmin 33 nəfər isə Avropa Parlamentində təmsil olunan "Ermənistanla dostluq qrupu"nun üzvləridir. Bəyanatın hazırlanmasında və qəbul etdirilməsində Lukas Furlas, Lefteris Xristofor, Lars Patrik Berq ilə yanaşı, yunan deputat Eva Kayli də xüsusi aktivlik göstərmişdi.

Bəyanatda Azərbaycan silahlı qüvvələrinin "Ermənistanın ərazi bütövlüyünə qəsd etməsi" kimi qondarma ittihamlar yer tutmuşdu. Həmin 33 deputat da "Ermənistanın ərazi bütövlüyünə qəsd edilməsinin qarşısını almaq üçün" Avropa İttifaqını bütün rıçaqlardan istifadə etməyə çağırıdı. Yəni, Eva Kaylı erməni diaspor nümayəndələrindən də lobbiçilik adı ilə rüşvət almış, onların xeyrinə qətnamələr qəbul edilməsinə şərait yaratmışdı.

Bu gün də eyni proseslər baş verir. Nümunələr çoxdur, lakin hamısını sadalamağa zərurət yoxdur. Nəticə budur ki, ABŞ və Qərb institutlarında vacib mövqe tutan şəxslər təkcə "dövlət maraqları"ndan deyil, həm də şəxsi maraqlardan çıxış edə bilirlər. "Lobbiçilik fəaliyyəti" adı altında rüşvət alıb, yanlış qərarlar qəbul etdirə bilirlər. "Erməni şəbəkəsi" bu faktordan ciddi şəkildə faydalanır. Son günlərdə Qərb institutlarında ortaya çıxan anti-Azərbaycan ritorikasında bu xətt çox aydın şəkildə hiss olunur.

Ermənistan 2020-ci ildə – II Qarabağ savaşında məğlubiyyətə uğrayıb. İndiyədək məğlubiyyət sindromundan çıxa bilmir. İş o yerə çatıb ki, Nikol Paşinyanın komandası ermənilərin son 2 yüzillik ideologiyadan imtina etmək məcburiyyətində qalması barədə tezisi gündəmə gətirib. O, "tarixi Ermənistan" ideologiyasını ilə "müasir Ermənistan" ideologiyasının qarşı-qarşıya qəldiyini, "müasir Ermənistanı qorumaq üçün" "tarixi Ermənistan ideologiyasından imtina etmək məcburiyyətində qaldıqlarını" etiraf edib. Erməni kilsəsi və erməni diasporu isə bununla barışmır. Həm Paşinyana, həm də Azərbaycana qarşı silsilə hücumlar təşkil edir. Dünya ermənilərinin son həmləsini gerçəkləşdirir. ABŞ və Avropa institutlarından istifadə edərək, Azərbaycana təzyiq göstərmək, geri addım atmağa məcbur etmək istəyir.

# Azərbaycan İslam İnkişaf Bankının ən yaxın tərəfdaşıdır

**İqtisadiyyat naziri Mikayıl Cabbarov İslam İnkişaf Bankının (İİB) "COP29-a doğru" mövzusunda keçirilən "dəyirmi masa"da iştirak edib. M.Cabbarov bu barədə "X" sosial şəbəkəsində məlumat verərək tədbirdə iqlim dəyişikliyi ilə mübarizədə təşəbbüslərin prioritet istiqamətləri barədə müzakirələr aparıldığını, "yaşıl artım" və Azərbaycanın dayanıqlı enerji potensialının gerçəkləşdirilməsi istiqamətində görülən tədbirlərdən söhbət açıldığını və qlobal iqlim öhdəliklərinin yerinə yerinə yetirilməsi üçün birgə fəaliyyətin təşviqinin zəruriliyinin diqqətə çatdırıldığını bildirib.**

Xatırladaq ki, İİB 1973-cü ilin dekabrında Ciddədə keçirilən İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin maliyyə nazirlərinin konfransında imzalanan Niyyət Bəyannaməsinin nəticəsi olaraq təsis edilib. Hazırda dünyanın aparıcı maliyyə-kredit qurumlarından biri olan İİB-nin yaradılmasında əsas məqsəd yoxsulluğun azaldılması, davamlı iqtisadi artımın təşviq edilməsi və regional inteqrasiyanın dəstəklənməsindən ibarət olub.

Bankın qarşısında duran əsas vəzifələrdən biri maliyyələşdirməni İslam prinsinpləri əsasında aparmaqdır. Belə ki, bank üzv ölkələrin və fərdi müsəlman cəmiyyətlərinin iqtisadi inkişafını və sosial tərəqqisini İslam hüququ əsasında təmin edir. Qurum iqtisadi və sosial inkişaf üçün layihələrin maliyyələşdirilməsi, müəssisələrin xüsusi kapitalında iştirak və ya investisiya qoyuluşu, qrantların və ssudaların verilməsi şəklində üzv dövlətlərə maliyyə yardımı ayırır.

Qeyd edək ki, əhalisinin mütləq çoxluğunun və əksəriyyətinin müsəlmanlardan ibarət olduğu 56 ölkə bu gün İİB-nin üzvüdür. Üzvlük üçün nəzərdə tutulan başlıca şərt isə iddiaçı qismində çıxış edən dövlətin İƏT-ə üzv olmalarıdır.

İİB ilə Azərbaycan arasındakı əməkdaşlığın əsası ötən əsrin 90-cı illərinin əvvəllərində qoyulub. Belə ki, ölkəmiz tarixi müstəqilliyinə qovuşduqdan sonra beynəlxalq iqtisadi təşkilatlara inteqrasiya istiqamətində ardıcıl siyasətin aparılmasına başlanılıb və 1992-ci il iyulun 4-də Azərbaycan quruma üzv qəbul edilib. Bu isə sözügedən beynəlxalq maliyyə qurumu ilə əməkdaşlığın möhkəmləndirilməsini şərtləndirib.

Bank ötən illər ərzində respublikamızda bir sıra mühüm layihələri–Bakı bərk məişət tullantılarının yandırılması zavodu, Vəlvələçay-Taxtakörpü kanalı və Cənub İstilik Elektrik Stansiyasının tikintisi, eləcə də Yevlax-Gəncə avtomobil yolu, həmçinin Mingəçevir Su Elektrik Stansiyasının yenidən qurulması layihələrini maliyyələşdirib. Ümumiyyətlə, İİB ölkəmizlə əməkdaşlıq dövründə dövlət zəmanəti ilə Azərbaycana 18 layihə üzrə kreditlər ayırıb və adları sadalanan layihələrin icrası uğurla başa çatdırılıb.

Bankın 6 şəhərdə (Astara, Daşkəsən, Tərtər, Gədəbəy, Samux və Qazax) reallaşdırılan su təchizatı və kanalizasiya sisteminin bərpası, suvarılan əkinçiliyin kompleks inkişafı və İslam maliyyələşməsi üzrə hüquqi bazanın hazırlanmasına texniki dəstək istiqamətlərini əhatə edən 3 layihəsinin dəyəri isə 265 milyon dollar təşkil edib.

Bu il yanvarın 30-dan etibarən Azərbaycanın İİB ilə əməkdaşlığında yeni mərhələ başlanıb. Həmin gün İqtisadiyyat Nazirliyi ilə bu maliyyə qurumu arasında "Azərbaycan üçün Ölkə üzrə Əməkdaşlıq Çərçivəsinin hazırlanmasına dair Anlaşma Memorandumu" imzalanıb. Bu münasibətlə keçirilən mərasimdə adı çəkilən sənədin icrasının "yaşıl" və dayanıqlı infrastrukturun inkişafına, iqtisadiyyatın şaxələndirilməsi və rəqəmsal transformasiyaya stimul verəcəyi qeyd olunub. Anlaşma Memorandumuna uyğun olaraq görüləcək işlərin tərəflər arasında əməkdaşlığı və ölkəmizin sosial-iqtisadi inkişaf hədəfləri istiqamətində birgə fəaliyyəti gücləndirəcəyi bildirilib.

İİB ölkəmizdə "yaşıl enerji" layihələrinin icrasına da maraq göstərməyə başlayıb. Bununla bağlı bir qədər ətraflı bəhs etmək istərdik. Belə ki, 2022-ci ilin iyulunda Azərbaycanla Avropa Komissiyası arasında energetika sahəsində əməkdaşlığa dair memorandum imzalanıb. Sənəddə Azərbaycandan Avropaya "yaşıl enerji" ixracının təmin olunması nəzərdə tutulub. Həmin ilin dekabrında isə Buxarestdə Azərbaycan, Rumıniya, Macarıstan və Gürcüstan arasında Qara dənizin dibi ilə "yaşıl enerji" ötürəcək kabelin çəkilməsinə dair saziş imzalanıb.

Avropa İttifaqının prioritetləri sırasına daxil edilən layihənin yaxın 3-4 il ərzində başa çatdırılması nəzərdə tutulub. Həmin vaxta qədər isə Azərbaycan üzərinə Avropaya ötürülmək üçün 3 Gvt "yaşıl enerji" istehsalını reallaşdırmaq öhdəliyi götürüb. Bu sahədə Azərbaycanın əsas tərəfdaşlarından biri İİB-in üzvü olan Birləşmiş Ərəb Əmirlikləridir. BƏƏ-nin "Masdar" şirkətinin Qaradağda inşa etdiyi 230 MVt-luq günəş elektrik stansiyası ötən ilin oktyabrında fəaliyyətə başlayıb.

Dəyəri 250 milyon dollar hesablanan layihə BƏƏ şirkəti tərəfindən maliyyələşdirilib. Adıçəkilən günəş elektrik stansiyasının açılış mərasimi çərçivəsində "Masdar"la Azərbaycan hökuməti arasında 1 milyard dollar dəyərində yeni bərpaolunan enerji güclərinin yaradılmasına dair müqavilə imzalanıb. Azərbaycanla BƏƏ arasında bir milyard dollarlıq maliyyə imkanına malik Birgə İnvestisiya Fondunun yaradılması da nəzərdə tutulub.

Bütün bunlarla bərabər, İİB-in digər nüfuzlu üzvü olan Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti hazırda Azərbaycanda 240 Mvt-lıq külək elektrik stansiyası inşa edir.

Qeyd edək ki, İİB-nin Ər-Riyadda keçirilən illik toplantısında İslam Maliyyə Xidmətləri Şurası (IFSB) Azərbaycanın İslam maliyyə sənayesini inkişaf etdirəcəyinə ümid etdiyini bildirib. IFSB-nin baş katibi Qiyat Şabsiq İslam maliyyəsinin artıq bütün dünyada tanındığını, bir sıra ölkələrdə uğurla reallaşdırıldığını vurğulayıb. "Təbii ki, bu, həmin ölkələrin iqtisadi inkişafına öz töhfəsini verir. Bizim qaydalarımız, standartlarımız var və onları asanlıqla həyata keçirmək olar. Biz, həqiqətən, ümid edirik ki, Azərbaycan lazım gələrsə, bu standartları tətbiq edəcək və İslam maliyyə sənayesini inkişaf etdirəcək", - deyə o bildirib.

Göründüyü kimi, bankın qarşısında duran əsas vəzifə məhz maliyyələşdirməni İslam prinsipləri əsasında aparmaqdır. Belə ki, bank üzv ölkələrin və fərdi müsəlman cəmiyyətlərinin iqtisadi inkişafını və sosial tərəqqisini İslam hüququ əsasında təmin edir. Qurum iqtisadi və sosial inkişaf üçün layihələrin maliyyələşdirilməsi, müəssisələrin xüsusi kapitalında iştirak və ya investitsiya qoyuluşu, qrantların və ssudaların verilməsi şəklində üzv dövlətlərə maliyyə yardımı ayırır.

Əhalisinin mütləq çoxluğunun və əksəriyyətinin müsəlmanlardan ibarət olduğu 56 ölkə İslam İnkişaf Bankının üzvüdür. Üzvlük üçün nəzərdə tutulan başlıca şərt isə iddiaçı qismində çıxış edən dövlətin İƏT-ə üzv olmasıdır.

Əvvəlki dövrlərdə olduğu kimi, hazırda da Azərbaycanla İİB arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin ötən il fevralın 26-da ölkəmizdə səfərdə olan İİB qrupunun prezidenti Məhəmməd Süleyman Əl-Casiri qəbul edərək Azərbaycanla bu maliyyə qurumu arasında reallaşdırılan uğurlu və səmərəli əməkdaşlığı yüksək qiymətləndirib. Ölkəmizin həyata keçirdiyi layihələrə bankın verdiyi dəstəyə görə minnətdarlığını bildirən dövlətimizin başçısı həm regional səviyyədə inkişaf prosesləri, həm də artıq ölkəmizdə icra olunmağa başlanan "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" baxımından əməkdaşlığın gələcək formatının müəyyənləşdirilməsinin zəruriliyini vurğulayıb.

İİB-nin Azərbaycanın bu təşkilata üzvlüyündən qürur duyduğunu və ölkəmizin həmişə fəal iştirakçı olmaqla bu qurumun fəaliyyətinə böyük töhfə verdiyin bildirən Məhəmməd Süleyman Əl-Casir həyata keçirilən birgə layihələrin respublikamızda iqtisadiyyatın, o cümlədən infrastrukturun inkişafı baxımından önəmini qeyd edib.

***Vaqif BAYRAMOV***
***XQ***

# Mülki aviasiya – şəbəkə genişlənir, xidmət yüksəlir

**Dünən Bakıda Avropa Mülki Aviasiya Konfransı və Avropa–Qafqaz–Asiya Nəqliyyat Dəhlizi (TRASECA) Proqramının Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin təşkilatçılığı ilə "Aviasiyanın təhlükəsizliyi və risklərin qiymətləndirilməsi" mövzusunda seminar keçirilib. Aviasiya təhlükəsizliyi məsələlərinin müzakirə olunduğu tədbirdə Azərbaycanla yanaşı, Gürcüstan, Moldova, Rumıniya, İran, Bolqarıstan, Ukrayna, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkiyənin mülki aviasiya mütəxəssisləri iştirak ediblər.**



Seminarda hava limanlarının və təyyarələrin kiberhücumlardan müdafiə olunması, yeni texnologiyaların tətbiqi və digər məsələlər barəsində müzakirə və fikir mübadiləsi aparılıb. Bununla yanaşı, uçuş zamanı sərnişin və yük təyyarələrinin qorunması məsələsi də müzakirə edilib.

TRASECA Proqramının Hökumətlərarası Komissiyasının Daimi Katibliyində Azərbaycanın təmsilçisi Rüfət Bayramov deyib ki, ölkəmizdə aviasiyanın təhlükəsizliyi yeni texnologiyaların tətbiqi ilə yüksək səviyyədə təmin edilir. Onun sözlərinə görə, hazırda Azərbaycanda fəaliyyət göstərən mövcud hava limanları ilə yanaşı, işğaldan azad olunmuş Qarabağ bölgəsində də 3 hava limanı inşa edilib. "Onlardan 2-si artıq fəaliyyət göstərir, birinin tikintisi isə davam edir. Bu hava limanları Azərbaycanın aviasiya vasitəsilə yük və sərnişindaşıma, eləcə də, tranzit potensialını artırıb ki, bu səbəbdən də onların təhlükəsizliyinin təmin olunması aktual xarakter daşıyır. Bununla əlaqədar olaraq yeni radar müşahidə sistemləri və yeni texnologiyaların imkan verdiyi digər vasitələrlə təhlükəsizlik tədbirləri həyata keçirilir", – deyə o əlavə edib.

Qeyd edək ki, Azərbaycan 2002- ci il noyabrın 27-də Parisdə keçirilən Avropa Mülki Aviasiya Konfransı Təşkilatının (AMAKT) XXVI plenar sessiyası zamanı bu beynəlxalq quruma üzv qəbul olunub. Ona qədər isə Avropa Mülki Aviasiya Konfransı Təşkilatının ekspertlər qrupu dəfələrlə Azərbaycanda səfərdə olarkən ölkəmizin mülki aviasiyasının inkişaf səviyyəsinin quruma üzv qəbulunu nizamlayan bütün əsas normalara tam uyğun olduğunu müəyyən etsə də, bədxah qonşumuz Ermənistanın apardığı siyasətin nəticəsində bu məsələ hər dəfə təxirə salınıb. Nəhayət, "Azərbaycan Hava Yolları" Dövlət Konserni (indiki "Azərbaycan Hava Yolları" QSC) rəhbərliyinin uğurlu işi sayəsində Ermənistan öz etirazını geri götürdükdən sonra məsələ müsbət həllini tapıb.

Bu yaxınlarda isə Azərbaycan Mülki Aviasiyası üçün əlamətdar hadisə baş verib. Belə ki, aprelin 19-da Heydər Əliyev Beynəlxalq Aeroportu hava limanları operatorlarının yeganə qlobal təşkilatı olan Avropa Beynəlxalq Hava Limanları Şurasının (Airports Council International, ACI Europe) sıralarına qoşulub. Bununla yanaşı, Azərbaycanın digər aeroportu Gəncə Beynəlxalq Hava Limanı da şuraya üzv seçilib.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Samir Rzayev deyib ki, Avropa Beynəlxalq Hava Limanları Şurasına qoşulmaq ölkəmiz üçün yeni üfüqlər açan əlamətdar hadisə olmaqla yanaşı, inkişaf və təkmilləşmə istiqamətində də mühüm addımdır. Onun sözlərinə görə, bu, "Azərbaycan Hava Yolları" QSC-nin xidmət keyfiyyətini daha da yaxşılaşdırmaq, qabaqcıl təcrübələri tətbiq etmək və qlobal aviasiya arenasında qurumun mövqeyini gücləndirmək imkanı verəcək.

Yeri gəlmişkən, ACI Europe qabaqcıl təcrübələrin bölüşdürülməsində, konfransların və sərgilərin təşkilində, hava limanlarında innovasiyaların və texnoloji yeniliklərin təşviqində mühüm rol oynayır. Azərbaycan aeroportlarının Avropa Beynəlxalq Hava Limanları Şurasına qoşulması dünya hava limanları ilə fəal əməkdaşlıq üçün unikal imkanlar açmaqla yanaşı, qlobal aviasiya siyasətinin və qanunvericiliyin inkişafına töhfə verir. Həmçinin, Bakı və Gəncə hava limanlarının təkmilləşdirilməsi, ötürmə qabiliyyətinin artırılması, menecerlərin peşəkar akkreditasiyası və müştərilərə xidmət üzrə akkreditasiya proqramlarında iştirak hüququ əldə edəcəklər.

Xatırladaq ki, dünyanın 1925 aeroportunun kollektiv mövqeyini təmsil edən ACI Europe Beynəlxalq Mülki Aviasiya Təşkilatı, Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası, Mülki Hava Naviqasiya Xidmətləri Təşkilatı, Avropa Hava Naviqasiyasının Təhlükəsizliyi Təşkilatı və aviasiya sənayesinin digər əsas oyunçuları ilə də əməkdaşlıq edir.

Bütövlükdə isə, son 20 il ərzində Azərbaycanda aviadaşımalar qabaqcıl texnologiyaların və tərəqqinin simvoluna çevrilərək əhəmiyyətli dərəcədə inkişaf edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkənin mülki aviasiyası mühüm transformasiyalardan keçərək müasir, dinamik və perspektivli sənaye sahəsinə çevrilib. Belə ki, 2003-cü ildən etibarən dövlət başçısının rəhbərliyi altında ölkəmizdə bu sahə intensiv inkişafın yeni mərhələsinə qədəm qoyub.

Ötən müddətdə ölkənin təyyarə parkı yenilənib, marşrut şəbəkəsi genişləndirilib. Təkcə onu qeyd etmək kifayətdir ki, 2005-2015-ci illər ərzində "Azərbaycan Hava Yolları" QSC (AZAL) öz təyyarə parkına "Airbus A319", "Boeing 767-300ER", "Airbus A340-500", "Embraer 190", "Embraer 170" və "Boeing 787-8 Dreamliner" kimi yeni təyyarə modellərini daxil edib. Ötən ilin əvvəlində isə 3 ədəd yeni "Airbus A320neo" təyyarəsi ilə uçuşların həyata keçirilməsinə başlanılıb. Bununla yanaşı, AZAL "Airbus" və "Boeing" şirkətləri ilə daha 20 hava gəmisinin – 12 ədəd "Airbus A320neo" və 8 ədəd "Boeing 787" təyyarələrinin tədarükünə dair müqavilələr imzalayıb. Yeni təyyarələrin mərhələli şəkildə istismara verilməsi planlaşdırılır. Eyni zamanda, "GetJet Airlines" şirkəti ilə təyyarələrin lizinqinə dair yeni əməkdaşlıq nəticəsində AZAL-ın parkı 3 ədəd "Airbus A320" hava gəmisi ilə genişləndirilib.

Eyni zamanda, ötən 20 il ərzində Naxçıvan, Lənkəran və Zaqatala hava limanlarına beynəlxalq status verilib. Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksinin və Qəbələ aeroportunun istifadəyə verilməsi ilə yanaşı, Gəncə Beynəlxalq Hava Limanı da əsaslı təmir olunub.

Qarabağda quruculuq işləri çərçivəsində ən zəruri infrastrukturun yaradılması ilə bağlı dövlət başçısının müvafiq tapşırıqlarına əsasən, 2021-ci ildə Qarabağın hava qapısı sayılan Füzuli Beynəlxalq Hava Limanı rekord müddətdə – cəmi 8 aya tikilib istifadəyə verilib. Bundan əlavə, 2022-ci ilin oktyabr ayında Zəngilan Beynəlxalq Hava Limanının istismara buraxılıb. 2021-ci ildə inşasına başlanmış Laçın Beynəlxalq Hava Limanında isə işlər davam edir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Qarabağda 85,7 min sahibkar fəaliyyət göstərir

**Bu ilin birinci rübündə Qarabağ iqtisadi rayonunda ötən ilin eyni dövrü ilə müqayisədə mikro sahibkarlıq subyektlərinin sayı 2,2 faiz artaraq 3715 olub.**



Bu barədə "XQ"yə Dövlət Statistika Komitəsindən bildirilib. Məlumata görə, hesabat dövründə iqtisadi rayon üzrə kiçik sahibkarlıq subyektlərinin sayı 1,8 faiz artaraq 179, orta sahibkarlıq subyektlərinin sayı 1,9 faiz artaraq 70, iri sahibkarlıq subyektlərinin sayı 0,8 faiz artaraq 6, fərdi sahibkarların sayı isə 6,4 faiz artaraq 85723 təşkil edib.

Yanvar-mart aylarında Şərqi Zəngəzur iqtisadi rayonunda kiçik sahibkarlıq subyektlərinin ayı 0,5 faiz artaraq 48-ə, orta sahibkarlıq subyektlərinin sayı 0,4 faiz artaraq 15-ə, iri sahibkarlıq subyektlərinin sayı 0,2 faiz artaraq 2-ə, fərdi sahibkarların sayı isə 0,4 artaraq 5081 olub.

## Kəlbəcərdə yeni 4 SES

**"AzərEnerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən "yaşıl enerji"yə keçidin sürətləndirilməsi, atmosferə atılan karbon qazının miqdarının azaldılması, təbii qaza qənaət edilməsi, ekoloji cəhətdən təmiz enerji istehsalına nail olunması istiqmətində kompleks tədbirlər həyata keçirilir.**



Qurum hazırda Kəlbəcər rayonunun ərazisində 4 su elektrik stansiyasının tikintisini davam etdirir. "AzərEnerji"dən aldığımız məlumata görə, 4,3 meqavat gücündə "Zar", 8,8 meqavat gücündə "Nadirxanlı", 8,6 meqavat gücündə "Aşağı Vəng" və 22,5 meqavat gücündə "Yuxarı Vəng" su elektrik stansiyalarının bu il ərzində istismara verilməsi planlaşdırılır.

Qeyd edək ki, 2020-2023-cü illər ərzində Kəlbəcər rayonunda "AzərEnerji" tərəfindən ümumi gücü 32 meqavat olan "Kəlbəcər-1", "Meydan", "Qamışlı", "Çıraq-1", "Çıraq-2" və "Soyuqbulaq" kiçik su elektrik stansiyaları yenidən qurularaq ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə istismara verilib. Məskunlaşma siyasətinə uyğun olaraq 20-dən artıq kəlbəcərli həmin stansiyalarda daimi işlə təmin olunub. Ötən müddətdə bu stansiyalarda 70 milyon kilovat-saata yaxın ekoloji cəhətdən təmiz enerji istehsal edilib.

## Kredit təşkilatları –33 milyon manat mənfəət

**Azərbaycandakı bank olmayan kredit təşkilatları (BOKT) cari ilin ilk rübünü 32,9 milyon manat xalis mənfəətlə başa vurub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,8 dəfə çoxdur.**



Azərbaycan Mərkəzi Bankının məlumatına görə, yanvar-mart aylarında BOKT-ların gəlirləri 78,8 milyon manat (illik müqayisədə 2,1 dəfə çox), xərcləri 36,9 milyon manat (57 faiz çox), xüsusi ehtiyatlara ayırmaları 1,9 milyon manat (dəyişməyib), mənfəət vergisi ödəmələri isə 7,1 milyon manat (7,9 dəfə çox) təşkil edib.

Beləliklə, bu il aprelin 1-nə BOKT-ların vəsaitləri 823,3 milyon manata çatıb ki, bu da əvvəlki ilə nisbətən 50,9 faiz çoxdur. Həmin vəsaitin 585,2 milyon manatı müştərilərə verilmiş xalis kreditlərdir. Son 1 ildə isə sözügedən sektorun kredit portfeli 38,5 faiz böyüyüb.

## Azad edilən ərazilərdə ət istehsalı çoxalıb

**Azərbaycanın işğaldan azad olunmuş ərazilərində heyvandarlığın dirçəldilməsi istiqamətində həyata keçirilən tədbirlər müsbət nəticələr verir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar–mart ayları ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında quş əti də daxil olmaqla diri çəkidə 4 min 867 ton ət və 34 min 52 ton süd istehsal edilib.**

2023-cü ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 6 faiz və ya 271 ton artsa da, süd istehsalında 1,3 faiz və ya 460 ton azalma qeydə alınıb. Xatırladaq ki, ötən ilin birinci rübündə işğaldan azad edilmiş rayonlarda quş əti də daxil olmaqla diri çəkidə 4 min 596 ton ət və 34 min 512 ton süd istehsal olunub. Ümumilikdə, 2023-cü ildə bölgədə quş əti də daxil olmaqla diri çəkidə 22 min 570 ton ət və 136 min 678 ton süd istehsal edilib.

Cari ilin ilk rübündə ət və süd istehsalına görə Ağdam rayonu birinci yerdə qərarlaşıb. Belə ki, hesabat dövründə burada 1192 ton ət və 10 min 859 ton süd istehsal olunub.

**XQ**

# XİN rəhbərlərinin Qazaxıstan görüşü – müsbət dinamikanın davamı

## *Bayramov–Mirzoyan perspektiv təması baxımından vurğulanmalı bəzi məqamlar*

**“Qazaxıstan tərəfi Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin Qazaxıstanda görüşünün təşkili ilə bağlı bizə müraciət edib. Biz buna razılığımızı vermişik və Ermənistan da buna razı olsa, iki ölkənin xarici işlər nazirlərinin növbəti görüşü Qazaxıstanda baş tuta bilər”. Prezident İlham Əliyev bu fikirləri aprelin 23-də ADA Universitetində keçirilmiş “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusundakı beynəlxalq forumda bildirmişdi. Artıq Ermənistan tərəfi sözügedən görüşlə bağlı razılığını verib. Bu barədə ölkənin Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan bildirib.**



Nəzərəçarpacaq fasilədən sonra Azərbaycanın və Ermənistanın XİN rəhbərləri Ceyhun Bayramovla Ararat Mirzoyanın bir araya gəlmələri əlamətdar haldır. Böyük ehtimalla, görüş baş tutacaq, mövcud istiqamətdə hansısa maneə olmayacaq. Qazaxıstanın isə təmas üçün təklif səsləndirməsi təqdirəlayiqdir. Ancaq bu təmas heç bir halda vasitəçilik statusu daşımır. Mövcud reallıq Prezident İlham Əliyev tərəfindən də haqqında söz açdığımız mötəbər toplantıda dilə gətirilmişdi: “Beləliklə, biz yalnız platforma, məkan barədə danışırıq. Belə bir təklif üçün Qazaxıstan hökumətinə də minnətdarıq”.

Dövlətimizin başçısının fikirləri o deməkdir ki, Azərbaycan və Ermənistan arasında vasitəçilik dövrü artıq arxada qalıb. Əslində, cənab İlham Əliyevin şəxsində rəsmi Bakı birbaşa danışıqlar təklifini çoxdan irəli sürmüşdü. Lakin zaman-zaman İrəvan bu təklifdən uzaq dayanmışdı. Ermənistan rəhbərliyinin arqumentlərindən belə nəticə hasil olmuşdu ki, Azərbaycan, guya, danışıqlarda əldə olunacaq istənilən razılaşmanı pozmaq potensialındadır və bunun baş verməməsi üçün beynəlxalq təminat mütləqdir.

Aydındır ki, belə yanaşma manipulyativ səciyyə daşıyırdı, reallıqlardan uzaqlaşmaq mahiyyəti güdürdü. Zaman da göstərdi ki, Ermənistanın spekulyativ dəst-xətti heç bir nəticə vermədi. Görünür, İrəvanda bunu dərk edirlər. Eyni zamanda, bildirməliyik ki, hazırda iki Cənubi Qafqaz ölkəsi arasındakı müsbət dinamika birbaşa danışıqlar müstəvisində əldə olunub. Ona görə də XİN rəhbərlərinin Qazaxıstanda bir araya gəlmələri mövcud pozitivlik tendensiyasının dərinləşməsi baxımından vacibdir. Belə düşünmək üçün əsas Azərbaycan Prezidentinin “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusundakı beynəlxalq forumda bildirdikləridir: “Burada bir məqama aydınlıq gətirmək istərdim. Söhbət hər hansı vasitəçilikdən getmir. Çünki bu gün sərhədimizdə baş verənlər onu nümayiş etdirir ki, bizimlə heç kəsin işi olmadığı, bu vəziyyətin kiminsə siyasi ambisiyaları naminə istifadə edilmədiyi halda biz gec-tez razılığa gələ bilərik”.

Bəli, ötən müddət göstərir ki, regiondan kənar “oyunçular” səmimi davranmayıb Azərbaycanla Ermənistan arasındakı sülh prosesinə zərər vurublar. Onlar ümumən regionu özlərinin geosiyasi rəqabət pəncərəsindən görüblər. Bu məqam, bir qədər fərqli və deyərdik ki, obrazlı formada dövlətimizin başçısı tərəfindən də dilə gətirilib: “Mən, sadəcə olaraq, buna aydınlıq gətirmək istədim ki, bəzən buradan uzaqda yerləşənlər ermənilərdən daha çox erməni kimi davranmaq, bizim siyasətimizi və addımlarımızı yanlış təqdim etmək istəyəndə bizim siyasətimiz və mövqeyimiz yalnız praqmatizmə əsaslanır”.

Deməli, Ermənistan rəhbərliyi nəticə çıxarmalı, Azərbaycanın praqmatizminə etimad göstərməli, özü də rasional düşünməlidir. Nəzərə alaq ki, sülh prosesi çoxqütblüdür. Əlbəttə, delimitasiya məsələlərinin həlli uzun zaman ala bilər ki, bu da müəyyən mənada təbiidir. Azərbaycan Prezidenti heç də əbəs yerə otuz ildən artıq müddətdə dost Gürcüstanla sərhədlərin delimitasiyasının hələ də tam şəkildə başa çatmadığına dair fikirləri səsləndirmir. Yəni, əsas olan niyyətdir. Hesab edirik ki, XİN rəhbərlərinin Qazaxıstanda nəzərdə tutulmuş görüşü xoş niyyətin və məramın ifadəsi baxımından yaddaqalan ola bilər. Nəzərə alaq ki, bunu demək üçün əsaslardan ən böyüyü sərhədlərin delimitasiyası ilə əlaqədar işlərin real praktik müstəviyə qədəm qoymasıdır.

Əlbəttə, Azərbaycan Prezidenti “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusundakı beynəlxalq forumda Ermənistanla münasibətlər baxımından bir çox mətləbləri dilə gətirmişdi. İlk növbədə dövlətimizin başçısının Bakı ilə İrəvanın sülh razılaşmasına yaxınlığını diqqətə çatdırmasının üzərində dayanaq. İşğal dövründə və ondan sonra tərəflərin fəaliyyətindəki ayrı-ayrı cəhətlərdən söz açan Azərbaycanın lideri əlamətdar məqam kimi hazırda sülh razılaşmasının necə olacağına dair ümumi anlayışın mövcudluğunu vurğulamasıdır: “Biz, sadəcə, təfərrüatlar üzərində çalışmalıyıq. Lakin, əlbəttə ki, hər iki tərəfə vaxt lazımdır, çünki sülh müqaviləsi imzalandığı təqdirdə, bu, hər iki ölkə üçün tarixi razılaşma olacaqdır. Buna görə hər bir söz, hər bir nöqtə, hər bir paraqraf vacibdir. Lakin vacib olan odur ki, hər iki tərəfin bunu etmək üçün siyasi iradəsi var”.

Ümid edək ki, XİN rəhbərlərinin Qazaxıstan görüşü Prezident İlham Əliyevin haqqında söz açdığı siyasi iradənin nümayişinin yeni pozitiv çalarlarının formalaşması ilə yaddaqalan olacaq. Bir daha bildirək ki, bunu vurğulamaq üçün əsaslar yetərincədir. Ən başlıca əsas isə cənab İlham Əliyevin də vurğuladığı kimi, sərhəd delimitasiyası məsələsində Azərbaycanın və Ermənistanın olduqca konstruktiv davranış nümayiş etdirmələridir. Deməli, konstruktiv meyillərin güclənməsi şərtdir. Bu baxımdan XİN rəhbərlərinin Qazaxıstan görüşünə ümid var.

Təbii ki, Azərbaycan və Ermənistan arasında hazırkı pozitiv təsir bağışlayan danışıqlar trayektoriyası həlli çətin kimi görünən məsələlərə münasibətdəki müsbət dinamika üçün də yol aça bilər. Bu baxımdan “Zəngəzur dəhlizi”nin üzərində dayanmağa ehtiyac var. Prezident İlham Əliyev də sözügedən forumda məsələyə toxundu. Daha doğrusu, dövlətimizin başçısına ünvanlanmış çoxsaylı suallar istər-istəməz mövzuya yer verilməsini şərtləndirdi. Belə görünür, dünya ictimaiyyəti də “Zəngəzur dəhlizi” ideyasının regional və qlobal mahiyyətindən yaxşı xəbərdardır.

Bəli, Ermənistan “Zəngəzur dəhlizi” təşəbbüsünə pozitiv yanaşmalıdır. Rəsmi İrəvan nəzərə almalıdır ki, Azərbaycanla sülh prosesinin tam səmimi və uzunmüddətli perspektivə söykənməsi baxımından bu məsələ son dərəcə vacbdir. Həm ona görə vacibdir ki, dəhliz ideyası Ermənistanın özü üçün də faydalıdır.

Həmçinin Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən quru yolunun mövcudluğuna dair müddəa Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatında da əksini tapmış reallıqdır. Prezident İlham Əliyev COP29-la bağlı toplantıda bu məqama, özü də kifayət qədər əhatəli formada yer ayırdı. Nəzərə alaq ki, dövlətimizin başçısının mövqeyi Ermənistana reallıqları görmək üçün şans verir: “İndi Ermənistan 3 ildən artıqdır ki, bu müddəanı faktiki olaraq pozur və yenə də deyirəm, onlar bunu özləri imzalayıblar. İndi onlar bu paraqrafdan, necə deyərlər, canlarını qurtarmaq istəyirlər. Lakin bu, mümkün deyil. Onlar nə edirlər? Onlar, sadəcə olaraq, Naxçıvan Muxtar Respublikası ilə quru yolu əlaqəsini qurmaq imkanını bloklayırlar. Bu davranış sözsüz ki, çox məyusedicidir. Üçtərəfli bəyanatın necə imzalanması ayrı söhbətin mövzusudur. Şəraitin necə olduğunu da hər kəs bilir. Amma Ermənistan baş nazirinin imzası var idi və buna hörmət edilməlidir”.

Deməli, yaxşı olar ki, Prezident İlham Əliyevin qaldırdığı xüsus da XİN rəhbərlərini qarşıdakı təması üçün konkret diskussiya predmetinə çevrilsin. Vurğuladıq ki, “Zəngəzur dəhlizi” məsələsi Ermənistan üçün də faydalıdır. Nəhayət, Azərbaycan hər bir halda məsələni həll edir. Söhbət İranla Naxçıvana yol məsələsində əldə edilmiş razılaşmadan gedir. Dövlətimizin başçısı forumda həmin razılaşmanın ayrı-ayrı detallarından söz açdı və hadisələrin rəsmi İrəvanın, belə demək mümkünsə, inad ssenarisinə uyğun gedəcəyi təqdirdə, nələrin olacağının anonsunu verdi: “Sonda nə olacaq? Ermənistan uduzacaq. Onlar qovşaq olmaq istəyirlər, onu “sülh qovşağı” adlandırırlar. Amma sülh qovşağına çevrilmək üçün, ilk növbədə, onlar bizimlə razılaşmalıdırlar. Çünki əgər Azərbaycan buna razılıq verməsə, bu, sadəcə, bir kağız parçası və ya bəyanat olacaq. Bizimlə razılaşma olmadan bu, tamamilə faydasızdır. Əfsuslar olsun ki, onlar bunu regiondan çox uzaqda yerləşən müxtəlif ölkələrlə müzakirə etməyə çalışırlar. İşə gələndə isə bunu bizimlə müzakirə etmək istəmirlər. Bizim mövqeyimiz çox aydındır. Üçtərəfli bəyanata hörmət edilməlidir”.

Azərbaycanın lideri “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forumdakı çıxışında Ermənistanın tranzit ölkəyə çevrilib yaxşı gəlir əldə etmək imkanlarını itirə biləcəyindən də söz açdı. Əslində, rəsmi İrəvan üçün rasionallığın və praqmatik yanaşma nümayişinin əhəmiyyətindən danışarkən, ölkənin bu itkidən qaçmağının zəruriliyi vurğulanmalıdır. Deməli, Ermənistan rəhbərliyi XİN başçılarının Qazaxıstan görüşü öncəsi məsələni götür-qoy etməli, ətraflı düşünməli, hazırkı pozitiv ab-havanın gətirdiyi dinamikaya uyğun davranmalıdır. Yuxarıda da diqqətə çatdırdığımız kimi, bu, həm də onun üçün şansdır. Yəni, Azərbaycanla səmimi münasibətlər Ermənistanın müstəqil, heç bir kənar oyunçulardan asılı olmayan gələcəyinə təminatdır.

**Ə.CAHANGİROĞLU**
**XQ**

XQ-nin qonaqları

# Nobelçi soydaşımız “Xalq qəzeti”ndə



(əvvəli 1-ci səhifədə)

Nobel sülh mükafatçısı görüşdən məmnunluğunu ifadə edərək bildirdi ki, hələ Bakıda orta və ali təhsil aldığı və çalışdığı illərdən “Xalq qəzeti”nin oxucusu olub. Qəzetdə Azərbaycanı ölkədən kənarda tanıdan görkəmli adamlar barədə verilən yazıları xüsusi maraqla oxuyub. Azərbaycan naminə dünyada əks-səda verən fəaliyyətlə məşğul olmaq arzusu da onda həmin dövrdə yaranıb. Aldığı ali mükafat isə onu şəxsi uğurundan daha çox, Vətəni ilə bağlı önəmli bir ilk olduğuna görə sevindirib.




Görüşdə Bəxtiyar Siracovun mənalı və şərəfli ömür yoluna ətraflı nəzər salındı. Dünyada sülh prosesinə layiqli töhfə vermiş bir alimin 30 il xalqımızla birgə Qarabağ münaqişə və müharibəsinin ağrısını yaşaması hamını bir daha təsirləndirdi. Bu zaman ona belə bir sual verildi: “Qarabağda separatçılığı və terrorçuluğu aşkar dəstəkləmiş fırıldaqçı iş adamı Ruben Vardanyanın Nobel sülh mükafatına təqdim edilməsi nə deməkdir”. Beynəlxalq sülh mükafatçısının cavabı qısa və qeyri-siyasi oldu: “Nobel sülh mükafatının verilməsində insan qanı axıdılması ilə bağlı heç bir anlayış yoxdur. Bu mükafat sülhün qorunmasına, müharibə və savaşların qarşısının alınmasına xüsusi xidmətə görə verilir.

Uzun illər Azərbaycandan kənarda yaşasa da, həmişə xalqımızın sevincini və kədərini onunla bərabər paylaşan Bəxtiyar müəllim ömrünün fəxri istirahət mərhələsini də Vətən naminə dəyərli işlərə həsr etmək yolu şeçib. O, dünyada yaşayıb fəaliyyət göstərən alim soydaşlarımızın elmi qurumunun yaradılması təşəbbüsünü gerçəkləşdirən tanınmışlarımızdan biridir. Diaspor hərəkatını Azərbaycan dəyərlərini dünyada yaymaq istiqamətində fəallaşdırmaq üçün də soydaşımız maraqlı layihələrlə çıxış edir. Gənclərin elmi işə yüksək amal və yeni hədəflərlə qoşulmasını təşviq etmək də Bəxtiyar Siracovun qarşısına qoyduğu növbəti ictimai vəzifələrdəndir.

Görüşdə dünya şöhrətli alimimizlə sıx əməkdaşlıq etmək, onun elmi və vətənpərvərlik layihələrinə informasiya dəstəyi verməklə bağlı razılıq da əldə edildi. Xalqımızın misilsiz yurd sevgisi, yüksək elmi dühası, qurub-yaratmaq istedadı, öyünclü keçmişi söhbətlərin ana xətti oldu. Bütün bu dəyərlərə sadiqliyinə görə qonağımıza kollektivimizin sevgi-sayğısı sərgiləndi.

Görüşdə toxunulan məsələlər, səslənən suallarla bağlı ayrıca müsahibə qəzetimizin növbəti saylarından birində dərc ediləcək.

**Tahir AYDINOĞLU**
**XQ**

# Naxçıvanda QHT nümayəndələri ilə görüş

**Aprelin 29-da Naxçıvan şəhərində Azərbaycan Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə Qeyri-Hökumət Təşkilatlarının “IV İnkişaf və Mübadilə Proqramı”na başlanılıb.**




Proqramda iştirak edəcək heyətlə görüşdə Prezident Administrasiyasının Qeyri-Hökumət Təşkilatları ilə iş sektorunun müdiri Tural Əliyev, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təmsilçisi Günay Malikqızı, Naxçıvan Muxtar Respublikasının ədliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Hüseyn Səfərov və digər rəsmi şəxslər iştirak ediblər.

Tədbirdə Qeyri-Hökumət Təşkilatlarının cəmiyyətdə layiqli yer tutması, onların müsbət təşəbbüslərinin dəstəklənməsi ilə bağlı Azərbaycan dövləti tərəfindən aparılan işlərin mahiyyəti, fəlsəfəsi izah olunub, iştirakçıların sualları cavablandırılıb, təklifləri dinlənilib. Həmçinin Qeyri-Hökumət Təşkilatı nümayəndələrinin bilik və bacarıqlarının önəminə toxunulub, onlara mübadilə proqramında uğurlar arzulanıb.

Günün ikinci yarısında isə iştirakçılara “Layihələrin məqsəd və vəzifələrinin müəyyən edilməsi”, “Layihə tərəfdaşlarının, hədəf qrupları və benefisiarlarının təyin edilməsi və onların gözləntiləri”, “Layihənin məqsəd və vəzifələri” və digər mövzularda təlimlər keçirilib, praktiki qrup işləri təşkil olunub.

Qeyd edək ki, iki gün davam edəcək təlim proqramlarında muxtar respublikada fəaliyyət göstərən 50-yə yaxın Qeyri-Hökumət Təşkilatı nümayəndəsi iştirak edir və yekunda uğurlu nəticə göstərən iştirakçılara agentliyin sertifikatları təqdim olunacaq.

**Səbuhi HƏSƏNOV**

# “Ən yaxşı snayper”



**Bu il üçün hazırlıq planına əsasən, Azərbaycan Ordusunda “Ən yaxşı snayper” adı uğrunda yarış keçirilib.**

Hərbi qulluqçular müxtəlif mərhələlərdə “Rahat olmayan vəziyyətdən atış”, “Snayper müdafiədə”, “Snayper hücumda”, "Snayper estafeti” və digər mövzular üzrə tapşırıqları yerinə yetiriblər.

Yarışın keçirilməsinin əsas məqsədi hərbi qulluqçuların hazırlıq səviyyəsinin yoxlanılması və Azərbaycan Ordusunda ən yaxşı snayperin müəyyən olunmasıdır.

Dövlət Mükafatına namizədlər

# Türkoloji dilçiliyə dəyərli töhfə

**(Mahirə Hüseynova. “Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası” kitabı. Bakı, 2020-ci il)**




Qədim və ortaq kökdən qaynaqlanan türk dillərinin dialekt və şivələrinin qarşılıqlı inteqrasiya məsələləri bu günədək türkologiyada, demək olar ki, əsaslı və fundamental şəkildə araşdırma obyektinə çevrilməmişdir. Bu sahədə yeni araşdırmaların zəruriliyi ilə yanaşı, bəzi problemli məsələlər də öz həllini gözləməkdədir.

Ümumtürk dillərinin dialekt və şivələrinin hər biri ayrı-ayrılıqda öz ilkinliyinə, miqyasına, tarixi-linqvistik faktlarına görə olduqca zəngindir. Bu dillərin dialektlərində fonetik, leksik, qrammatik xüsusiyyətlərin hərtərəfli araşdırılması türkologiyanın ən aktual vəzifələrindən biridir. Filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın “Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası” kitabı bu baxımdan xüsusi maraq və dəyər kəsb edir. Müəllif Azərbaycan dilçiliyi tarixində ilk dəfə olaraq, 20-ci əsrin ikinci yarısından başlayaraq dövrümüzə qədər aparılmış tədqiqatları çox diqqətlə nəzərdən keçirib və müqayisəli şəkildə, ardıcıllıqla araşdırmaya cəlb edib.

Monoqrafiyanın “Azərbaycan dilçiliyində ümumtürk dilləri dialekt və şivələrinin müqayisəli aspektdə tədqiqi məsələləri” adlı I fəslində dilçiliyimizdə ümumtürk dilləri dialekt və şivələrinin müqayisəli yöndə tədqiqi məsələlərindən bəhs edən Mahirə xanım XX əsrin 50-ci illərindən türk dillərinin dialekt və şivələrində burun samitlərinin mövcudluğunu ilk dəfə akademik Məmmədağa Şirəliyevin müşahidə etdiyini yazıb. Əsərdə akademik Ağamusa Axundovun tədqiqatlarına da xüsusi diqqət yetirilib.

M.Hüseynova Azərbaycanın, o cümlədən, ümumtürk dillərinin dialekt və şivələrinin tədqiqində akademik Tofiq Hacıyevində xüsusi xidmətləri olduğunu vurğulayıb, onun “Cəbrayıl şivəsi” monoqrafiyası önəmindən söz açıb. Ümumtürk dilləri dialekt və şivələrinin tədqiqi tarixində görkəmli türkoloq Fərhad Zeynalovun da müstəsna xidmətlərini nəzərə çatdıran müəllif bildirib ki, dilçi professor “Türkologiyanın əsasları” əsərində ümumtürk dilləri dialekt və şivələrinin əmələ gəlməsi, inkişafı, təsnifi, tədqiqi və onları səciyyələndirən leksik, fonetik, qrammatik əlamətlər barədə məlumat verib.

Ümumtürk dilləri dialekt və şivələrinin müqayisəli təhlili professor Həsən Mirzəyevin də yaradıcılığında xüsusi yer tutub. Onun uzun illər apardığı araşdırmalar nəticəsində Qərbi Azərbaycanın Dərələyəz mahalının toponimləri və dialektləri geniş tədqiq edilib. Alim dialekt və şivələrimizi, xalqımızın dil tarixi, dilimizin arxaik leksik qatını, eləcə də dilçiliyimizin qohum türk dilləri ilə əlaqəsini ətraflı araşdırılaraq monoqrafiya şəklində nəşr etdirib. Görkəmli dilçi Dərələyəz mahalına aid olan şivə sözlərini əhatə edən, onların mənalarının dəqiq izahını verən bir lüğət ərsəyə gətirib. M.Hüseynovanın tədqiqatında professor Elbrus Əzizovun bu sahəyə aid silsilə məqalə, monoqrafiya və dərs vəsaiti yazdığını qeyd edərək bildirib ki, onun “Azərbaycan dilinin tarixinin leksikologiyası” adlı dərsliyi xüsusi əhəmiyyət kəsb edir.

Müəllif əsərində dialektoloq Bayram Əhmədovun tədqiqatlarına da xüsusi yer verib. B.Əhmədov “Azərbaycan dili söz yaradıcılığında sadələşmə meyli” adlı dərs vəsaitində şivə sözlərinin tarixi-etimoloji təhlilini verib. Alim Azərbaycan dili ilə bərabər, türk, qaraçay-balkan, kumuk, karaim, Krım tatarları, noqay, başqırd, altay, tatar, çuvaş və sair türkcələrin ədəbi dil və ya dialekt materiallarına da müraciət edib, olduqca əhəmiyyətli mənbələrdən istifadə edərək qənaətlərini əsaslandırıb.

Monoqrafiyada professor İsmayıl Kazımovun, Məhərrəm Məmmədlinin, Hüseyn Əsgərovun, Əzizxan Tanrıverdiyevin, Buludxan Xəlilovun, Kamil Bəşirovun yaradıcılığında ümumtürk dialekt və şivələrinin müqayisəli təhlili, həmçinin, qarşılıqlı inteqrasiya məsələlərindən bəhs edilir, məqalə və əsərləri təhlil olunur. M.Hüseynova “Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri”, “Naxçıvanın dialekt və şivələri” əsərlərinin də təhlilini verib, ümumtürk dilləri dialekt və şivələrinin müqayisəli aspektdə tədqiqində dialektoloji lüğətlərin elmi əhəmiyyətini əsaslı nümunələrlə şərh edib. Müəllif ümumtürk dillərində bəzi yemək adlarının tarixi-etimoloji təhlilini də aparıb.

“Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası” adlı II fəsildə mövzunu təhlil süzgəcindən keçirən M.Hüseynova III fəsildə (“Türkcələrin dialekt bölünməsi”) ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyasını Azərbaycan, türk, qırğız, qumuq, yakut, kaşğar, özbək, karaim, şor, tuva, türkmən, qaqauz, çuvaş və s. türk dillərin dialekt və şivələri əsasında əhatəli olaraq daha dərindən araşdırıb, sonrakı fəsillərdə uyğunlaşdırılmış sözlərin fonetik, morfoloji xüsusiyyətlərini müqayisəli şəkildə tədqiq edib, leksik-semantik yöndə izahlar verib.

Ümumtürk leksik bazası əsasında müxtəlif peşələrlə bağlı leksik vahidləri, tayfa, nəsil adlarını, qohumluq münasibətini bildirən sözləri, təsərrüfat, atçılıq terminlərini və onların ümumtürk dillərinin dialektlərinə qarşılıqlı inteqrasiyasını, həmçinin toy mərasimi leksikası və onların ümumtürk dillərinin dialektlərində qarşılıqlı əksini zəngin nümunələr əsasında şərh edən müəllif qədim və müasir türk ləhçələrində yemək və içki adlarını, habelə söz-cümlə modelli onomastik vahidləri də nəzərdən qaçırmayıb. Monoqrafiyada uyğunlaşdırılmış sözlərin fonetik, qrammatik, leksik-semantik yöndə tarixi-genetik və struktur-funksional xüsusiyyətləri zəngin dialektoloji və türkoloji mənbələr əsasında ustalıqla nəzərdən keçirilib.

Müəllif bu əsərində türk dilləri dialektlərinin (oğuz və qıpçaq qrupu) bu və ya digər türk dillərinin ədəbi dillərə inteqrasiyasında əsas rol oynayan dialektləri müəyyənləşdirib və bununla qədim türk protodilləri rekonstruksiya edilib.

Professor Mahirə Hüseynovanın “Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası” (Bakı, 2020) kitabı ümumtürk dialekt və şivələrimizin fonetik, leksik və qrammatik yaxınlığı, oxşar və fərqli cəhətləri, onların qarşılıqlı inteqrasiyası barədə son dövrdə yazılmış çox qiymətli əsərdir. Kitab türkoloji dilçiliklə bağlı tədqiqat aparanlar üçün zəngin elmi qaynaqdır.

*İbrahim BAYRAMOV,*
*filologiya elmləri doktoru,*
*professor*

# “İqlim dəyişikliyinin əməyin mühafizəsinə təsiri”

**Naxçıvanda “İqlim dəyişikliyinin əməyin mühafizəsinə təsiri” mövzusunda konfrans keçirilib. Toplantı Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunub.**



Konfransda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bu il 100 yaşı tamam olan Naxçıvan MR-in muxtariyyətinin XX əsr siyasi tariximizin parlaq səhifəsi olduğunu vurğulayıb. O, iqlim dəyişikliyinin fəsadlarını, iqlim dəyişmələri fonunda əməyin mühafizəsinin daha da aktuallaşdığını, bu baxımdan Naxçıvan şəhərində keçirilən konfransın önəmini diqqətə çatdırıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi olaraq bu il ölkəmizin COP29-a ev sahibliyi edəcəyini bildirib. Nazir iqlim dəyişikliyinin əməyin mühafizəsinə müxtəlif yollarla təsir etməsinin işçilərin sağlamlığı və təhlükəsizliyinin təmin olunmasını daha da aktuallaşdırdığını, hazırkı konfransın da cəmiyyətin, xüsusilə işəgötürənlərin bu mövzuya diqqətinin daha da artırılmasına xidmət etdiyini bildirib.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, Milli Məclisin deputatı Musa Quliyev, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar Abbasov, Türkiyənin Əmək və Sosial Müdafiə Nazirliyinin Əməyin Mühafizəsi və Təhlükəsizliyi Baş İdarəsinin rəisi Muhammed Fatih Alodalı, İslam Əmək Təşkilatının Əmək Mərkəzinin Katibliyinin baş direktoru Azər Bayramov, BƏT-in Azərbaycan üzrə koordinatoru Yaşar Həmzəyev konfransın əhəmiyyətini vurğulayıblar.

“İqlim dəyişikliyi fonunda əməyin mühafizəsi şəraitinin təmin edilməsində mövcud çağırışlar” və “Naxçıvan MR-də əməyin mühafizəsi sahəsində perspektivlər” mövzularında panel müzakirələr aparılıb. Konfransdan sonra “Yaşıl dünya naminə həmrəylik ili”nə töhfə olaraq Naxçıvan şəhərində əlilliyi olan şəxslərin iştirakı ilə ağacəkmə aksiyası keçirilib.

**XQ**

**Naxçıvan**

# “Ad günü” qəhrəmanının 80-ci ad günü



**Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə görkəmli teatr və kino aktyoru, Xalq artisti, “Şöhrət” ordenli Hacı İsmayılovun 80 illik yubileyinə həsr olunmuş tədbir keçirildi.**

Tədbiri giriş sözü ilə açan Teatr Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova sənətkarın həyat və yaradıcılığından danışdı.

Sonra tədbir iştirakçılarına Xalq artisti Hacı İsmayılovun yaradıcılıq yolunu əks etdirən video-çarx nümayiş olundu.

İstedadlı aktyorun çoxşaxəli yaradıcılıq yoluna ekskurs edən sənətşünaslıq doktoru, professor Məryəm Əlizadə onun təkcə səhnədə oynadığı rolları analiz etməklə kifayətlənməyib, kinodakı obrazlarının da təhlilinə geniş yer ayırdı. “Hacı İsmayılovun Azərbaycan kinosunda yaratdığı obrazlar da səhnədə oynadığı rollar qədər tamaşaçılar tərəfindən sevilir”, – deyən M.Əlizadə görkəmli sənətkarın çəkildiyi “Ad günü”, “Həm ziyarət, həm ticarət”, “Yol əhvalatı” “Beyin oğurlanması” və sair kimi filmlərdəki koloritli obrazları milli kinonun inciləri adlandırdı.

Hacı İsmayılovun yaradıcılığında teletamaşaların xüsusi yer tutduğunu vurğulayan Xalq artisti, rejissor Ramiz Həsənoğlu birgə işlədiyi bir neçə tamaşada onun istedadı, aktyorluq bacarığı ilə yanaşı, məsuliyyətini də nümunə göstərdi.

Xalq artistləri Mərahim Fərzəlibəyov, İlham Namiq Kamal, Həmidə Ömərova və digərləri həmkarları Hacı İsmayılovun bir sənətkar kimi uğurlu və unudulmaz fəaliyyətindən bəhs etdilər, Teatr Xadimləri İttifaqının sədr əvəzi kimi onun idarəçilik keyfiyyətlərini də təqdirəlayiq saydılar.

**R.QURBANLI**
**XQ**

(Əvvəli qəzetin ötən nömrəsində)

Ermənistanda sovet hakimiyyəti qurulduqdan bir gün sonra, noyabrın 30-da keçirilən Azərbaycan K(b)P MK Siyasi və Təşkilati Bürosunun iclasında Ermənistan ilə əlaqələrə dair məsələ müzakirə edildi. Müzakirə nəticəsində aşağıdakı belə bir qərar qəbul olundu: “Sovet Azərbaycanı ilə sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir; Zəngəzur... Ermənistana keçir...”

Tapşırığı yerinə yetirən bolşevik rəhbərləri Bakı Sovetinin 1920-ci il dekabrın 1-də Dövlət Teatrında keçirilən təntənəli iclasında etdiyi nitqində Zəngəzurun Ermənistana güzəştə gedildiyini bildirdilər. Bu barədə bəyanatda yazılırdı:

# Ermənilərin Zəngəzur cinayətləri



“Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın – kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım göstərərək elan edir ki, bundan sonra heç bir ərazi məsələsi əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz; Zəngəzur... qəzalarının ərazisi sovet Ermənistanının bölünməz hissəsidir; ...Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır; sovet Azərbaycanının qoşunları buradan çıxarılır”.

Buradakı cinayətlərinin üstünün açılacağından qorxaraq 1920-ci ildən sonra Bolqarıstana qaçan Njde oranın vətəndaşlığını qəbul edib. Sonra nasist Almaniyasına gedərək faşistlərə qoşulub, onlarla sovet hökümətinə qarşı əməkdaşlıq edib, Hitlerlə görüşüb və general rütbəsinə yüksəldilib. 1942-ci ildə faşist ordusunun tərkibində erməni dəstələri yaradıb. Sofiya Sovet Ordusu tərəfindən tutulduqdan sonra o, həbs edilərək SSRİ-yə gətirilib. 1955-ci ilə kimi Moskva, İrəvan, Vladimir və Daşkənd türmələrində saxlanılıb. 1955-ci ildə Vladimir türməsində ölüb. Meyiti 1983-cü ildə gətirilərək Qafandakı Spitakvor kilsəsinin həyətində basdırılıb. Njde qədim türk torpağı, eradan əvvəl 8-ci əsrdən türklərin yaşadığı Süniki, yəni indiki Zəngəzuru işğal edərək Ermənistana birləşdirməsi ilə həmişə fəxr edib. Bununla bağlı ermənicə yazışmalar, Njdenin əmrləri və bölgədən göndərilən raportlar, Ermənistan Xarici İşlər Nazirliyinə yazılmış məlumatlar Zəngəzur cinayətlərinin aşkar sübutudur. Zəngəzurda yaşanan bu faciələr sonradan SSRİ-nin bu ərazini ermənilərə verməsi Azərbaycanın Türkiyə ilə quru ərazisindən məhrum edilməsi məqsədini güdmüşdür. Həmin sənədlərdə buna işarələr vardır.



2004-ci ildə Serj Sarkisyan başçılıq etdiyi Ermənistan Respublikaçılar Partiyası tərəfindən çap edilmiş “Qaregin Njdenin təlimi” kitabı hər bir erməni üçün stolüstü kitab anlamına gəlir. Ermənistanın müstəqillikdən sonra ən böyük büdcəli (7 milyon ABŞ dolları) filmi “Milli qəhrəman” Qaregin Njde haqqında çəkilən film olmuşdur (2013-də nümayiş olunmuşdur). Njdenin əsas hədəfi türklər və Türkiyə, Azərbaycan, tək məqsədi də xarici ölkələrə yayılmış ermənilərdə türklərə qarşı genetik bir nifrət meydana gətirmək idi.

“Türklərə və azərbaycanlılara nifrətlə dolu olan Njde irqçiliyinin bəzi ifadə şəkilləri fərqli olsa da, obyekt eynidir: “Harda türk görsən öldür! O sənin bioloji varlığın üçün təhlükədir”. 2016-cı ildə Qaregin Njdeyə heykəl qoyulması bu irqçi düşüncənin təntənəsi idi. Bir zamanlar Mussolinin yaratdığı faşist təlimdən və onun kitablarından təsirlənən və faşizmi bir dünyagörüşü olaraq mənimsəyən erməni ideoloq Qaregin Njde elə eyni illərdə erməni irqçi təlimi olan Tsexakronu hazırlamışdır. Ermənicə dərs kitablarında Njdedən bəhs edilən hissədə onun faşizmi təbliğ edən, onunla öyünən fikri verilir: “Faşizmin varlığı, hitlerizm haqqında bir bilgi yoxkən bu ideologiyanı 1919-da Sünik dağlarında bizim David Bek qisasçıları ayaqda tuturdular”.

Kitabın başqa bir yerində Njdenin bu fikirləri çatdırılır: “Kim Türkiyə ilə bərabərsə, o, mənim millətimin və bizim tarixi ərazilərimizə sahib olma haqqımızın düşmənidir… Elə bir düşmən ki, onu heç Allah belə mənimlə barışdıra bilməz. Budur mənim siyasi davranış tərzim… ”

Njde həbs ediləndən sonra istintaq zamanı Zəngəzur və digər bölgələrdə də törətdiyi cinayətləri də inkar etmişdi. Amma bu cinayətləri törədərkən orada olan öz erməniləri Njdenin qırmızıqvardiyaçılara və türklərə nə qədər vəhşicəsinə, qəddarcasına davrandığının şahidi olmuş və ifadələrində bu saxta erməni “qəhrəmanı” ifşa etmişdilər. Məsələn, erməni şahid Arsen Xoylunts öz ifadəsində onun vəhşiliyini belə ifadə etmişdi:

“1920-ci ilin sonu və 1921-ci ilin əvvəlində Njdenin qərargahının yerləşdiyi Tatev monastırında, onun rəhbərliyi ilə güllələnmə və qayadan diri-diri atılmaqla 400 qırmızı qvardiyaçı rus, kommunist, inqilabi ruhda olan erməni kəndli və fəhlələri öldürülmüşdür. 1921-ci ilin iyulunda Zəngəzurda sovet hakimiyyəti elan olunandan və daşnak orduları ləğv olunandan sonra mən rayon partiya komitəsinin Tatev sahəsinin katibi təyin edildim. Mənim şəxsi rəhbərliyimlə cənazələr toplanaraq dəfn edildi. Təxminən, 400-ə yaxın cəsəd toplanmışdı”.

Digər bir şahid Avak Canunts isə ifadəsində təsdiq etmişdi:

“...1920-ci ildə Njde Dro Kanayanla birlikdə Qubadlı rayonunun 100-dən çox azərbaycanlı kəndini talan etdilər. Talandan sonra bu kəndlər Njde və Dro tərəfindən yandırılmışdır. Bu kəndlərin ən böyüyü Şurnuxi və başqaları idi.

İrana qaçarkən Njde əmr etdi ki, Zəngəzurdakı bütün kommunistlərin əmlakı müsadirə edilsin. Tabeçiliyindəkilər bunu icra etdilər”.

Njdenin əldə yazılı olan bir ultimatumu var. Ermənistan siyasi tarix arxivində saxlanılır. 27 sentyabr 1920 tarixli sənəddə Njdenin bu fikirləri yer alır

"Türkləri və rusları mən elə bir zövqlə öldürürəm ki, sanki onları döyüşdə və göylərdə məhv edirəm!”

Njdenin Almaniyanın faşist rəhbərləri ilə əlaqələri nəticəsində yaratdığı 10 minlik erməni legionu SSRİ-yə qarşı döyüşlərdə iştirak etmişdi. Njdenin devizi bu idi: “Almaniya üçün ölən Ermənistan üçün ölür”.

Saysız-hesabsız cinayətlər törətmiş və Zəngəzurda “Dağlıq Erməni Respublikası” elan etmiş bu cinayətkar bölgəni Azərbaycan türklərindən təmizləməyə nail olmuşdu. 1920-ci illərdə buranın mübahisəli əraziyə çevrilməsində Njdenin bu cinayətlərinin rolu olmuş və ərazini Azərbaycandan qoparmaq üçün əsaslar yaratmışdır. Bu gün də ermənilər Qərbi Zəngəzurun Ermənistanın tərkibində olmasını Njdenin xidməti kimi təqdim edirlər.

Hələ Ermənistanda sovet hakimiyyəti qurulmamış həmin əraziyə erməni iddiaları ortaya qoyulmuşdu. Zəngəzurda görünməmiş cinayətlər, əsl soyqırımı törətmiş, alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana (Njdeyə) Ermənistanda heykəl qoyulması Ermənistanın əsaslarının yarandığı gündən məhz terrorizm üzərində qurulmasından xəbər verir. Azərbaycan torpaqlarının işğal edilməsində, xalqımıza qarşı soyqırımının həyata keçirilməsində də bu cür faşist, nasist əhval-ruhiyyə mühüm rol oynayıb. Njdeyə sitayiş, onun yaratdığı faşist təliminin təbliği və Ermənistan dövlətinin ideologiyasına çevrilməsi göstərir ki, bu ölkə irqçi düşüncədən uzaqlaşmamışdır.

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

# Tanınmış jurnalist dünyasını dəyişib

**Müasir Azərbaycan jurnalistikasına ağır itki üz verib. Milli mətbuatımızın tanınmış nümayəndəsi, bir sıra xarici media qurumlarında uzun illər ölkəmizi peşəkarlıqla təmsil edən Əməkdar jurnalist, Mətbuat Şurasının Ahıl Jurnalistlər Məclisinin üzvü, yazıçı-publisist Vasif Həzərxan oğlu Səmədov ömrünün 74-cü ilində dünyasını dəyişib.**



Vasif Səmədov 1950-ci il yanvarın 22-də Masallıda anadan olub. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. O, çoxillik zəngin jurnalistika fəaliyyəti dövründə ölkəmizin "Azərbaycan pioneri", Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsi, "Azərbaycan gəncləri", "Xalq qəzeti", Rusiyanın "İzvestiya", "Rossiyski fermer" kimi tanınmış media vasitələrində çalışıb. Həmkarımız "Oqonyok" jurnalının və "Literaturnaya qazeta"-nın Mərkəzi Asiya və Qərbi Asiya ölkələri üzrə xüsusi müxbiri və müxbir bürosunun müdiri, "Kaspiyan-İzvestiya" Beynəlxalq İnformasiya Agentliyinin təsisçisi və baş direktoru olub.

Vasif Səmədov jurnalistikada peşəkarlığı və vətənpərvərliyi ilə seçilən, Azərbaycan həqiqətlərini, Qarabağ münaqişəsinin mahiyyətini rusdilli mediada xarici aləmə geniş yayan qələm sahibi kim tanınırdı. Bu istiqamətdə ardıcıl fəaliyyəti, xüsusən "Leyla Əliyeva: "Xocalıya ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model)" üçcildliyi beynəlxalq informasiya savaşında ölkəmizə önəmli dəstək olmaqla, anti-Azərbaycan qüvvələrlə mübarizədə ona böyük nüfuz qazandırmışdı. Soydaşımızın adı jurnalist populyarlığı ilə Amerika Biblioqrafiya İnstitutunun "Dünyanın 1000 nüfuzlu şəxsi" sorğu kitabına daxil edilmişdi.

Azərbaycan Mətbuat Şurası bu ağır itki münasibətilə mərhumun doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

**Mətbuat Şurasının İdarə Heyəti,**
**"Xalq qəzeti"nin kollektivi**



# Mir Cəlal hekayə müsabiqəsi yekunlaşdı



**Aprelin 29-da "Ədibin Evi"ndə Mir Cəlal adına IV Hekayə Müsabiqəsinin qalibləri mükafatlandırılıb.**

"Ədibin Evi" Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyeva Mir Cəlalın bənzərsiz yaradıcılığından, xüsusilə onun Azərbaycan ədəbiyyatında hekayə janrının inkişafına verdiyi töhfələrdən söhbət açıb.

Ş.Mehrəliyeva qeyd edib ki, müsabiqə barədə "Ədibin Evi" Ədəbiyyata Dəstək Fondu tərəfindən ötən il noyabrın 1-də elan verilib və hekayələrin qəbulu bu il martın 1-dək davam edib. Builki müsabiqədə 230 müəllifin 261 hekayəsi nəzərdən keçirilib.

Münsiflər heyətinin üzvü, şair-yazıçı Aqşin Yenisey bu müsabiqənin keçirilməsini Azərbaycan yazılı dilinin yaşadılması, hekayə janrının inkişafı, gənc istedadlı nasirlərin üzə çıxarılması, tanıdılması baxımından yüksək qiymətləndirib.

Tədbirdə müsabiqənin münsiflər heyətinin üzvü olmuş, mərhum alim, professor Şirindil Alışanlının da xatirəsi anılıb. Fərid Hüseyn özünün hazırladığı və Şirindil Alışanlının "Ön söz" yazdığı Mir Cəlalın böyük şairimiz Nizamiyə həsr etdiyi elmi əsərlərinin toplusu olan "Nizami Gəncəvi dünyası" kitabının ilk nüsxəsini iştirakçılara təqdim edib.

Sonra qaliblər mükafatlandırılıb.

Müsabiqədə Asim Arazlı "Kələntər dayı", Aliq Məmmədov "Naqafil alver" və Aysel Şıxlı "Sonsuzadək gülümsəyən uşaq" adlı hekayələrinə görə 3-cü yerə layiq görülüblər. "Yanğınların dili olsa" hekayəsinin müəllifi Nuranə Abbasova və "Heyvagülü" adlı hekayəsinə görə Yaşar Əhmədov müsabiqədə ikinci yeri tutublar. Münsiflərin yekdil rəyi ilə Mir Cəlal adına hekayə müsabiqəsində birinci yerə Leyla Əliyevanın "İşıq" hekayəsi layiq görülüb.

Mükafat fondu I yer üçün 3000 manat, II yer üçün 2000 manat, III yer üçün 1000 manat nəzərdə tutulub.

Qalibləri təbrik edən ADA Universitetinin rektoru, professor Hafiz Paşayev bildirib ki, bu müsabiqə onun yeni-yeni nasirlərin tanınmasına və onların öz qələmlərini hekayə janrında sınamasına təkan verib.

**XQ**

# Türküstan şeirinin tərcümanı

## *Qırğız Mədəniyyəti Günlərinin daha bir xoş əks-sədası*

**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanda keçirilən Qırğız Mədəniyyəti Günləri artıq arxada qalsa da, iki dövlət arasında mədəni əlaqələrin daha da inkişaf etməsi baxımından böyük rolu olan tədbirlərlə bağlı təəssüratlar xoş duyğularla xatırlanır. Ziyalıların görüşündə şair Adil Cəmilin tərcüməsində görkəmli qırğız şairi Alıkul Osmonovun "Zamanın zamanı" toplusunun təqdimatı da yaddaqalan tədbirlərdən olub.**






Adil Cəmil "Manas" eposu və türk dastançılıq ənənəsi" mövzusunda dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. Möhtəşəm qırğız eposunun tərcüməçisi və Azərbaycanda yeganə tədqiqatçısı eyni zamanda, "Manas"la bağlı bir neçə nəşrin müəlifidir, sözügedən məşhur şedevri nəzmlə interpretasiya edib. 1995-ci ildə Ümummilli lider Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyətinin tərkibində "Manas"ın 1000 illik yubileyi ilə bağlı Qırğızıstanın paytaxtı Bişkekə səfər edib. "Qırğızfilm"in istehsalı olan "13-cü nəvə" filminin tərcüməsi də ona aiddir. Tanınmış qələm ustasının qırğız ədəbiyyatına aid əsərləri Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda təqdim olunub. Bir sözlə, Adil Cəmilin türk kitablərinin qorunması, tanıdılması, türk xalqlarının qədim düşüncə və təfəkkürünün gələcək nəsillərə ötürülməsi istiqamətində önəmli çalışmaları var.

Nəhayət, onu da qeyd edək ki, Qırğız Mədəniyyəti Günlərində Alıkul Osmonovun "Zamandan zamana" kitabının təqdimatı ilə Adil Cəmil oxuculara qardaş xalqın ünlü şairinin şeirlərini ilk də dilimizdə oxumaq imkanı yaradıb. Qırğızıstanın Azərbaycan və Gürcüstandakı səfirliyinin təşəbbüsü və Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi ilə hazırlanmış bu kitabda mükəmməl poetik tərcümə nümunələri orijinalla birlikdə verilib.

**Adil Cəmil "XQ"-yə açıqlamasında dedi:**

– Qırğız mədəniyyəti, ədəbiyyatı mənim üçün çox doğmadır. Mən qırğız folklorunu, o cümlədən "Manas" eposunu tədqiq və tərcümə etməkdən daim mənəvi zövq almışam. Çox istəyirdim ki, qədim ədəbiyyatla yanaşı, müasir qırğız şeirinin parlaq nümunələri də dilimizdə nəşr olunsun. Alıkul Osmonovun yaradıcılığının Azərbaycan oxucusuna çatdırılması bu yöndə atılan ilk addımlardandır.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti, sənətşünaslıq elmləri doktoru, professor Aktoti Raimkulova topluya yazdığı "Türk ruhunun poetik carçısı" adlı "Ön söz"ündə Adil Cəmilin tərcüməsində Alıkul Osmonovun kitabının oxucular tərəfindən sevilsəcəyinə əminliyini ifadə edib. Bu isə Qırğız Respublikasının səfiri Kayrat Osmonaliyevin fikridir: "Qeyd etməliyəm ki, Alıkul Osmonovun şeirlərinin uğurlu tərcüməsində qırğız mədəniyyəti ilə çoxdan tanış olan Adil Cəmilin əməyini xüsusi dəyərləndirmək lazımdır".

Alıkul Osmonov şeirlərinin birində yazıb:

*Ömrümüz ötürsə, çarəsi yoxdur,*
*Ötən günlərimiz qayıtmaz daha.*
*Özümü xoşbəxtlər xoşbəxti billəm –*
*İki kəlmə sözüm qalsa sabaha.*

Ruhu şad olsun! İki kəlmə sözü yox, yüzlərlə şeiri əbədiyyətə ərməğan qalıb. Özü də təkcə qırğızca deyil, başqa dillərdə də oxunmaq qismətində bulunub. Tərcüməsinə gəlincə isə, sanki, Alıkul Osmonov şeirlərini elə bizim Azərbaycan türkcəsində yazıb.

Cəmi 35 il yaşamış (1915–1950) Alıkul Osmonovu "Tanrı dağlarından boylanan şair" adlandıran Adil Cəmil onu qırğızların ən görkəmli milli şairlərindən biri kimi dəyərləndirir: "Əbəs yerə ona "qırğızların Puşkini" deməyiblər. O, qırğız poeziyasına yeni düşüncə, təzə ifadə tərzi gətirdiyinə görə ədəbi yaddaşda yenilikçi şair kimi qalıb".

Biz də qələm dostumuzu türk dünyası ədəbiyyatı ilə bağlı yeni uğuru münasibətilə təbrik edir və inanırıq ki, yeni tərcümə kitabı soydaşlarımızın məxsusi marağına səbəb olacaq.

***Əli NƏCƏFXANLI***
**XQ**

# "Kitab həyat kompasıdır"

**Xəbər verdiyimiz kimi, bu günlərdə AMEA-da Azərbaycan Naşirlərinin I Forumu keçirilib. Təntənəli açılış mərasimi və panellərdə nəşr məhsulları və strategiyaları, çap problemləri, kitab və oxucu məsələsi kompleks şəkildə nəzərdən keçirilib.**



Forum çərçivəsində "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyi, AMEA, Təhsilin İnkişafı Fondu, Yunus Əmrə İnstitutu və "Hədəf Nəşrləri"nin birgə təşkilatçılığı ilə AMEA parkında "Oxu Günü –10" layihəsi reallaşıb. Şənbə və bazar günlərinə təsadüf edən sərgi-festivala 40-a yaxın nəşriyyat, ondan çox kitab mağazası, 70-dən artıq ədəbiyyat və incəsənət xadimi qatılıb.

Artıq ənənə halını almış "Oxu Günü"ndən məqsədi ölkədə kitabçılığı inkişaf etdirmək, gənclərin intellektual mühitə adaptasiyasını aktual saxlamaq, oxucu-yazıçı görüşlərini stimullaşdırmaq, endirimli kitablar təqdim etmək və bununla kitabın əhəmiyyətini cəmiyyətə aşılamaqdan ibarətdir. Elə "Kitab oxu, 1000 AZN qazan" marafonu da həmin məqsədə xidmət edib. Layihə "Gəlin, birgə oxuyaq!" devizi altında təşkil olunub.

Sərgi-festivalda şair və yazıçılar – Rüstəm Behrudi, Varis, Elxan Elatlı, İlqar Kamil, İlham Tumas, Elay, Tamerlan İsmayılzadə, Aynur Cavid, Ramil Əhməd, Məsudə Cabbar, Erix Qauzer, Fidan Cəfərzadə və başqalarının təqdimat və imza mərasimləri olub. III və IV "Kitabqurdu" Oxu Marafonunun müəllifləri – Şəmil Sadiq, Amin Sükut, Sevinc Elsevər, Elgüsel, Zahid Xəlil, Xəyalə Murad, Rövşən Abdullaoğlu, Rafiq İsmayılov, Fatimə Alxaz, Rəşad Bayramov və Gülüş Xəlilova da festivalda iştirak ediblər.

Sərgidə kitabların ucuz satışı da təşkil edilib. "Ədəbi söhbətlər", "Ustad dərsləri", uşaqlar üçün "Nağıl gecələri" hər kəsdə maraq doğurub. Çinarə Məlikzadə, Röyal Musa, eləcə də digər gənc ifaçılar festivala rəng qatıblar. Eyni zamanda, qədimi xalçalar, misgərlik məmulatları və digər sənət nümunələri də sərgilənib.

"Oxu Günü-10"-un iştirakçılarından aldığımız müsahibələri təqdim edirik.

**BDU-nun professoru, Əməkdar jurnalist Qulu Məhərrəmli:**

– Sərgi-yarmarka elə bir dəyərli tədbirdir ki, kitab özü oxucunun hüzuruna gəlir. Bu böyük məkanda vaxt itirmədən istədiyin kitabı tapmaq olur. Kitab mənəvi tələbatdır, beynin və ruhun qidasıdır, buna görə də kitabdan əl çəkmək olmaz. Son 4–5 ildə Bakıda və respublikamızın digər yerlərində belə sərgi-yarmarkaların təşkili çox önəmlidir. Məncə, hər şənbə və bazar günləri açıq meydanlarda kitab sərgiləri keçirilsə, yaxşı olar.

**Elman Mustafazadə, kitab satıcısı:**

– Əslində, bu gün burada oxucu kütləsi elə də çox deyil. Buna qədər 34 il yaşadığım Niderlandda ən kiçik şəhərdə belə kitab yarmarkalarında, necə deyərlər, iynə atsan, yerə düşməz. İstərdik ki, burada da elə olsun. Amma Bakıda kitab xiridarları üçün yaradılan şərait fərəh doğurur. İstənilən qədər kitab satışa çıxarılıb.

**Natiq Babayev, coğrafiya üzrə fəlsəfə doktoru, AYB-nin üzvü:**

– Mütaliəsiz insan həyatda inkişafdan qalır, bədii zövq baxımından irəliləyə bilmir. Kitab həyat kompasıdır, – desək, yanılmarıq. Gərək bunu unutmayaq və kitablarla ünsiyyətimizi daha da artıraq. Bu baxımdan, belə sərgi-yarmarkalar kitabsevərlər üçün əla fürsətdir. Seçim imkanı da genişdir, kitablar da endirimlə təklif olunur. Bəyənilən təşəbbüsdür.

**Valid Hüseynəliyev, kitab satıcısı:**

– Sərgiyə uşaqlar daha çox gəlib. Elə ən çox satılan da uşaq ədəbiyyatıdır. Biz bunu çox yüksək qiymətləndiririk. Sərgi oxucu üçün kitabları daha da əlçatan edir. Hər hansı bir mağazadan fərqli olaraq, burada qısa vaxtda 30–40 nəşriyyatın kitabları ilə tanış olmaq mümkündür. Belə sərgilərin təşkili yüksək qiymətləndirirəm.

**Uğur Qismətli, oxucu:**

– Bu formatda kitabla ünsiyyətin daim tərəfdarıyam. Burada təkcə Azərbaycan yazıçılarının deyil, dünya yazıçılarının da əsərləri yetərli qədərdir. Bu da dünyagörüşünün genişləndirilməsi üçün əla bir üsuldur. Ümid edirəm ki, belə tədbirlər daha çox keçiriləcək və oxucuları cəlb edəcək.

***Ə.ƏLİYEV***
***XQ***

# "Klassik divan ədəbiyyatında bitki obrazı"



**Aprelin 29-da AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda akademik Zərifə Əliyevanın 101-ci ildönümü və "Yaşıl dünya naminə həmrəylik ili" münasibətilə "Klassik divan ədəbiyyatında bitki obrazı" mövzusunda respublika elmi-praktiki konfransı keçirilib.**

Məclis institutun Türk dünyası əlyazmalarının tədqiqi və Türkdilli əlyazmaların tədqiqi şöbələrinin birgə təşkilatçılığı ilə keçirilib.

Konfransdan öncə Əlyazmalar İnstitutunun Ekspozisiya zalında Əlyazmaların elmi ekspozisiyası və təqdimi şöbəsinin hazırladığı "Əlyazmalarda təbiət motivləri və nəbati elementlər" adlı sərgi nümayiş olunub. Plenar iclası Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli açıb və Azərbaycan elminin ən parlaq simalarından olan, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 101 illik yubileyinə və "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş bugünkü konfransın orijinallığı və aktuallığı ilə seçildiyini bildirib. AMEA prezidenti akademik Zərifə Əliyevanın hər zaman öz zəngin dünyagörüşü və baxışı ilə fərqlənərək Azərbaycanda qadın ziyalıların aparıcı qüvvəsi olduğunu, əsərlərinin bir çox xarici dillərə tərcümə olunaraq yeni oftalmoloq alimlərin yetişməsinə töhfə verdiyini vurğulayıb və konfransın işinə uğurlar arzulayıb.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli sıravi həkimlikdən akademik zirvəsinə ucalan Zərifə xanım Əliyevanın zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçdiyini, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr verdiyini qeyd edib, onun elmi araşdırmalarının, alim kimi qazandığı böyük uğurların Azərbaycanın tibb elmi tarixində xüsusi yer tutduğunu vurğulayıb.

Plenar iclas məruzələrin dinlənilməsi ilə öz işinə davam edib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova, Tibb Universiteti Oftalmologiya kafedrasının müdiri tibb elmləri doktoru, professor Paşa Qəlbinur, Milli Məclisin, tarix üzrə fəlsəfə doktoru Məlahət İbrahimqızı və başqaları çıxışlarında Zərifə xanım Əliyevanın mənalı və zəngin həyat yolundan nümunələr gətirərək, onun Azərbaycan cəmiyyətinə verdiyi töhfələrdən söz açıblar.

Konfrans məruzə ətrafında çıxışlarla öz işinə davam edib.

***Qabil YUSİFOĞLU***
**XQ**

Beynəlxalq həyat

# ABŞ–Çin qarşıdurması...

## Amerika və Asiya nəhəngləri güc nümayiş etdirir



**ABŞ və Çinin dünya liderliyi uğrunda mübarizəsi artıq həlledici mərhələyə daxil olur. İki qoçun başı bir qazanda qaynamadığı kimi, bu iki super güc də dünyanı heç cür bölüşmək istəmir. Bu sərt mücadilədə kimin qalib gələcəyini əvvəlcədən demək çətindir. Qərb və Çin sivilizasiyaları bir-birinə yad dəyərlər daşıyıcılarıdır. Onların ümumi məxrəcə gələcəklərini təsəvvür etmək belə çətindir.**

Bu məqamda tarixə kiçik bir ekskursiya etməyə ehtiyac var. Bəllidir ki, İkinci Dünya müharibəsinin iki əsas qalib dövləti – ABŞ və keçmiş SSRİ dünyanı iki əks ideoloji düşərgəyə bölərək öz aralarında ciddi rəqabətə başladılar. 1980-cı illərin sonunda (prezident Ronald Reyqanın səyləri məxsusi qeyd olunmalıdır – red) məlum oldu ki, Kreml bu gərgin yarışda uduzub. Bu nəticə həm də planlı iqtisadiyyatın azad bazar sisteminə məğlubiyyəti idi.

Sonrakı dönəmdə Vaşinqton dünyanı vahid dirijor pultundan arzu etdiyi kimi idarə edirdi. Lakin 2008-ci ilin avqustunda, yəni Rusiyanın Gürcüstana hərbi müdaxiləsi göstərdi ki, Moskva artıq "ümumi oyun qaydaları"na boyun əymək istəmir. Xüsusilə 2014-cü ildə Krımın ilhaqından sonra bəlli oldu ki, Obama administrasiyası dünya üçün güvənc yeri olmaq gücündə deyil.

O biri tərəfdən Çin sürətlə inkişaf edərək liderlik uğrunda həlledici döyüş üçün gücünü toparlayırdı. "Sarı əjdaha" nəinki Uzaq Şərq regionunda, Afrikada, hətta ABŞ-ın qulağının dibində Latın Amerikasında güclü iqtisadi dayaqlar yaratdı. Ağ ev bunun fərqindədir. Pentaqon öz növbəsində elan etdi ki, ABŞ milli maraqları üçün Çin təhdid mənbəyidir.

Beləliklə, ABŞ bir nömrəli rəqibini iqtisadi və hərbi cəhətdən zəiflətmək niyyətinə düşüb. Vaşinqtonda hesab edirlər ki, yaxın bir neçə il ərzində Çini ram etmək mümkün olmazsa, onu sonra durdurmaq, sadəcə müşkül olacaq. Bu, Birləşmiş Ştatlar üçün arzuolunmaz qara yuxudur! Gecikmək uduzmağa bərabərdir.

Bəlli olduğu kimi, Çin iqitisadiyyatı ixracyönümlü iqtisadiyatdır. Bu, "səmavi dövlət"in ən zəif yeridir. Vaşinqton məhz Axillesin ən zəif yeri – dabanını hədəfə alıb. ABŞ dövləti Çinin əsas ixrac bazarlarındakı mövqelərini zəiflətməyə cəhd edir. Dünyada aparılan vəkalət müharibələrin əsas səbəblərindən biri budur.

Ağ ev Rusiya–Ukrayna müharibəsinin başlanmasına və artıq iki ildən çoxdur ki, davam etməsinə "kömək etməklə" Avropa İttifaqı (Aİ) – Çin əlaqələrinə sarsıdıcı zərbə endirib. Aİ liderləri Pekinə tez-tez səfərlər edərək, bu ölkə ilə hərtərəfli əlaqələri davam etdirmək əzmində olduqlarını vəd etsələr də, "Sem dayı"nın ismarıclarını Pekinə çatdırmalı olurlar. Mesaj isə bundan ibarətdir ki, Çin Ukraynaya qarşı müharibədə Rusiyaya kömək etməməlidir.

Pekin artıq bu təzyiqlərə baş əymək istəmir. Bu günlərdə ABŞ-nin dövlət katibi Entoni Blinken Pekinə səfər edərək Çin rəhbərlərini Rusiyaya hərbi və iqtisadi dəstək verməkdən vaz keçməyə çağırıb. Ağ ev Pekini yeni sanksiyalarla qorxutmağa çalışır. Çin rəsmiləri isə ABŞ-ı "qırmızı xətt"i keçməyə cəhddə suçlayırlar.

Amerikanın "baş diplomatı"nın Pekində müzakirələr apardığı gün Çinin müdafiə naziri Astanada rusiyalı həmkarı Sergey Şoyqu ilə görüşüb. Üstəlik, Çin rəsmisi NATO-nu Rusiyaya qarşı hərbi əməliyyatlara dəstək verdiyinə görə qınayıb. Bu, açıq mətnlə Vaşinqtona "mən sənin çaldığın havaya oynamaq fikrində deyiləm" mesajıdır.

Çin Rusiyanın Ukrayna cəbhəsində nə qalib gəlməsini, nə də uduzmasını arzulayır. Pekinə onun iradəsi ilə hesablaşan bir Rusiya lazımdır. Şimal qonşusunun nəhəng təbii resursları Çin iqtisadiyyatına çox böyük fayda verə bilər. Bugünün özündə də Çin Rusiyadan enerjini güzəştli qiymətlərlə alır. Rusiyanın isə Çinin dominantlığını qəbul etməsi inandırıcı görünmür.

Rusiya–Ukrayna müharibəsinin nəticəsi yeni dünya düzəninə ciddi təsir edəcək. Qərb bu müharibədən artıq yorulub. Vaşinqton Kiyevi acı reallıqla barışmağa vadar edərək bütün gücünü Çinə qarşı həlledici mücadiləyə səfərbər etməyə çalışır. Görünən budur ki, ABŞ Asiya regionundakı müttəfiqlərini ətrafına toplayıb son savaşa hazırlaşır.

Belə bir həlledici məqamda türkdilli dövlətlərin öz milli maraqlarına uyğun olaraq bir araya gəlməsi böyük önəm daşıyır. Planetin bir siyasi mərkəzdən idarə olunması artıq imkansız görünür. Yaxın gələcəkdə dünyanın tək, iki, yaxud çoxqütblü olması məlum olacaq. Böyük ehtimalla dünyada etnik, dini zəmində bir necə yeni güc mərkəzi formalaşacaq.

Biz bu yazının əvvəlində qeyd etmişdik ki, Qərb sivilizasiyasının öz yerini Çin sivilizasiyasına verəcəyi ağlabatan görünmür. Ən azı ona görə ki, nə qədər qədim olsa belə, çağdaş dünya xalqlarının böyük əksəriyyəti çinlilərin həyat və düşüncə tərzini qəbul etmək niyyətində deyil. Onların bir çoxu üçün bu, tarixin inkişaf təkərini geri döndərmək cəhdidir.

Yadımdadır, bir dəfə Rusiya televiziyası ilə çıxış edən məşhur kosmonavtlardan biri dedi ki, kosmosdan Yer kürəsi bir futbol topu qədər kiçik görünür. Lakin bu planet bütün bəşəriyyət üçün doğmadır. Axı, sonsuz bir qalaktikada həyatın şərəfi sayılan insanın yaşadığı yeganə planetdir. Bəli, dünyanın heç bir supergücünün bəşəriyyətin taleyi ilə oynamaq haqqı yoxdur.

***Məsaim ABDULLAYEV,***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

### Ekspert rəyi



**Güləhməd TALIBOV,**
**Azərbaycan Texniki Universitetinin professoru**

ABŞ və Çin artıq barışmaz rəqiblərə çevirlir. Vaşinqton nəyin bahasına-olursa olsun, Çin iqtisadiyyatını çökdürməyə çalışır. Rusiya Federasiyasına "ikili təyinatlı mallar" tədarükünə görə, bəzi Çin müəssisələrinə qarşı sanksiyalar artıq qüvvədədir.

Çin lideri Si Cinpin, həmçinin Tayvana hücum hazırlamaqda və Cənubi Çin dənizində "aqressiv davranışda", ucuz mallarının "həddindən artıq" ixracında ittiham olunur. ABŞ, həmçinin Avstraliya və Böyük Britaniya ilə Çinə qarşı təhlükəsizlik paktı imzalayıb və Filippində Çin sahillərinə çatan orta mənzilli raket sistemi yerləşdirib.

Bu günlərdə isə Tayvana bir neçə milyard dollarlıq yardım barədə qərar qəbul edib. Bundan başqa, Prezident Cozef Bayden Çinə məxsus "Tik-Tok" sosial şəbəkəsini ABŞ-də qadağan etməyə imkan verən qanun layihəsini imzalayıb.

Ekspertlər isə bildirirlər ki, bu və digər mənfi amilləri əsas götürərək Çin də ABŞ-la müharibəyə hazırlaşır. Bu ölkədə 2022-ci ilin iyulunda separatizmə qarşı qanun qəbul edilib. Bu qanun Tayvan problemini müharibə yolu ilə həll etməyə imkan verir. Səfərbərlik qaydaları təcrübəli hərbi qulluqçuların çağırılmasının lehinə dəyişdirilib. Müdafiə xərcləri, o cümlədən orduda süni intellektin tətbiqi üçün xərclər artırılıb.

Si Cinpin ölkədə dünya səviyyəli hərbi tibb universitetləri yaradır. O qeyd edir ki, onlar diqqətini "döyüş meydanı və qoşunlara" yönəltməlidir. Çin həm də çoxlu qızıl alır. Çünki qızıl yeganə sərvətdir ki, dəyəri yüksəlir və ABŞ-ın dollar hegemonluğuna tabe deyil.

Analitiklərin yazdığı kimi, Çin Milli Bankı da gizli şəkildə qızıl alır və onun ümumi ehtiyatları 5300 tonu ötüb ki, bu da rəsmi məlumatlardan 2,5 dəfə çoxdur. Bu, təbii ki, gələcəkdə silah almaq üçün ən yaxşı maliyyə mənbəyidir. Bununla yanaşı, Çin ABŞ-ın Federal Ehtiyatlar Sisteminin istiqrazlarını satır. Pekin bu istiqrazların əsas alıcılarından biridir.

O biri tərəfdən ABŞ dünyanın texnoloji baxımdan ən güclü iqtisadiyyatına malikdir və bu ölkənin şirkətləri texnoloji inkişafda öndədirlər. Xüsusilə kompüterdə, əczaçılıqda və tibbdə, aerokosmik sənaye və hərbi texnikada da ilk sıralardadır.

Ümumiyyətlə, ABŞ iqtisadiyyatı dünyanın ən çoxşaxəli milli iqtisadiyyatıdır və demək olar ki, son 100 ildə qlobal iqtisadiyyatda liderliyini qoruyub saxlayır. Hələlik, bu iki nəhəng bir-birinə qarşı əzələ nümayiş etdirir. Sonrasından Allah qorusun!

# Avarçəkənimiz Parisə vəsiqə qazanıb

## *Bu, komandamızın 18-ci Olimpiya lisenziyasıdır*

**Azərbaycan komandası Paris Yay Olimpiadasına daha bir lisenziya qazanıb. Dördilliyin ən nüfuzlu idman yarışına vəsiqə bu dəfə akademik avarçəkmə üzrə yığmadan gəlib.**




Millimizin üzvü Diana Dımçenko Macarıstanın Seqed şəhərində təşkil edilən Avropa Olimpiya Təsnifat reqatasında yarımfinalda finişə hamıdan tez çatmaqla bu uğura nail olub. İdmançımız 2 min metr məsafəyə yürüşdə gərgin mübarizənin sonunda ukraynalı rəqibini qabaqlayaraq birinci olub. Bu nəticə ilə avarçəkənimiz A finalına vəsiqə qazanıb. Reqlamentə görə, A finalında yarışda ilk üçlükdə qərarlaşan idmançılar olimpiadaya vəsiqəni təmin edirlər. Diana Dımçenko həlledici mərhələdə 2-ci yeri tutaraq Parisə lisenziya əldə edib.

İdmançı açıqlamasında havanın küləkli olması səbəbindən yarışın çox çətin keçdiyini bildirib:

– Havanın küləkli olması avarçəkənlərə mane olurdu. Yarışa yaxşı hazırlaşmışdım. Düşünürəm ki, bu uğur əziyyətin, çox çalışmağın nəticəsidir.

D.Dımçenko Olimpiadaya lisenziya qazandığı üçün xoşbəxt olduğunu vurğulayıb.

Qeyd edək ki, sonuncu dəfə Azərbaycan avarçəkmə idman növündə 2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində təşkil edilən Yay Olimpiya Oyunlarında təmsil olunub.




Xatırladaq ki, bu, Azərbaycanın "Paris-2024"ə ümumilikdə 18-ci lisenziyası olub.

***Leyla QURBANOVA***
***XQ***


## "Gənclik" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

**14 iyun 2024-cü il saat 12.00-da cəmiyyətin səhmdarlarının növbəti illik ümumi yığınacağı "Zoom" proqramı vasitəsilə onlayn rejimində keçiriləcəkdir. Bununla əlaqədar ümumi yığıncaqda iştirak etmək üçün sizi "Ganjlik" onlayn qrupa daxil etmək məqsədilə 2024-cü il iyunun 13-ü saat 22. 00-dək adınızı,soyadınızı və atanızın adını 050 -398- 03- 13 mobil telefon nömrəsinə "Whatsapp" vasitəsilə göndərməyiniz xahiş olunur.**

**Gündəlikdəki məsələlər:**

1. 2023-cü ilin yekunları üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti barədə müfəttişin hesabatı.
2. Sair məsələlər.

Hörmətli səhmdarlar,2024-cü il iyunun 14-də ümumi yığıncaqda iştirakınızı təsdiq etmək üçün saat 11.00-dək şəxsiyyətinizi təsdiqləyən sənədin surətini 050- 398- 03 -13 mobil telefon nömrəsinə "Whatsapp "vasitəsilə göndərməyiniz xahiş olunur və saat 11.30-dək (yəni iclasın başlanmasıına 30 dəqiqə qalmış) "Zoom" proqramı ilə keçirilən ümumi yığıncağa qoşulmaq və yığıncağın müzakirəsində iştirak etmək üçün "Whatsapp" vasitəsilə "Ganjlik" onlayn qrupa daxil olmaq və qrupun təşkilatçısı olan "Ümumi yığıncağ" ın adından paylaşdığımız linkə daxil olmalısınız.

Ümumi yığıncağın gündəliyinin materialları ilə tanışlıq üçün 2024-cü il iyunun 1-dən sonra cəmiyyətin direktoruna müraciət edə bilərsiniz. Səhmdarların iştirakı vacibdir. Telefon - (012) 465-84-90.

***Direktor***

## Teymur Əhmədov adına "AzNar" QSC səhmdarlarının nəzərinə!

14 iyun 2024-cü il saat 12.00-da Göyçay şəhəri, Natəvan küçəsi 120 nömrəli ünvanda Teymur Əhmədov adına "AzNar" QSC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Növbəti illik ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilmişdir:

1. "AzNar" QSC-nin 2023-cü il üçün illik (maliyyə) hesabatlarının müzakirəsi.
2. "AzNar" QSC-nin 2023-cü maliyyə-təsərrüfat ilinin yekunlarına görə dividendlərin elan edilməsi və ödənilməsi.
3. "AzNar" QSC-nin restrukturizasiyası və yeni törəmə cəmiyyətlərinin, təsərrüfat subyektlərinin yaradılması ilə bağlı təşkilati-hüquqi məsələlərin müzakirəsi.

Cəmiyyətin bütün səhmdarlarına izah olunur ki, səhmdarlar ümumi yığıncağın çağırılmasına 30 (otuz) gün qalmış gündəliyin layihəsinə aid təkliflər vermək və ümumi yığıncağa 15 (on beş) gün qalmış gündəliyə daxil edilmiş bütün məsələlər üzrə müvafiq sənədlərlə AZ2300, Göyçay şəhəri, Natəvan küçəsi 120 nömrəli ünvanda yerləşən cəmiyyətin inzibati binasında tanış olmaq hüququna malikdirlər.

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiqləyən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiq edən sənəd və nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə təqdim etməlidir.

Əlaqə telefonu – (+9942027) 4-05-17.

Ünvan – AZ2300, Göyçay şəhəri, Natəvan küçəsi 120.

## "Abşeron Şərab" ASC səhmdarlarının nəzərinə!

22 iyun 2024-cü il saat 11.00-da "Abşeron Şərab" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin maliyyə fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.

Bütün səhmdarların iştirakı vacibdir.

Telefon: +994 51 -255- 71- 42.

Ünvan- Abşeron rayonu, Mehdiabad qəsəbəsi, Dostluq küçəsi 1.

## BİLDİRİŞ

12 may 2024-cü il saat 13.00-dan 17.00-dək Bakı şəhəri, 28 May küçəsi 58 nömrəli ünvanda yerləşən Azərbaycanda Yaşayan Yunanların "ARQO" ictimai birliyinin inzibati binasında birlik üzvlərinin növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Müzakirə olunacaq məsələlər:

1. 2018–2023-cü illər üzrə idarə heyətinin hesabatı.
2. İctimai birliyin yeni idarə heyətinin üzvlərinin və sədrinin seçilməsi.

## "Alatava – Avtonəqliyyat 2" ASC səhmdarlarının nəzərinə!

20 iyun 2024-cü il saat 15.00-da "Alatava – Avtonəqliyyat 2" ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1.Cəmiyyətin 2023-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyəti barədə idarə heyətinin hesabatı.
2.Digər məsələlər.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 87 (30491) 30 aprel 2024-cü il, çərşənbə axşamı

# Xivənin “min bir gecə” aləmi

## Xeyvək quyusu ətrafında möcüzəli şəhər

**Xivə şəhəri Özbəkistanın qədim yaşayış məskənlərindən biridir. Onun, təxminən, 2500 yaşı olduğu ehtimal edilir. Xivəyə gələn hər kəs, sanki, “Min bir gecə” nağıllarındakı sehirli aləmə düşür. Bəli, burada hündür divarların arxasında gizli qapıları olan gil labirint şəhər gizlənir.**





Əfsanəyə görə, Xivənin əsasını Nuh peyğəmbərin oğlu Sim qoyub. Belə nəql edirlər ki, bir dəfə səhrada səyahət edərkən Sim yuxuya gedir. Yuxuda od görür və dəhşətli susuzluq hiss edir. Yuxudan hövlnak ayılan Sim səhrada quyu qazmağa başlayır. Suya çatanda qışqırır: “Xey vak! Xey vak!” Bu, “Nə yaxşı!” deməkdir. Beləcə, həmin “Xey vak!” ifadəsindən şəhərin adı formalaşmağa başlayır: Xeyvə, Xivə...

Əvvəlcə bir quyu ətrafında tikilən kiçik Xivə zaman keçdikcə böyük bir şəhərə çevrilir. Böyük İpək Yolu ilə hərəkət edən tacirlər burada dünyanın ən təmiz suyundan içir və məmnuniyyətlə deyirdilər: “Oxxay!”

Zaman-zaman hakim sülalələr dəyişir, şəhər ərəblər və səlcuqlar tərəfindən tutulur. 1220-ci ildə Xivəni Çingiz xanın qoşunları dağıdıb, şəhər yer üzündən silinir. Lakin susuz səhrada saf suyun məskəni olan şəhər yenidən dirçəlir, təzədən qurulur və artıq 1598-ci ildə Xivə Xarəzmin paytaxtı olur.

Orta əsrlərdə Xivə xanlığının əsası qoyulur və şəhər müsəlman Şərqində ən böyük dini mərkəzlərdən birinə çevrilir. XVIII–XIX əsrlərdə burada çoxlu saray, məscid və mədrəsələr ucaldılır. 1873-cü ildə ciddi müqavimətə baxmayaraq, Xivə xanlığı Rusiya imperiyasının himayəsi altına düşür. 1918-ci ildə Qızıl Ordu hissələri Xivə xanının hakimiyyətini devirir. 1924-cü ildən Xivə isə Özbəkistan SSR-in, 1991-ci ildən isə müstəqil Özbəkistanın adi şəhəri olur.

Xivə eynən bizim Bakı kimi iki şəhərdən ibarətdir: İçan-Kala (İçərişəhər) və Disan-Kala (Qalanın çölündə olan şəhər). Xivə abidələrinin çoxu içərişəhərdə, karvanların rahatlığı üçün dörd əsas istiqamətə yönəlmiş dörd qapısı olan İçan-Qalada cəmləşmişdir. Lakin Xivənin görməli yerləri bununla bitmir. İçan-Qalanın Kalta Minor, İslam Xoca Minarəsi, Cümə məscidi və Xivənin hamisi, qəhrəman və şair Pəhləvan Mahmud Məqbərəsi kimi tarixi abidələri mövcuddur.

Kalta Minor qədim Şərqdə ən möhtəşəm tikililərdən biri kimi tanınmışdır. Onun 14 metrlik özülü minarənin hipotetik hündürlüyü haqqında təəssürat yaradır. Tarixi mənbələrdə qeyd edilir ki, minarənin tikintisi Məhəmməd Əmin Xanın ölümündən sonra dayandırılıb və onun varisləri inşaat işlərini başa çatdırmaq üçün pulu olmayıb. Bu barədə bəzi əfsanələr və rəvayətlər də var. Əfsanələrdən birinə görə Kalta Minorun memarı Buxara hökmdarlarına tikinti başa çatdığdan sonra onun şəhərində bundan da hündür minarə tikməyi vəd etmişdi. Buna görə də memar 26 metr hündürlüyündəki yarımçıq tikilidən yerə atılıb. Yeri gəlmişkən, Kalta Minor Orta Asiyada tamamilə keramik plitələrlə bəzədilmiş yeganə minarədir.

İçan-Kala isə 10 metr hündürlüyündə döyüş divarlarının arxasında dar küçələrin labirintində məscidlər, mədrəsələr və minarələrin qərar tutduğu əzəmətli bir qaladır. Səyyahlar deyirlər ki, yolun Xivəyə düşübsə, deməli keçmişə düşmüsən. Yerli əhali yüz illər əvvəl olduğu kimi, təndirlərdə çörək bişirir, məşhur ipək xalçalar toxuyur və gözəl gil qablar düzəldirlər. Xivənin dar küçələrində bu gün də çamaşırlar qurudulur, tənbəl pişiklər isə isti daşların üstündə uzanıb mürgüləyirlər. Şəhər həm də ağac toxuma və oyma işləri ilə məşhurdur. Şəhərin qonaqları adətən buradan suvenirsiz qayıtmırlar.

Maraqlıdır ki, həmin əfsanəvi Xeyvak quyusu hələ də yaşayır və kölgəli şəhər həyatlarının birində gizlənir. Şəhərdə hər addımda attraksionlar var. Çoxlarına giriş pulsuzdur, ancaq qapılarda duran yerli ağsaqqallar qonaqlardan pul istəyirlər. Xivədə hər adam üçün bir həyat hekayəti var. Baron Münhauzenin dediyi kimi: “Gülümsəyin, cənablar! Gülümsəyin və eşitmədiyinizi və ya başa düşmədiyinizi iddia edin. Eyni zamanda, hərəkətə davam edin, inanın, mütləq sizdən əl çəkəcəklər!”

Xivə gün batanda və gecələr çox gözəl olur, ecazkar işıqlandırma və Ay işığı İçan-Qalanı nağıllar aləminə çevirir. Gecələr İçan-Kalada və onun ətrafında gəzmək bizim İşərişəhərdəki kimi tamamilə təhlükəsizdir. İçan-Qalada 300-ə yaxın ailə yaşayır.

Buranın mətbəxi də özünəməxsusluğu ilə seçilir. Özbəkistanın digər şəhərləri ilə müqayisədə Xivənin yeməkləri daha yüngül hesab olunur. Plov bu yerlərin də şah yeməklərindəndir. “Tuxum-barak” isə qəlyanaltı kimi verilir - bu, içinə yumurta vurulmuş küftə kimi bir yeməkdir. Yerli mətbəxin möcüzəsi isə şüyüd aşıdır. Qədimdən Xivədə hazırlanan parlaq yaşıl əriştəyə lağman deyilir. Yumurta və unla qarışdırılmış xırda doğranmış şüyüd xəmirə xüsusi rəng verir. Əriştəyə tərəvəz və ətli sous tökülür, süzmə isə lağmanla verilir. Bütün bunlar birlikdə inanılmaz dərəcədə dadlıdır və yedikcə həzz alırsan.

***İlqar RÜSTƏMOV***
**XQ**

Qardaş ellərdən soraq

## Azərbaycan rəqsləri Özbəkistanda




**Özbəkistan Mədəniyyət Nazirliyinin təşəbbüsü, UNESCO-nun dəstəyi ilə qədim Xivə şəhərindəki məşhur “İçan-Kala” kompleksinin Köhnə Ark meydanında beynəlxalq “Ləzgi” rəqs festivalı davam edir.**

Festival çərçivəsində keçirilən konsertdə Özbəkistan, Azərbaycan, Rusiya, Qazaxıstan, İspaniya, Qırğızıstan, Koreya, Tacikistan, Yaponiya, Braziliya, Bolqarıstan və digər ölkələrin rəqs kollektivləri çıxış ediblər.

Özbəkistan Mədəniyyət Nazirliyinin dəvəti ilə musiqi bayramında ölkəmiz Xalq artisti Rüfət Xəlilzadənin rəhbərliyi ilə Azərbaycan Dövlət Rəqs Ansamblı ilə təmsil olunub. Ansambl “Mənim Azərbaycanım”, “Ağ çiçəyim” və “Qaytağı” rəqslərini ifa edib. Çıxışlar tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Rüfət Xəlilzadə XQ-nin müxbirinə bildirib:

– Kollektiv müntəzəm olaraq Azərbaycanda və xarici ölkələrdə çıxış edir. Son vaxtlarda Çində, Türkiyədə, Qətərdə konsertlərimiz olub. Bu ayın sonunda İstanbulda, 28 May Müstəqillik Günü ilə əlaqədar isə Ankara şəhərində böyük solo konsert nəzərdə tutulur. Şuşada keçiriləcək “Xarıbülbül” festivalına ciddi hazırlaşırıq. Qərbi Azərbaycanda məşhur olan “Ağbaba” yallısını bu festival üçün yeni quruluşda hazırlayırıq. Laçında da konsertlərimiz nəzərdə tutulur. Bir sözlə, işlərimiz çoxdur, çıxışlarımızı uğurla yerinə yetirəcəyimizə əminəm.

Xatırladırıq ki, festivala dünyanın 30 ölkəsindən gələn 200-ə yaxın rəqqas, musiqiçi, musiqi nəzəriyyəçisi, xoreoqraf qatılıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

İdman

## Ülviyyə Fətəliyeva Avropa qalibi olub

**Azərbaycan şahmatçısı Ülviyyə Fətəliyeva Yunanıstanın Rodos adasında təşkil edilən qadın şahmatçılar arasında Avropa çempionatının qızıl medalını qazanıb.**



Şahmatçımız son turda Nino Batsiaşvili ilə heçheçə etməklə aktivinə yarım xal əlavə edib. Beləliklə, 10 turdan 8,5 xal toplayan təmsilçimiz qitə çempionatının qalibi olub. Onu da qeyd edək ki, Ü.Fətəliyeva fərdi yarışda Avropa çempionu titulunu qazanan ilk Azərbaycan şahmatçısı kimi tarixə düşüb.

Xatırladaq ki, o, iki il əvvəl qitə çempionatında bürünc medal qazanmışdı.

## Lisenziya turnirində daha 6 medal

**Türkiyənin Antalya şəhərində keçirilən “Olimpik deneme” yarışında Azərbaycan millisinin üzvləri daha 6 mükafat qazanıblar.**







Paris Yay Olimpiya Oyunlarına lisenziya xarakterli yarışın ikinci günündə 200 metr məsafəyə qaçışda Əlhəm Nağıyev bütün rəqiblərini geridə qoyaraq finişə birinci çatıb. Qadınların mübarizəsində isə Lamiyə Vəliyeva 200 metr məsafəyə qaçışda qalib adını qazanıb. Fəridə Rzayeva isə 3-cü yeri tutub.

Üç təkanla tullanma yarışının yekununda Rüstəm Məmmədov 2-ci pillədə qərarlaşıb. Toğrul Şahtaxtinski isə U 16 kateqoriyasında disk atma və nüvə itələmədə ən yüksək nəticə göstərərək hər iki növdə qızıl medallara sahib çıxıb.

Qeyd edək ki, yarışın ilk günündə uzunluğa tullanmada Nazim Babayev qızıl, Orxan Aslanov bürünc medal qazanıb. Qadınlar arasında 100 metr məsafəyə qaçışda L. Vəliyeva fəxri kürsünün ən yüksək pilləsinə qalxıb, kişilərin eyni məsafəyə yarışında isə Ə. Nağıyev 2-ci yeri tutub.

## Prezident Kubokunda 12 taekvondo medalı

**Estoniyanın paytaxtı Tallində taekvondo üzrə Prezident Kuboku yarışı başa çatıb.**



Yarışın son günündə gənclərdən ibarət Azərbaycan millisi 5 medal qazanıb. Komandanın heyətində Gülü Zamanlı (42 kiloqram) bütün rəqiblərinə qalib gələrək birinci yeri tutub. Yalnız finalda məğlub olan Məhəmməd Həsənli (48 kiloqram) gümüş medala yiyələnib. Seyidxanım Məmmədova (49 kiloqram), Mehdi Budaqlı (45 kiloqram) və Ziya Həsənli (55 kiloqram) üçüncü yeri tutublar.

Bununla da Azərbaycan taekvondoçuları Prezident Kubokunu 12 medalla başa vurublar. Bundan əvvəl kiçikyaşlı idmançıların yarışında 1 gümüş mükafat əldə edən komanda yeniyetmələrin mübarizəsində isə 1 qızıl, 2 gümüş və 3 bürünc medala yiyələnib.

***L.SABİRQIZI***
**XQ**

Hava

## Aranda yağmursuz, dağlarda yağış və duman...



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən aprelin 30-da Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Cənub-şərq küləyi əsəcək, axşama doğru mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 14-17°, gündüz 25-30° isti olacaq.***

Atmosfer təzyiqi 762 mm civə sütunu, nisbi rütubət gecə 50-60, gündüz 30-40 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz saatlarında bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 27-32°, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacaq.

***Q.QASIMOV***
**XQ**

## Balıqların “balıq dili”

**Suyun altındakı canlıların bir-biri ilə ünsiyyət qurduğunu düşünmüsünüzmü? Okeanın dərinliklərində böyük bir sükut olduğunu təsəvvür edirsinizmi?**

ABŞ-ın Kornel Universitetinin alimlərinin dediyinə görə, əslində, okeanlar sirli səslərlə - balıqların başqalarına siqnal göndərmək və özlərini qorumaq, rəqiblərini və ya yoldaşını xəbərdar etmək üçün istifadə etdiyi səslərlə doludur.

Almaniya alimləri uzunluğu cəmi 12 millimetr olan “Danionella cerebrum” adlı kiçik şəffaf balıqların 140 desibel səs çıxardığını aşkar ediblər. Səsin məqsədi hələlik məlum deyil. Lakin tədqiqatçılar yalnız erkək balıqların bu səsi çıxardığının şahidi olublar. Elm adamları səsin akvariumda iyerarxiya yaratmaq məqsədi daşıdığını təxmin edirlər.

Qeyd edək ki, balıqlar həm çoxalma, həm də qidalanma zamanı bir-biri ilə “danışırlar”. Florida Universitetinin ekoloqu Audrey Loobi bu səslərin dəniz altında havadan 5 dəfə daha sürətli yayıldığını deyir. “FishSounds” (“Balıq səsləri”) adlı internet kitabxanasında balıqların çıxardığı 1200-dən çox səs toplanıb.

***S.FİDAN***
**XQ**

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikasının insan hüquqları üzrə ilk müvəkkili (ombudsman)

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun kollektivi iş yoldaşları Təranə Vəlizadəyə atası

**ƏLİABBAS MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin rəhbərliyi və kollektivi Bakı Dövlət Universitetinin kafedra müdiri, akademik Yaqub Mahmudova həyat yoldaşı

**ALMAS XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3882
SİFARİŞ 957
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00